Allahın kitabı ilə Əhli Beytin ər-Rəhmanın dostları haqqında dedikləri.

Müəllif: Abdullah ibn Cəuran əl-Xudeyr.
Yoxlayan: Şeyx Raşid Səd ər-Raşid.

GİRİŞ.

Müxtəlif səbəblərə görə bir çox insanlar səhabə sözünün lüğəti mənası ilə istilahi mənalarını bir-birinə qarışdırırlar. Bu səbəblərdən:

1-Ya onların bu barədə anlayış və biliklərinin azlığı.

2-Ya da Ərəb dilinə dərindən yiyələnmədiklərindən bunların arasındakı fərqi ayırd edə bilməmələridir.

Elə bu iki səbəbə görə bir çoxlarının bu barədə səhv mövqe tutmalarının, Peyğəmbərin ﷺ səhabələrinə bir çox batil söz və felləri nisbət etmələrinin şahidi oluruq. Onlar səhabələri münafiqlik və mürtədlik kimi təhlükəli etiqadlarla ittiham edirlər. Bütün bu iddialara da sübut olaraq xəstə düşüncə və faydasız baxışdan irəli gələn, özlərinə aydın olmayan ayələri, əlaqəli məsələləri və dəlilləri gətirirlər. Onlar Səhih və Mütəvatir hədislərdəki geniş yayılmış kəlimələri götürüb, onları batil təvillər etmişdirlər. Bu da onların elmsiz və səhf düşüncəli olmalara sübutdur.

Ərəb dilini bilməmələrindən əlavə onlar öz iddialarında Zəif və uydurma, səhihliyi peyğəmbərdən ﷺ sabit olmayan rəvayətlərə əsaslanır, və bu dəlillərdən elə möhkəm yapışırlar ki, onlarla münaqişə edən şəxs danışıq əsnasında onların böyük bir elmdən bixəbər və elmsiz olduqları bəlli olur. İnsanı böyük xətalardan qoruyan bu elm “Mustaləh əl-Hədis” və “ər-Ricəl” (ravilərin halları) adlanır.

Ona görə də Səhabələrin adilliyi barəsində söhbət açmazdan qabaq gərək aşağıdakı suallara əsasən bir sıra məsələlərə aydınlıq gətirək:

-“Səhabə” sözünün tərifi nədir?

-Münafiqlər səhabələrdən sayılırlarmı?

-Peyğəmbərin ﷺ vəfatından sonra dindən çıxanlara səhabə kəliməsi şamil olunurmu?

-Əhli Beyt (onlara salam olsun) səhabələr barəsində nələr deyiblər?

-Əgər nöqsansız Allah səhabələrdən razı idisə bəs nəyə görə onların arasında ixtilaf və ayrılıq baş verdi?

-Əhli Beytin səhabələrə yaxın və ya uzaq olmalarına dəlil nədir?

Allahın izni ilə səhabələrin ﷺ adilliyinə və onların yüksək məqamlarına Allahın kitabı və Əhli Beytin şahidliyi ilə bu səhifələri oxumaqla aydınlıq gətirəcək və aşağıdakı mövzular əsnasında bir sıra sual və şübhələrə cavab gətirəcəyik.

Birinci mövzu: “Səhabə” ləfzinin lüğəti və istilahi mənaları.

İkinci mövzu: Aşağıdakı başlıqlar altında Allahın kitabı və Əhli Beytin səhabələrə verdikləri təriflər.

Birinci başlıq: Allahın kitabı ilə Əhli Beytin Peyğəmbərin ﷺ səhabələrinə etdikləri təriflər.

İkinci başlıq: Allahın kitabı ilə Əhli Beytin üç xəlifəyə verdikləri təriflər.

Üçüncü başlıq: Allahın kitabı ilə Əhli Beytin Mühacir və ənsarlara verdikləri təriflər.

Dördüncü başlıq: Allahın kitabı ilə Əhli Beytin Bədr əhlinə verdikləri təriflər.

Beşinci başlıq: Allahın kitabı ilə Əhli Beytin Fəthdən[1] öncə xərcləyib döyüşlərə verdikləri tərifləri.

Üçüncü mövzu: Səhabələrin arasında fitnələr necə baş verdi? Bu fitnələri ilk dəfə qızışdıranlar kimlər olub?

Dördüncü mövzu: İslama və müsəlmanlara qarşı olan intriqalar.

Beşinvici mövzu: Peyğəmbərin ﷺ səhabələri ilə bağlı dürüst mövqe.

Altıncı mövzu: Səhabələrlə Əhli Beyt arasında ad və qohumluq əlaqələri.

Yeddinci mövzu: Şübhələr və onlara rədd.

Son söz: Eləcə də səhabələr barəsində irəli sürülən iddia və şübhələri dinlədikdən sonra hər bir müsəlmanın ağlına gələ biləcək fikirlərə nəfslərə rahatlıq gəlsin deyə bu risaləni səhifələdikdən sonra aydınlıq gətirmiş olacağıq.

Hər vaxt və hər zaman, hər yerdə yeni-yeni şübhələrin çoxalması səbəbindən hər bir insanın nəfsində bu mövzu haqqında kədər və üzgünlük vardır. Ola bilsin ki, qeyd etdiklərimdə şübhələrin qovulması və sualların cavablarla açıqlanması üçün kifayət qədər bəyan vardır. Ola bilsin ki, bu bəzi müsəlmanların qəlblərini bürümüş qəfləti aradan qaldıracaqdır. Yəqin ki, bundan sonra Allahın izni ilə Onun bizim üçün seçib razı qaldığı düzgünlüyə müvəffəq olaq.



[1] Məkkənin fəthi nəzərdə tutulur.

Birinci məsələ:

“Səhabə” sözünün tərifi.

Səhabələrin adilliyinə aid olan dəlilləri bəyan etməzdən öncə “səhabə” kəliməsinin açıqlamasını qeyd etmək istəyirik. Çünki bu kəlmənin mənasını aydınlaşdırmaqla, bu sözün əhatə dairəsinin bəyan olunması ilə, bu ləfzlə vəsf oluna biləcək şəxslərin qeyd edilməsi və bu kəlimə deyildikdə kimin nəzərdə tutulduğunu bilməklə biz sonra əldə edəcəyimiz elm və tədris zamanı müvəffəqiyyətə nail olmuş olacağıq.

Bu açıqlama da iki yöndən: lüğəti və istilahi yöndən olacaqdır.

Birinci: “Səhabə” sözünün lüğəti tərifi:

Səhabə sözü sahib (yoldaş) sözündən götürülüb. Onun bir çox mənaları da vardır, lakin əsasən davamiyyətli olan, tabeçilik mənasında işlənir.[1]

əs-Suhbə (yoldaşlıq) kəliməsinin bəzi lüğəti mənalarını qeyd etməzdən qabaq onu vurğulamaq istəyirəm ki, lüğəti mənada işlədildikdə bu söz bir çox hallarda istilahi tərifə uyğun olmur. Az sonra biləcəyik ki, bu zaman həmin söz mütləq şəkildə lüğəti mənada olur. Elə buna görə də yoldaşlıq ləfzinin bir sıra mənalarını xatırlatmaq istərdim ki, bu kəlimə ümumi şəkildə işləndikdə bu mənaları oradan çıxaraq:

1 - Məcazi suhbə (yoldaşlıq): Bu iki şəxsin arasında mövcud olan müştərək vəsfə aid olur. Ola bilsin ki, peyğəmbərin ﷺ öz xanımlarına “Həqiqətən də siz Yusufun yoldaşlarısınız[2]” –dediyi kimi onların arasında uzun müddət olsun.

2 - İzafi suhbə (sahiblik): Bağlılığı olan bir şeyin mövcudluğu səbəbindən izafət olunan sahib sözü. Məsələn: Mal sahibi, elm sahibi və s.

3 - Məsuliyyətlə mövcud olan suhbə (gözətçi): Uca Allahın buyurduğu kimi:

﴿وَمَا جَعَلۡنَآ أَصۡحَٰبَ ٱلنَّارِ إِلَّا مَلَٰٓئِكَةٗ﴾

“Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik”. [Əl-Muddəssir surəsi, 31-ci ayə]

4 - Görüş yoldaşlığı: Suhbə kəliməsi iki nəfər arasında olan görüş zamanı da işlənir. Hətta bu görüş müvəqqəti olaraq bircə dəfə baş versə belə.

---

[1]Lisənul Ərab: (1-519)

[2]Biharul Ənvar: (28-137)

Buna da misal olaraq peyğəmbərin ﷺ bu sözlərini misal gətirə bilərik: “Müştəri ilə satıcı bir-birindən ayrılmadıqları müddətdə ixtiyar sahibidirlər. Onlardan biri öz yoldaşına deyir ki: Seç .....”[1] Burada müştəri satıcı ilə yalnız bircə dəfə görüşüb ondan mal almasına baxmayaraq yoldaş adlandırılıb.

5 - Yanaşı işlədilməklə olan suhbə: Bu yoldaşlıq həm mömin həm də kafir üçün işlənir. Uca Allahın bu ayəsini misal gətirək:

﴿ قَالَ لَهُۥ صَٰحِبُهُۥ وَهُوَ يُحَاوِرُهُۥٓ أَكَفَرْتَ بِٱلَّذِى خَلَقَكَ مِن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ سَوَّىٰكَ رَجُلًا ﴾

“Onunla söhbət edən yoldaşı isə dedi: “Səni torpaqdan, sonra mütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə qarşı küfrmü edirsən?” [əl-Kəhf surəsi, 37-ci ayə]

Həmçinin bu ayəyə nəzər salaq:

﴿ وَكَانَ لَهُۥ ثَمَرٌ فَقَالَ لِصَٰحِبِهِۦ وَهُوَ يُحَاوِرُهُۥٓ أَنَا۠ أَكْثَرُ مِنكَ مَالًا وَأَعَزُّ نَفَرًا ﴾

“O öz mömin yoldaşı ilə söhbət edərkən ona: “Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!” –dedi”. [əl-Kəhf surəsi, 34-cü ayə]

Ola bilsin ki, insan bir dəfə də olsun görüşmədiyi bir şəxsə yoldaş demiş olsun. Necə ki Abdur Rahmən ibn Auf ﷺ, Bədr döyüşündə Peyğəmbəri ﷺ söydüyünə görə Əbu Cəhli qətlə yetirmək üçün axtaran, ənsarlardan olan iki yeniyetməyə: “Sizin soruşduğunuz yoldaşınız budur”.[2]

Beləliklə, qeyd olunduğu kimi səhabə sözünün bu mənaları ümumi şəkildə qeyd olunmur. Çünki əgər səhabə kəliməsi bütün bu mənalara şamil olunsaydı o zaman yəhudilər, münafiqlər, nəsranilər və peyğəmbəri ﷺ görən müşriklər də səhabə sayılardılar.

Çünki lüğəti mənada səhabə deyildikdə daimi yoldaşlıq, Allaha iman və iman üzərində ölmək nəzərdə tutulmur.

Tənbeh: Münafiq olan Abdullah ibn Ubey ibn Səlulun peyğəmbərə ﷺ etdiyi iftira zamanı Ömər ﷺ peyğəmbərdən ﷺ onun boynunu vurmaq üçün icazə istədikdə peyğəmbər ﷺ belə buyurdu: “Dəymə, Sonra insanlar deyəcəklər ki, Muhəmməd öz yoldaşlarını öldürür”.[3]

Burada peyğəmbər ﷺ münafiqə səhabə deyir. Lakin o istilahi mənanı deyil lüğəti mənanı qəsd edirdi. Bu da ərəblərin öz dillərində işlətdikləri

[1] Mustədrak əl-Vasəil: (13-299)
[2] Bihar əl-Ənvar: (19/327)
[3] “Usulul Kəfinin şərhi” /Mövla Muhəmməd Səlim əl-Məzəndərani: (12/487), “Siranın səhihi” /Seyid Cəfər Murtəda: (6/163)

bəlağata uyğun olaraq peyğəmbərin bəlağat və hikmətindəndir. Onların bu sözü yalnız lüğəti mənada başa düşmələrinin iki əsas səbəbi var:

Birinci: Bu kəlimənin lüğəti mənada işlənməsində imanla nifaq arasındakı fərq qəsd olunmur. Çünki bunun müəyyən qaydaları qeyri mövcuddur.

İkinci: Peyğəmbər ﷺ Ömərə münafiqi öldürülməsini qadağan etməsinin səbəbini demişdi: "İnsanlar danışmasın". Burada insanlar deyildikdə səhabələr deyil, digərləri nəzərdə tutulur. Çünki Quran iman əhlinə xitab etdikdə belə deyir: "Ey iman gətirənlər". [əl-Bəqərə surəsi, 153-cü ayə], ümumən insanlara, həm kafirlərə, həm də möminlərə xitab etdikdə isə: "Ey insanlar" [əl-Bəqərə surəsi, 21-ci ayə] deyə buyurur.

Məlumdur ki, peyğəmbərə ﷺ tənə vurmağa ən çox həris olanlar kafirlərdir. Ona görə də peyğəmbər ﷺ Abdullah ibn Ubey ibn Səlulu öldürdüyü təqdirdə kafirlər onun ölümə layiq olan münafiqi öldürdüyünü deyil; Muhəmməd səhabələrini öldürür –deyəcəkdilər. Bu xəbər ərəblər arasında sürətlə yayıldıqda isə kafirlərin istəkləri olan insanları bu dəvətdən uzaqlaşdırmaq və peyğəmbərin ﷺ ətrafında yığışmaq həyata keçmiş olacaq.

Bütün bunları, səhabə sözünü anlamaq kafir və münafiqlər üçün heç də çətin deyildi. İlk müsəlmanlar üçün də xüsusən bu belə idi. Çünki onlar dil ustaları və bunda digərlərinə meydan oxuyanlar idilər. Onların yolları ilə gedən, onlar kimi anlayan, Allahın bir çox çətin düyünlərdə düzgün anlayışa, səhih rəyə müvəffəq etdiyi şəxslər də onlar kimidir.

İkinci: Səhabə sözünün istilahi tərifi.

Səhabə sözünün istilahi mənasını açıqlayan ifadələr müxtəlifdir. Onların içərisində ən dəqiq, ən aydın və ən geniş bəyanlı olanı budur:

SƏHABƏ: Peyğəmbərlə ﷺ mömin olaraq görüşüb, müsəlman olaraq ölən şəxsə deyilir.

İkinci Şəhid[1] demişdir: "Səhabə: Peyğəmbərlə ﷺ ona iman gətirərək görüşüb, müsəlman olaraq ölən şəxsə deyilir. Hətta onu görüb iman gətirməsi ilə müsəlmankimi ölməsi arasında o mürtəd olsa belə səhabə sayılır. Burada görüşmə dedikdə onunla oturub, onunla gəzmək birinin digərinə çatmasından daha ümumi məfhum nəzərdə tutulur. Onu görmək və ya danışdırmaq şərt deyildir".[2]

[1] Böyük alim Zeynuddin ibn Nuruddin əl-Əmili əl-Cəbi (Hicrətin 965-ci ildə vəfat etmişdir)
[2] ər-Riayə (339-cu səhifə)

Bu tərifə aydınlıq gətirərək deyirəm ki;

“Peyğəmbərlə... görüşüb” –deyildikdə, o sağ olarkən bunun baş verməsi nəzərdə tutulur. İstər ona baxmış olsun və ya Abdullah ibn Ummu Məktum ﷺ kimi kor olduğuna görə peyğəmbərlə görüşüb, onu görə bilməyən şəxs.

Peyğəmbərin ﷺ vəfatından sonra islamı qəbul edib dəfnindən qabaq onu görən şəxs səhabə sayılmır.

“Ona iman gətirərək” –deyildikdə peyğəmbərə ﷺ, onun gətirdiklərinə iman gətirməyin şərt olması nəzərdə tutulur. Bununla da bəlli olur ki, əhli kitabdan olaraq kafir olanlar, münafiqlər və qeyriləri peyğəmbərlə ﷺ görüşsələr belə, onun vəfatından sonra islama gəlsələr belə səhabə sayılmırlar.

“İslam üzərində ölən” –deyildikdə isə o nəzərdə tutulur ki, peyğəmbərin ﷺ vəfatından sonra mürtəd olaraq dünyasını dəyişən kəsə səhabə deyilmir.

XÜLASƏ:

Bütün bu qeyd etdiklərimizdən bizə aydın olur ki, mütəxəssis alimlərin rəylərini əsas tutaraq, nəfsin istəklərinə və rəyə uyaraq təfsirdən uzaq duraraq şəriətdəki istilahi kəlimələrin bəyanında dillə istilahın əhəmiyyəti nə dərəcədədir. Qeyd edəcəyimiz məsələləri dürüst anlamaq üçün çox mühüm olduğundan bunları məsələyə giriş olaraq açıqlamaq istədim. Bunu da mən məsələnin məğzi olan Quran və əhli Beytin səhabələrə etdikləri tərifə girməmişdən qabaq qeyd etdim.

İkinci məsələ:
Quran və Əhli Beytin səhabələri tərifləmələri.

Hər bir müsəlmana vacibdir ki, Muhəmmədin ﷺ səhabələrinin yüksək məqamlarda olduğunu etiqad etsin. Etiqad etsinlər ki onlar ümmətlərin ən xeyirlisi və islamın ən xeyirli dönəmi onların əsridir. Bu da onların islamı ilk əvvəl qəbul etmələri, peyğəmbərin sonuncusu və elçilərin ağası Muhəmmədə ﷺ yoldaşlıq etmələri, onunla birlikdə cihad edib ondan şəriəti öyrənmələri və ondan sonrakılara təbliğ etmələrinə görədir.

Eləcə də müsəlmanın etiqad etməsi gərəkən məsələlərdən biri də odur ki, peyğəmbərin ﷺ səhabələrinin hamısı Fəzilət və mərtəbə baxımından eyni dərəcədə deyillər. İslamı daha əvvəl qəbul etmələrinə, apardıqları cihada və etdikləri hicrətə, dinləri və peyğəmbərləri üçün etdikləri əməllərə görə onların fəzilət baxımından mərtəbələri müxtəlifdir.

Müsəlmanlar Allahın kitabı ilə Əhli Beytin təfsilatına uyğun olaraq mühacirləri ənsarlardan, Bədr əhlini Ridvan beyəti əhlindən, Fəthdən öncə islamı qəbul edib cihad edənləri başqalarından üstün tuturlar. Məhz Allahın kitabı və Əhli beyti sevməyi peyğəmbər ﷺ bizə vəsiyyət etmişdir.

Allahın razılığından sonra Quran və Əhli Beyt səhabələrin adilliyinə şahidlik etmişlər. Onlara verdikləri tərifllər, onların xeyirli sözləri və gözəl əməlləri haqqındakı rəvayətlər çox məşhurdur.

Mövzumuzun məzmunu da aşağıdakı başlıqlarla bu tərifllərin bəyanıdır:

Birinci başlıq: Quran və Əhli Beytin peyğəmbər ﷺ səhabələrinə etdikləri tərifllər.

İkinci başlıq: Quran və Əhli Beytin üç xəlifəyə etdikləri tərifllər.

Üçüncü başlıq: Quran və Əhli Beytin mühacir və ənsarlara etdikləri tərifllər.

Dördüncü başlıq: Quran və Əhli Beytin Bədr əhlinə etdikləri tərifllər.

Beşinci başlıq: Quran və Əhli Beytin Fəthdən qabaq və sonra xərcləyib vuruşanlara etdikləri tərifllər.

Birinci başlıq: Quran və Əhli Beytin peyğəmbər ﷺ səhabələrini tərifləmələri.

Şübhəsiz ki, hər bir aqil müsəlman Qurani Kərimi oxuyub, onun ayələrini yaxından incələyir və orada peyğəmbərin ﷺ səhabələrinin fəzilətləri, Allahın onları seçib doğruçu sayaraq, qəbul sifətləri ilə vəsf etməsi haqqındakı rəvayətlərin mütəvatir olmasını görür.

Allahın kitabında səhabələrin tərifllənməsi:

Uca Allah buyurur:

﴿مُّحَمَّدٞ رَّسُولُ ٱللَّهِۚ وَٱلَّذِينَ مَعَهُۥٓ أَشِدَّآءُ عَلَى ٱلۡكُفَّارِ رُحَمَآءُ بَيۡنَهُمۡۖ تَرَىٰهُمۡ رُكَّعٗا سُجَّدٗا يَبۡتَغُونَ فَضۡلٗا مِّنَ ٱللَّهِ وَرِضۡوَٰنٗاۖ سِيمَاهُمۡ فِي وُجُوهِهِم مِّنۡ أَثَرِ ٱلسُّجُودِۚ ذَٰلِكَ مَثَلُهُمۡ فِي ٱلتَّوۡرَىٰةِۚ وَمَثَلُهُمۡ فِي ٱلۡإِنجِيلِ كَزَرۡعٍ أَخۡرَجَ شَطۡـَٔهُۥ فَـَٔازَرَهُۥ

فَٱسْتَغْلَظَ فَٱسْتَوَىٰ عَلَىٰ سُوقِهِۦ يُعْجِبُ ٱلزُّرَّاعَ لِيَغِيظَ بِهِمُ ٱلْكُفَّارَ ۗ وَعَدَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّٰلِحَٰتِ مِنْهُم مَّغْفِرَةً وَأَجْرًا عَظِيمًۢا ﴾

“Muhəmməd Allahın elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları ruku edən, səcdəyə qapanan, Allahdan lütf və rzılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran ütmişdir. Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir”. [əl-Fəth surəsi, 29-cu ayə]

Şeyx Muhmməd Baqir ən-Nasiri demişdir: “Muhəmməd Allahın elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları ruku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən”. Yəni: Onlar bununla Allahdan daha artıq nemət və Onun razılığını istəyirlər.

“Əlamətləri isə üzlərində olan səcdə izidir”. Yəni: Onların əlamətləri qiyamət günü səcdə yerlərinin daha bəyaz olmasıdır.

“Bu onların Tövratdakı vəsfidir”. Yəni: Bütün bu sadalanan vəsflər onların Tövratdakı vəsfləri ilə eynidir.

“Eləcə də İncildə” - “onu qüvvətləndirmiş” Yəni: əkin güclənib qalınlaşaraq kökü və gövdəsi üzərində qalxaraq böyüyür.

əl-Vahidi demişdir: Uca Allah bu misalı Muhəmmədə ﷺ və onun səhabələrinə çəkmişdir. Buradakı əkin Muhəmməd ﷺ, cücərtilər isə onun ətrafında olan möminlər və səhabələrdir. Onlar əkinin əvvəlində olduğu kimi zəif idilər.

Sonra biri-birlərini qüvvətləndirdilər. “Kafirləri qəzəbləndirsin”. Yəni: Möminlərin çoxluğu və itaətdə ittifaq etmələri kafirlərin qəzəbinə səbəb olur.[1]

Uca Allah yenə də buyurmuşdur:

﴿ وَٱلسَّٰبِقُونَ ٱلْأَوَّلُونَ مِنَ ٱلْمُهَٰجِرِينَ وَٱلْأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحْسَٰنٍ رَّضِىَ ٱللَّهُ عَنْهُمْ وَرَضُوا۟ عَنْهُ ﴾

[1] “Məcmə Bəyan” təfsirinin müxtəsəri. Həmçinin “Cəmiəl-Cəvəmi”, “Min vahyil Quran” (Fəth surəsi, 29-cu ayə)-a bax.

“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar”. [ət-Tövbə surəsi, 100-cü ayə]

Şeyx Əminuddin Əbu Əli ət-Tabrasi demişdir:

Ayədə iki qibləyə namaz qılanlar nəzərdə tutulur. Bəziləri isə burada Bədr döyüşündə iştirak edənlərin nəzərdə tutulduğunu demişlər. Ənsarlar deyildikdə isə on iki nəfərdən ibarət olan birinci Əqabə beyəti ilə yetmiş nəfərdən ibarət olan ikinci Əqabə Beyətinin iştirakçıları və Musab ibn Umeyrin ﷺ gəlib Quran öyrətdiyi şəxslər nəzərdə tutulur.[1]

TƏNBEH:

Bir qrup fitnəkar zəlalət əhli bu ayəni açıq-aydın mənalarından uzaqlaşdırıb təvil etməyə səy göstəriblər və deyiblər ki; Bu ayə bütün səhabələrə tərif olaraq qəbul oluna bilməz. Belə ki, Allah ayənin sonunda buyurmuşdur:

﴿وَعَدَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ مِنۡهُم مَّغۡفِرَةٗ وَأَجۡرًا عَظِيمَۢا﴾

“Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir”. [əl-Fəth surəsi, 29-cu ayə].

İkinci ayədə isə Uca Allah buyurur:

﴿وَٱلسَّٰبِقُونَ ٱلۡأَوَّلُونَ مِنَ ٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحۡسَٰنٖ رَّضِيَ ٱللَّهُ عَنۡهُمۡ وَرَضُواْ عَنۡهُ﴾

“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara...” [ət-Tövbə surəsi, 100-cü ayə]

Buradakı “onlardan” və “-dan” ləfz və şəkilçisi səhabələrin hamısına deyil, bəzilərinə şamil olunur.

Bu kimi şübhələri aradan qaldırmaq üçün aşağıdakı məsələlərə aydınlıq gətirmək istəyirik:

Birinci: Uca və Ulu olan Allah öz kitabında möhkəm, açıq-aydın, təvilə ehtiyacı olmayan ayələri bəyan etmişdir. Kim bu cür açıq-aydın ayələrə bərq vuraraq onu təvil etməyə çalışarsa, onun bu işinin üstü açılacaq və səhvi üzə çıxacaq.

Quranda mütəşabeh ayələr də vardır. Yəni mənası bir çox insanlar üçün bəlli olmayan ayələrdən söhbət gedir. Bu zaman mütəşabeh ayələri möhkəm ayələrə qaytarmaq lazımdır. Belə edən kəs hidayətə varar, əksini edən isə hidayətin əksinə varar.

[1] “Cəmiəl-Cəvəmi” təfsirində və “Təfsir min Vahyil Quran”a bax, əl-Əyaşi (Tövbə surəsi, 100-cü ayə)

İkinci: “Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir” ayəsindəki “onlardan” kəliməsi və “Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara...” ayəsindəki “-dan” şəkilçisi bəzilərinin düşündüyü kimi bəzi səhabələri nəzərdə tutmur. Bu ayələrdə aşağıdakı iki mənadan biri istənilir:

Birinci məna: Buradakı “-dan” şəkilçisinin onların cinsindən, onların misalında mənasında olmasıdır.

Aşağıdakı ayədəki kimi:

﴿ ذَٰلِكَ وَمَن يُعَظِّمْ حُرُمَٰتِ ٱللَّهِ فَهُوَ خَيْرٌ لَّهُۥ عِندَ رَبِّهِۦ ۗ وَأُحِلَّتْ لَكُمُ ٱلْأَنْعَٰمُ إِلَّا مَا يُتْلَىٰ عَلَيْكُمْ ۖ فَٱجْتَنِبُوا۟ ٱلرِّجْسَ مِنَ ٱلْأَوْثَٰنِ وَٱجْتَنِبُوا۟ قَوْلَ ٱلزُّورِ ﴾

“Bax belə! Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar. Haram olduğu sizə oxunanlardan başqa, qalan heyvanlar sizə halal edilmişdir. Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin”. [əl-Həcc surəsi, 30-cu ayə]

Bu ayədə Uca Allahın bizə bəzi bütlərdən çəkinməyimizi əmr etməsini desək məna düzgün olmur. O: “Elə isə murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin” –buyurmaqla bizi bütün bütlərdən, bütlərin cinsindən uzaqlaşmağı əmr edir.

İkinci məna: Buradakı “-dan” şəkilçisi təkidləyici rolunu oynayır.

Uca Allahın buyurduğu kimi:

﴿ وَنُنَزِّلُ مِنَ ٱلْقُرْءَانِ مَا هُوَ شِفَآءٌ وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ ۙ وَلَا يَزِيدُ ٱلظَّٰلِمِينَ إِلَّا خَسَارًا ﴾

“Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil etdik. Bu ayələr zalımların ancaq ziyanını artırır”. [əl-İsra surəsi. 82-ci ayə] Ağlı başında olan hansı müsəlman fikirləşə bilər ki, ayənin mənası odur ki, Quranın bir qismi şəfa və rəhmətdir, digər qismi isə elə deyil?

Əksinə müsəlman anlayır ki, Quranın hamısı şəfa və rəhmətdir və Uca və Ulu Allah bu ayədə bunu təkidləyir.

Üçüncü: Birinci ayəndə görsənir ki, orada bütün səhabələrə təriflər var və hər hansı səhabənin pislənməsi qeyri mövcuddur. İzzət və cəlal sahibi olan Allah buyurmuşdur: “kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları quku edən, səcdəyə qapanan görərsən”. [əl-Fəth surəsi, 29-cu ayə]

Əgər Uca Allah kimisə pisləmək istədikdə onların həm zahirlərini, həm də batinlərini üzə çıxarır. Uca Allahın münafiqlər haqqında buyurduğu kimi:

﴿إِنَّ ٱلْمُنَٰفِقِينَ يُخَٰدِعُونَ ٱللَّهَ وَهُوَ خَٰدِعُهُمْ وَإِذَا قَامُوٓاْ إِلَى ٱلصَّلَوٰةِ قَامُواْ كُسَالَىٰ يُرَآءُونَ ٱلنَّاسَ وَلَا يَذْكُرُونَ ٱللَّهَ إِلَّا قَلِيلًا﴾

"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər".ən-Nisa surəsi,142.

Bununla da bəlli olur ki, "Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir". [əl-Fəth surəsi, 29-cu ayə], ayəsi ilə "Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara..." ayəsində ümumən səhabələr və peyğəmbərlə ﷺ birgə olmaları təkidlənir.

Əhli beytin hörmətli səhabələri tərifləmələri.

Allahın kitabında səhabələrə belə mübarək tərifllər verildiyinə görə səhabələrdən birini görən şəxsə də peyğəmbərdən ﷺ böyük müjdə var idi: Peyğəmbər ﷺ demişdir: "Tuba[1] olsun məni görənlərə, Tuba olsun məni görənləri görənlərə və Tuba olsun məni görənləri, görənləri görənlərə"[2]

Öz qardaşlarının halına çox yaxşı bələd olan Möminlərin əmiri Əli ibn Əbu Talibə ﷺ baxın. O kufə əhlini yoxlayıb, onların ona etdiyi xəyanəti gördükdə Rəsulullahın ﷺ səhabələrini xatırlayıb, onları tərifləyərək demişdir: "Mən Muhəmmədin ﷺ səhabələrini görmüşəm. Sizlərdən heç biriniz onlara bənzəmirsiniz. Onlar saçları qarışıq tozlu vəziyyətdə oyanar, gecəni səcdə və qiyamla keçirib görüşdükdə üzlərini gizlədər, qiyaməti xatırlamaq məqsədi ilə köz kimi isti şeyin üstündə durar, səcdələrinin uzunluğu səbəbindən alınlarının ortasında səcdə nişanəsi olar, Allahın adı zikr olunduqda yaxaları islanacaq qədər gözləri dolar, güclü külək olduqda ağac başını əydiyi kimi onlar da kədərlənərək başlarını əyər, bunu da onlar əzabdan qorxaraq, savaba nail istəyərək edərdilər".[3]

---

[1] Tuba –yəni Cənnət

[2] ƏməlisSaduq (400-cü səhifə), Əməlit Tusi (440-cı səhifə), əl-Xisal (2/342), Biharul Ənvar (22/305)

[3] Nəhcul Bələğa (143-cü səhifə), əl-Kəfi (2/236), Biharul Ənvar (66/307)

Eləcə də imam Əli ﷺ özü ilə peyğəmbərin ﷺ səhabələrinin düşmənlərə qarşı etdikləri qəhrəmanlıqlarını vəsf edərək demişdir: “Biz Rəsulullahla ﷺ birlikdə öz atalarımızı, oğullarımızı, qardaşlarımızı və əmilərimizi qətlə yetirirdik. Bu da bizim imanımızı və təslimçiliyimizi daha da artırır, sıxıntımızı aparır, ağrı-acıya səbrimizi, düşmənlə cihada əzmimizi çoxaldırdı. Bizlərdən birimiz kafirlərlə möhkəm savaşdığımız zaman gah biz, gah da düşmənimiz zəfər çalardı. Allah bizim sadiqliyimizin şahidi olduqda bizə kömək, düşmənlərimizə isə məğlubiyyət nazil etdi. Beləliklə İslam yaxşıca oturaraq vətənlərini hazırlayaraq qərar tutdu. And olsun ki biz yəni səhabələr –sizin etdiyiniz əməlləri etmiş olsaydıq dinin dayaqları qurulmaz, imanın bir çöpü də yaşıllaşmazdı. Allaha and olsun ki, qan bahasına da olsa onlara əsaslanır və peşman olaraq onları izləyin”.[1]

Bu gözəl minvalla və düzgün yolla peyğəmbərin ﷺ Əhli beytinə babaları, möminlərin əmiri Əli ibn Əbu Talibin ﷺ dostlarına ətirli tərifl ər keçmişdin.

İmam Əli ibn əl-Hüseyn Zeynul Abidinə ﷺ baxın. O öz namazlarında babası Mustafanın ﷺ səhabələri üçün dua edərək deyirdi: “Ey Allahım Muhəmmədin səhabələrinə, o səhabələrə ki, onlar gözəl yoldaşlıq etmiş, ona kömək etmək üçün bəlalara sinə gəlmiş, onu müdafiə edərək qarşılamağa tələsmiş, dəvətini erkən qəbul etmiş, gətirdiyi missiyanı onlara dinlətdikdən sonra ona cavab vermiş, onun sözlərinin zühur etməsi naminə öz zövcələrini və övladlarını tərk etmiş, onun peyğəmbərliyini sübuta yetirərək ona yardım etməklə öz atalarına və oğullarına qarşı vuruşmuş, Onu hədsiz dərəcədə sevmiş, onu sevməklə məhv olmayan ticarətə can atmışlar. Yaxınları onları tərk etdikdə ondan yapışmış, qohumları onlarla əlaqələri kəsdikdə onun qohumluğu altında kölgələnmişlər. Allahım onların Sənə və Səndən ötrü etdiklərini unutma, Sənin elçinlə birlikdə dəvət edən və insanları Sənə tərəf yönəldənlərdən onlardan razı ol, Sənin yolunda öz diyarlarını tərk edib geniş imkanları sıxıcı həyatla dəyişənlərə təşəkkür et, Onlar Sənin dininin izzətlənməsi üçün zülmə qatlanmışlar. Allahım onlara gözəl bir şəkildə tabe olan tabiinlərə də xeyirli mükafat ver. Onlar belə deyirdilər:

﴿رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ﴾

[1] Nəhcul Bələğa (91-ci səhifə), Bihərul Ənvar (32/549)

“Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla”. əl-Həşr surəsi, 10-cu ayə O tabiinlər səhabələrin xüsusiyyətlərini qəsd etmiş, istiqamətlərini aramış, onların getdiyi yolla getmiş, onların bəsirətlərinə şübhə gəlməmiş, oların ardınca getməkdə və onların nurlarına tabe olmaqda şəkk gətirməmiş, Onları qoruyaq onların dininə tabe olub hidayətinə varmış, onlar barədə ittifaq edib gətirdiklərində onları ittiham etmirlər. Allahım tabiinlərə, onların zövcələrinə və zəruriyyətlərinə bu gündən Qiyamət gününədək salam ver, Onlardan sənə itaətkar olanlara elə bir salavat göndər ki, onları asilikdən qoruyub, cənnət bağlarında yer açıb onları şeytanın hiylələrindən hifz edəsən”.[1]

İmam Sadiq ﷺ öz babalarından, Əlinin ﷺ belə dediyini rəvayət edir: “Sizə peyğəmbərinizin səhabələrini söyməməyi vəsiyyət edirəm. Onlar peyğəmbərdən ﷺ sonra heç bir yenilik etməmiş, yenilik edənlərə də sığınmamışlar. Allahın rəsulu onlara qarşı xeyirxah olmağı vəsiyyət etmişdir.”[2]

Məlumdur ki, ilk öncə peyğəmbərin ﷺ, sonra da səhabələrin mövcudluğu yer əhli üçün xeyirlidir. Bu da onların hörmətli olmaları və bəşəriyyətin ağasının ﷺ hidayətinə varmaqla yüksək məqamda olmalarına görədir. Elə buna görə də Allah onların ümmətin xeyirliləri üçün etdikləri dualarını qəbul etmişdir.

Musə ibn Cəfər ﷺ demişdir: Rəsullullah ﷺ belə buyurmuşdur: “Mən səhabələrim üçün əmin-amanlığam, mən dünyamı dəyişsəm səhabələrimə vəd olunan yaxınlaşar. Səhabələrim isə ümmətim üçün əmin-amanlıqdır. Səhabələrim dünyalarını dəyişdikdə ümmətimə vəd olunan yaxınlaşa. Nə qədər ki, aranızda məni görənlər var bu din digər dinlər üzərində zahirdə olacaqdır”.[3]

Musa ibn Cəfər ﷺ öz babalarından rəvayət edir ki, peyğəmbər ﷺ demişdir: “Dörd dövr vardır: Birinci ən əfzəl olan mənim dövrüm, sonra ikinci dövr, sonra üçüncü, dördüncü dövr gəldikdə isə kişilər kişilərlə, qadınlar isə qadınlarla görüşəcək. Allah öz kitabını Adəm övladının qəlbindən siləcək və qara bir gülək göndərəcək. Sonra Özündən savayı hamını məhv edəcəkdir”.[4]

Peyğəmbər ﷺ özündən sonra onun xəlifəsi olacaq adama buna heç kəsi təyin etmədən xeyir və rəhmət duası etmişdir. Ondan sonra xəlifə

[1] “Sahifətus Səccədiyyə”: (42-ci səhifə)
[2] “Biharul Ənvar”: (22/305)
[3] “Biharul Ənvar”: (22/309), “Navadir ər-Ravandi” (23-cü səh.)
[4] “Biharul Ənvar” (22/309)

olacaq şəxsin peyğəmvərin ﷺ yolu ilə gedəcəyini bildirmişdir. Bu da özündən sonra təyin olunacaq şəxsə səhabələrin yekdil rəyə gəlməsinə dəlalət edirdi.

Rida رضي الله عنه öz babalarından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allahım mənim xəlifələrimi bağışla" .Üç dəfə Ona dedilər: Ey Allahın rəsulu sənin xəlifələrin kimdir? O dedi: "Onlar məndən sonra gəlib, mənim hədislərimi və sünnətimi rəvayət edib onları gələcək nəsillərə ötürənlərdir".[1]

Səhabələrin bu yüksək məqamlarını bilərək, Allahın peyğəmbəri Musa عليه السلام bu böyük fəzilətə çıxan şəxsləri görməyi təmənna edirdi.

Ridanın رضي الله عنه belə dediyi rəvayət olunur: "İzzət və cəlal sahibi olan Allah Musa ibn İmranı seçib göndərdikdə, dənizi onun üçün yararaq İsrail oğullarını xilas etdikdə və ona Tövratı və lövhələri əta etdikdə və Musa İzzət və cəlal sahibi Allahın yanında məqamını gördükdə dedi: Ey Rəbbim, əgər Muhəmmədin səhabələri belədirlərsə, peyğəmbərlərin səhabələri arasında eləsi varmı ki, onlar mənim səhabələrimdən daha hörmətli olsunlar? İzzət və Cəlal sahibi olan Allah dedi: "Ey Musa, məgər sən agah deyilsən ki, Muhəmmədin səhabələrinin digər peyğəmbərlərin səhabələri üzərindəki fəziləti, Muhəmmədin ailəsinin başqa peyğəmbərlərin ailələri üzərindəki və Muhəmmədin digər peyğəmbərlər üzərindəki fəziləti kimidir?" Musa cəlal sahibi olan Allah ona vəhy endirdi ki; "Ey Musa, sən onları görə bilməyəcəksən. İndi onların zühur onların zühur dövrü deyil. Lakin sən onları Ədn və Firdovs cənnətlərində Muhəmmədin hüzurunda görəcəksən. Onlar Cənnəti nazi-neməti içində olacaq, onun nemətlərinə "bəh-bəh" –deyəcəklər".[2]

SUAL CAVAB:

Birdən biri soruşsa ki; Səhabələr peyğəmbərin ﷺ əhli beytinin bu gözəl tərifləri və bu uca mərtəbəyə nəyin sayəsində nail olublar?

Cavab bizə Əhli beytdən bizə gəlib çatan bir çox rəvayətlərdən bəlli olur. Bəlli olur ki, səhabələr peyğəmbərə ﷺ necə böyük ehtiram göstərmiş, ona qarşı nə cür ədəbli və əxlaqlı olmuşlar və onu böyük bir məhəbbətlə sevmişlər.

Məclisi öz "bihar" əsərində Qazinin "əş-Şəfa" kitabından adətən səhabələrin peyğəmbərə ﷺ qarşı göstərdikləri ehtiramı qeyd edərək Usəmə

[1] "Biharul Ənvar" (2/144)

[2] "Biharul Ənvar": (13/330), "İmam əl-Əskərinin təfsiri" (31-ci səh), "Ayələrin təvili" (411-ci səh)

ibn Zeyddən ﷺ rəvayət edir ki; “Mən peyğəmbərin ﷺ yanına gələrkən səhabələr onun ətrafında sanki başlarına quş qonmuş kimi oturmuşdular”.[1]

Urva ibn Məsuda baxın. Qureyslilər onu “əl-Qadiyyə” ilində Rəsullullahın yanına göndərərkən səhabələrin ona etdiyi ehtirama şahid olmuşdu. Görmüşdü ki: o dəstəmaz alarkən səhabələr onun istifadə etdiyi suyu əldə etməkdən ötrü az qala savaşırdılar. O tüpürdükdə və bəlğəm çıxardıqda onlar onu əlləri ilə tutub üzlərinə və bədənlərinə sürtür, ya da onun bir tükü düşdükdə cəld onu götürürdülər. Onlara bir şey əmr etdikdə dərhal onu yerinə yetirir, onun hüzurunda danışdıqda alçaq səslə danışır və peyğəmbərə ﷺ hörmət olaraq ona dik baxışla nəzər salmırdılar. O qureyşlilərin yanına qayıtdıqda dedi: “Ey Qureyş camaatı, mən padşah Xosrovun, kral Nəcaşinion yanlarında olmuşam. Lakin Muhəmməd və onun səhabələri kimi heç vaxt hökmdar görməmişəm”.[2]

Ənəs ﷺ rəvayət edir ki; “Mən Rəsullullahı ﷺ bərbər onun ətrafında saçını qırxarkən gördüm ki, onlarçalışırlar ki, bircə tük belə yerə deyil onların əlinə düşsün”.[3]

Başqa bir hədisdə isə rəvayət edir ki; “Mən peyğəmbəri ﷺ bardaş qurub oturan gördükdə ona hörmət əlaməti olaraq titrəməyə başladım”.[4]

Muğirədən ﷺ rəvayət olunan hədisdə isə deyilir: “Rəsullullahın ﷺ səhabələri onun qapısını dırnaqları ilə döyürdülər”.[5]

Bəra ibn Əzibdən ﷺ rəvayət olunur ki; “Mən Allahın Rəsulundan ﷺ sual soruşmaq istəyirdim. Lakin ondan çəkindiyinə görə sualı bir neçə il gecikdirirdim”. Sonra o dedi: “Peyğəmbərə ﷺ hörmət etmək o sağ olarkən lazım olduğu kimi ölümündən sonra da lazımdır. Bu ehtiram da onun ﷺ adı çəkildikdə, onun hədisi və sünnəti onun həyatı xatırlandıqda, ailəsi və qohumları ilə davranış zamanı və Əhli beytinə və səhabələrinə ehtiram göstərməklə olur”.[6]

Heç nə vaxtsa bu cür ədəb və ehtiram görmüş və ya eşitmisinizmi? Səhabələrin ﷺ bəşəriyyətin ağasına ﷺ olan sevgilərinə necə də gözəl dəlillərdir bunlar.

---

[1] “Biharul Ənvar”: (17/32)
[2] Həmin məsdər.
[3] Həmin məsdər.
[4] Həmin məsdər.
[5] Həmin məsdər.
[6] Həmin məsdər.

Üçüncü başlıq:
Quran və Əhli beytin üç xəlifəni tərifləməsi.

Hörmətli səhabələrə olunan tərifl ərlə tanış olduqdan sonra xüsusi olaraq ilk üç raşidi xəlifələr qeyd olunmuşdur.

Quran və Əhli beyt üç xəlifəni xüsusən tərifləmişlər. Sözsüz ki, Quranda səhabələr barəsində olan ayələr üç xəlifəyə də aiddir. Başqa səhabələrdə olmayan xüsusiyyətlərə malik olduqlarına görə üç xəlifə Əhli beyt tərəfindən çoxlu mədh olunmuşlar. Üç xəlifə ilə peyğəmbərin ﷺ Əhli beytinin bu sağlam əlaqələri bayraq üzərindəki oddan daha məşhur idi.

Peyğəmbər ﷺ Əbu Bəkrlə Ömərin رضي الله عنهما qızları Aişə və Həfsa رضي الله عنهما ilə evlənmişdir. On bir zövcəsi olmasına baxmayaraq onlardan heç biri Haşimilərdən olmamışlar. Onun iki qızı Ruqiyyə ilə Ummu Kulsumü رضي الله عنهما Osman ibn Əffanə[1] رضي الله عنه vermiş, İmam Əli رضي الله عنه isə qızı Ummu Kulsumu Ömər ibn əl-Xattaba[2] رضي الله عنه ərə vermişdir. Əli رضي الله عنه və onun oğulları övladlarına üç xəlifənin adlarını vermişlər.[3]

Sadaladıqlarımızı onların bir-biri ilə olan gözəl əlaqələrinə aralarında olan məhəbbətə, Allaha və Onun Rəsuluna ﷺ olan itaətə dəlil göstərə bilərik. Bunu da yalnız qəlbi islah olunmuş, təəssübkeşlik pərdəsini gözlərindən qaldırmış və bir çox məsələlərdə gözlərilə tarix kitablarına və bir çox rəvayətlərə baxmış şəxslər açıq-aydın görə bilərlər. Alimlərin öz kitablarında imamlardan gətirdikləri tərifl ərə dəlil olan bəzi rəvayətləri qeyd etməklə kifayətlənirəm.

İmam Əli رضي الله عنه demişdir: "And olsun ki, onların İslamdakı yerləri çox böyükdür. Onların İslam üçün aldıqları yaralar çox şiddətlidir. Allah onlara rəhmət edib, onları ən xeyirli əməllərinin müqabilində mükafatlandırsın".[4]

Həmçinin İmam رضي الله عنه üç xəlifəni və onları seçənləri tərifləyərək demişdir: "Əbu Bəkr, Ömər və Osmana beyət edənlər mənə də beyət etmişlər. Bu beyət zamanı şahid olan seçim etməz, iştirak etməyən isə imtina edə bilməzdi. Şura əhli mühacir və ənsarlardan ibarət idi. Əgər onlar kimisə seçib imam təyin edərlərsə bu Allahın razılığından olardı, əgər kimsə onların əmrindən tənə və ya bidət edərək çıxardısa onlar onu çıxdığı yerə qaytarardılar. Onlar bundan üz döndərdikdə isə onları möminlərin yoluna və hakimə qaytarmaq üçün onlara qarşı vuruşardılar".[5]

---

[1] "Biharul Ənvar": (22/202), "İlləm əl-Vara": (141-ci səhifə)
[2] "Əl-Kəfi": (6/115), "Mirətul uqul": (21/199)
[3] Bu kitabın 79-cu səhifəsinə bax.
[4] Vaqətus Saffeyn: (88-ci səh), "Nəhcul Bələğanın şərhi": (15/76)
[5] Nəhcul Bələğa: (366-cı səh), əl-Bihar: (33/76)

İmam Əli ﷺ Ömər ibn əl-Xattabı ﷺ tərifləyərək demişdir: "Allahın lütfü filankəsin üzərinə olsun! O ehtiyac anında müqavimət göstərib qəsdinə məlhəm qoymuşdu. O sünnəni qaldırmış, fitnəni yox etmişdir. O bu dünyadan təmiz libasla, az miqdarda eyblə, xeyirə nail olmuş, şərdən uzaqlaşmış, Allaha layiqincə itaət edib, Ondan lazımınca qorxaraq getmişdir".[1]

Həmçinin Ömər ibn əl-Xattaba sağ ikən Rumlulara qarşı vuruşmağa ona məsləhət verdiyi zaman demişdir: "Sən çalış bu düşmənlə qarşılaşmağa getdiyin zaman özün gedib irəli atılaraq ölkələrindən uzaq bir yerdə onlara sipər olma. Çünki onların səndən savayı dönəcəkləri yer yoxdur. Onlara qarşı yoxlanılmış bir şəxs göndər və onun vasitəsi ilə bəla və nəsihət əhlini qorumuş ol. Allah bu rəyə səni yönəltmiş olsa belə də et. Yox əgər olmasa o zaman insanların qoruyanı və onların dönüş yeri mən olaram".[2]

Peyğəmbərin ﷺ əhli beyti Əbu Bəkrlə Ömərin vəfatından sonra belə onlara böyük hörmət bəsləmişlər. Belə ki, onların yolu ilə gedərək, onların əmr etdikləri şeylərdən heç bir şey dəyişməyərək əksinə onların elm və fətvalarından bəhrələnirdilər. Buna sübut olaraq İmam Əlinin ﷺ Xəlifə olarkən Fədək bağından olan payını geri qaytarması barədə soruşulduqda belə deməsidir: "Əbu Bəkrin qadağan etdiyi, Ömərin də bununla razılaşdığı bir şeyi qaytarmaq üçün Allahdan utanıram".[3]

İmam Muhəmməd Baqir ﷺ Əbu Bəkr əs-Siddiqə ﷺ tabe olaraq öz tələbələrini də buna səsləyirdi. Ondan qılıncı bəzəmək haqqında soruşulduqda o: "Bəli, bu caizdir. Əbu Bəkr əs-Siddiq öz qılıncını gümüşlə bəzədərdi" –dedi. Dedilər: "Sən bunu necə deyirsən?" İmam yerindən sıçrayaraq dedi: "Bəli o Siddiqdir, bəli o Siddiqdir. Ona Siddiq deməyinin isə görüm Allah nə bu dünyada, nə də axirətdə sözüm təsdiqləməsin".[4]

Bu da Əbu Bəkrlə Ömərə ən yaxın zamanda yaşamış peyğəmbərin ﷺ Əhli beyti, onların hər ikisinin etdiklərindən bixəbər deyildilər. Məgər Əhli beytin onlar barəsində dedikləri bizə bəs etmir? Yoxsa biz onların sözlərindən və yollarından başqa bir yol istəyirik?!!

[1] Nəhcul Bələğa: (350-ci səhifə)
[2] Nəhcul Bələğa: (192-ci səhifə), Biharul Ənvar: (31/135)
[3] Nəhcul Bələğanın şərhi: (16/252)
[4] Kəşful ğimmə: (2/147)

Üçüncü başlıq:
Quran və Əhli beytin Mühacir və Ənsarları tərifləmələri.

Uca və nöqsansız olan Allah islamı erkən qəbul edərək peyğəmbərin ﷺ çağırışına səs verib, ona görə əziyyətlərə məruz qaldıqlarına görə mühacir və ənsarları başqa səhabələrdən üstün etmişdir.

Mühacirlər həm hicrət, həm də kömək etdiklərinə görə, öz ailələrini, mallarını və vətənlərini tərk edib, yalnız əcr qazanmaq, Allaha və Onun Rəsuluna ﷺ yardım etdiklərinə görə ənsarlardan üstündürlər.

Ənsarlara gəldikdə isə peyğəmbər ﷺ onların torpağına təşrif buyurmuş, onlar da ona kömək edib, Allaha və Onun rəsuluna ﷺ yardım etmək üçün mallarını və qadınlarını bölmüşdülər.

Onların fəzilətləri, onlardan razılıqlarına Quran və əhli beyt razılıq ifadə etmiş, səhabələrin halını açıqlayan ayələr mütəvatirdir. Bu ayələr onların fəzilətlərinin böyüklüyünün və Aləmlərin Rəbbinin razılığının tərənnümüdür. Bu haqda olan ayələri əhli beyt müxtəlif ibarələrlə təfsir etmişlər. Onlardan da bəziləri aşağıdakılardır:

Qurani Kərimin Mühacir və ənsarları tərifləməsi:

Uca Allah buyurmuşdur:

﴿لِلۡفُقَرَآءِ ٱلۡمُهَٰجِرِينَ ٱلَّذِينَ أُخۡرِجُواْ مِن دِيَٰرِهِمۡ وَأَمۡوَٰلِهِمۡ يَبۡتَغُونَ فَضۡلٗا مِّنَ ٱللَّهِ وَرِضۡوَٰنٗا وَيَنصُرُونَ ٱللَّهَ وَرَسُولَهُۥٓۚ أُوْلَٰٓئِكَ هُمُ ٱلصَّٰدِقُونَ ٨ وَٱلَّذِينَ تَبَوَّءُو ٱلدَّارَ وَٱلۡإِيمَٰنَ مِن قَبۡلِهِمۡ يُحِبُّونَ مَنۡ هَاجَرَ إِلَيۡهِمۡ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمۡ حَاجَةٗ مِّمَّآ أُوتُواْ وَيُؤۡثِرُونَ عَلَىٰٓ أَنفُسِهِمۡ وَلَوۡ كَانَ بِهِمۡ خَصَاصَةٞۚ وَمَن يُوقَ شُحَّ نَفۡسِهِۦ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُفۡلِحُونَ ٩﴾

“Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır. Allaha və Onun elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır. Mühacirlərdən Mədinədə əvvəl orada yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.” [əl-Həşr surəsi, 8-9-cu ayələr.]

Şeyx Muhəmməd Baqir ən-Nasiri demişdir: “Kasıb mühacirlər” Məkkə və ya başqa yerlərdən Mədinəyə pənah aparanlar “öz diyarlarından və

mallarından çıxarılmışlar” gəlib “istəyirlər” yəni tələb edirlər, “Allahın fəzilətini və razılığını” yəni onlar bununla Allahın dininə kömək edirlər. “Mədinədə yurd salmış” Burada ənsarlar nəzərdə tutulur. Onlar mühacirlərdən qabaq Mədinədə məskunlaşmışdılar və ya Əqabə gecəsində Rəsulullaha hər bir müharibəyə beyət edib mühacirlərdən əvvəl iman gətirənlər, “öz yanlarına hicrət edənləri sevirlər”, onlar mühacirlərə qarşı yaxşılıq etmiş, onları evlərində məskunlaşdırmış, onları öz mallarına ortaq etmiş. Bəni Nədir qəbiləsinin qənimətləri onlara deyil mühacirlərə verildiyinə görə heç bir həsəd və sıxıntı keçirmirlər. “Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar” yəni onlar özləri buna möhtac olduqları halda, “Nəfsinin tamahından qorunan kimsələr”, yəni kim nəfsinin paxıllığından qorunarsa, “onlar nicat tapanlardır”, Onlar Allahın savabına nail olmaqla zəfər çalanlardır.[1]

Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi demişdir: “Kasıb Mühacirlər”, onlar Darul Hərbdən darul islama qaçaraq Məkkədən Mədinəyə peyğəmbərlə ﷺ hicrət edənlərdir. Onlar “öz diyarlarından və mallarından didərgin düşmüşlərdir”, öncə isə bu onlara məxsus idi. “istəyirdilər” –yəni tələb edirdilər. “Allahın fəzilət və razılığını diləyərək” onun rəhmini və razılığını istəyərək. “Allaha kömək edirlər” yəni onun dininə yardım edərək hicrət edirlər, “və Rəsuluna”, ona düşmənlərinə qarşı kömək edirlər, “Məhz onlar sadiqlərdir”, çünki onlar dinə kömək etməyi qəsd etmişdilər. Mühacirlərdən və qeyrilərindən ibrət olan Məkkə əhlini mədh etdikdən sonra Ənsarlardan ibarət olan Mədinə əhlini tərifləmişdir. Çünki, onlar öz paylarını ehtiyacı olan mühacirlərlə bölüşdürməkdən rahatlıq hissi keçirmişdilər. “Mədinədə əvvəl yurd salmışdılar, “və imanla”, yəni onların çox az bir hissəsi istisna olmaqla mühacirlərdən sonra iman gətirmişdilər.

İmanın yurd salnan yerlə yanaşı gəlməsi mənəvi deyil, zahiri bağlayıcıdır. Çünki imana yurd salınmaz. “Onlardan qabaq” imanı küfrdən üstün tutaraq mühacirlərin gəlişi ilə onlara yaxşılıq edərək, onları öz evlərinə və mallarına həmşərik etdilər. “Onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar”. Yəni Bəni Nədir qəbiləsindən əldə olunan qənimətləri mühacirlər götürdüklərinə görə qəlblərində heç bir həsəd, qeyz və kin olmaz. “Özlərinin ehtiyacları olduğu halda onlara verirlər”, yəni, mühacirləri özlərindən üstün tutaraq ehtiyacları olduğu

[1] Məcmə əl-bəyanın müxtəsər təfsiri və Təfsir əl-Kəşif, əl-Munir əsərləri Həşr surəsi:8-10-cu ayələr.

halda onlara əta edirdilər. Bunu isə onlar yalnız əcrə və savaba nail olmaq üçün edirdilər. “Nəfsinin tamahından qorunan kimsələr”, onlar savaba nail olaraq Allahın Cənnətini və nemətlərini əldə etmiş olurlar.[1]

Uca Allah buyurur:

﴿ وَٱلَّذِينَ ءَامَنُواْ وَهَاجَرُواْ وَجَٰهَدُواْ فِي سَبِيلِ ٱللَّهِ وَٱلَّذِينَ ءَاوَواْ وَّنَصَرُوٓاْ أُوْلَٰٓئِكَ هُمُ ٱلْمُؤْمِنُونَ حَقًّاۚ لَّهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ ﴿٧٤﴾ وَٱلَّذِينَ ءَامَنُواْ مِنۢ بَعْدُ وَهَاجَرُواْ وَجَٰهَدُواْ مَعَكُمْ فَأُوْلَٰٓئِكَ مِنكُمْۚ وَأُوْلُواْ ٱلْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَىٰ بِبَعْضٍ فِي كِتَٰبِ ٱللَّهِۗ إِنَّ ٱللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمُۢ ﴿٧٥﴾ ﴾

“İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər –məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır. Sonradan iman gətirənlər, hicrət edib sizinlə bərabər cihad edənlər də sizdəndirlər. Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar. Həqiqətən, Allah hər şeyi bilir”. [əl-Ənfal surəsi, 74-75-ci ayələr]

Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi demişdir: “İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər”, yəni: Allah tərəfindən gətirdikləri ilə Allahın rəsuluna inananlar, Allahın varlığına və təkliyinə yəqin olanlar, və dinləri ilə peyğəmbərlə ﷺ birgə diyarlarını tərk edib qaçaraq onunla dinini və şəriətinə kömək naminə vuruşanlar. “Məhz onlar həqiqi möminlərdir”. Onlar fellə, sözlə və əməllə təsdiqləyib onun həqiqi iman olmasını təhqiq etmişlər. “Onlar üçün bağışlanma və bolluca ruzi vardır”. Yəni, Allah onların günahlarını bağışlayaraq onlar üçün bağışlanma və çoxlu, bol-bol və pozulmayan ruzi hazırlamışdır.

“İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər”, burada Məkkənin fəthindən sonra iman gətirənlər nəzərdə tutulur. Deyirlər ki, burada sizdən sonra iman gətirən sizdən sonra peyğəmbərə ﷺ hicrət edənlər nəzərdə tutulur. “Sizinlə birgə cihad edənlər”, sizinlə birlikdə kafir və müşriklərlə vuruşanlar. “Onlar sizdəndirlər”, yəni imanda cihadda, mirasda, dostluqda və köməkdə verilən hökmdə, iman və hicrətlərinin gecikməsinə rəğmən onlar sizdəndirlər.[2]

Uca Allah buyurmuşdur:

﴿ ٱلَّذِينَ ءَامَنُواْ وَهَاجَرُواْ وَجَٰهَدُواْ فِي سَبِيلِ ٱللَّهِ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ ٱللَّهِۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلْفَآئِزُونَ ﴾

“İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yolunda ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır”. [ət-Tövbə surəsi, 20-ci ayə.]

[1] “Təfsirul cədid”: (Həşr surəsi, 8-10-cu ayələr)

[2] “Təfsirul cədid”, “əs-Safi”, “əl-Vaciz”, “Təqribul Quran” (Ənfal surəsi, 74-cü ayə)

Seyid Muhəmməd Hüseyn Fədlullah demişdir: “İman gətirib, hicrət edib cihad edənlər”. Onlar azad bir şəkildə hərəkət, dəvət və cihad edə bildiyi vətənlərini tərk etmiş, dinində fitnəyə məruz qalmasın deyə sıxıldığı yerləri tərk etmişlər. Bu isə bütün şəxsi istəklərə və gözəl xüsusiyyətlərə inadcıl olaraq Allaha böyük ixlasın olmasına dəlalət edir. “Onlar malları və canları ilə Allah yolunda cihad edərlər”, Onlar dəvət və cihad naminə mallarını sərf etmiş, bu yolda maddi və mənəvi ziyanlar çəkmiş, öz şəxsi mənfəətləri üçün yaşamağı tərk etmiş və Hərtərəfli olaraq birbaşa Allahla bağlılığı olan bir ünsürə çevrilmişdilər.

“Onların Allah yanında yüksək dərəcələri vardır”, bəzi vaxtlarda müəyyən yaxşılıqlar edən kəslərdən fərqli olaraq, “Məhz onlar nicat tapanlardır”, Allahın rəhmətinə, razılığına və Cənnətinə qovuşaraq”.[1]

Uca Allah buyurmuşdur:

﴿ رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ رَبَّنَا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلۡأَبۡرَارِ ١٩٣ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخۡزِنَا يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ إِنَّكَ لَا تُخۡلِفُ ٱلۡمِيعَادَ ١٩٤ فَٱسۡتَجَابَ لَهُمۡ رَبُّهُمۡ أَنِّي لَآ أُضِيعُ عَمَلَ عَٰمِلٖ مِّنكُم مِّن ذَكَرٍ أَوۡ أُنثَىٰۖ بَعۡضُكُم مِّنۢ بَعۡضٖۖ فَٱلَّذِينَ هَاجَرُواْ وَأُخۡرِجُواْ مِن دِيَٰرِهِمۡ وَأُوذُواْ فِي سَبِيلِي وَقَٰتَلُواْ وَقُتِلُواْ لَأُكَفِّرَنَّ عَنۡهُمۡ سَيِّـَٔاتِهِمۡ وَلَأُدۡخِلَنَّهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ ثَوَابٗا مِّنۡ عِندِ ٱللَّهِۗ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلثَّوَابِ ١٩٥ ﴾

“Ey Rəbbimiz” Həqiqətən biz: “Rəbbinizə iman gətirin” –deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!

Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən yaxşı işlər görən –istər kişi, istərsə sə qadın olsun, -heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz. Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah yanındadır”. [Ali İmran surəsi, 193-195].

Seyid Abdullah Şibr demişdir:

“Rəbbi onlara belə cavab verdi”, onların tələblərinə, “Mən sizlərdən yaxşı işlər görən –istər kişi, istərsə də qadın olsun –heç kəsin əməlini puç

[1] “Təfsir min vahyil Quran”, “ət-Tibyən”, “Təqribul Quran”: (Tövbə surəsi, 20-ci ayə)

etmərəm", "Siz bir-birinizdənsiniz" yəni qadınlı kişili hamınız eynisiniz, müsəlmansınız. "Hicrət edənlər", şirki, vətənlərini və qövmlərini din naminə tərk edənlər "öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların", dinə görə, müşriklərlə "vuruşanların", şəhid olaraq "öldürülənlərin", "keçəcəyik" yəni siləcəyik, "onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm". Onlar buna layiqdirlər. "Gözəl mükafat məhz Allah yanındadır", bunun əvəzini yalnız o verir.[1]

Ey peyğəmbərin ﷺ Əhli beytini sevən oxucu qeyd etdiklərimiz barəsində azca düşün. Bu səhabələrin fəziləti barəsində varid olanlardan kiçik bir nümunədir.

Peyğəmbərin ﷺ və onun Əhli beytinin Mühacir və Ənsarları tərifləmələri.

Mühacir və ənsarların fəzilətləri barəsində Əhli beytdən bir sıra səhih və müxtəvatir rəvayətlər nəql olunmuşdur, Onların bəzilərini qeyd edirəm;

Cərir ibn Abdullah ﷺ rəvayət edir ki, peyğəmbər ﷺ demişdir: "Mühacirlər və ənsarlar həm bu dünyada, həm də axirətdə bir-birinin dostudurlar. Onlar Qureyş qəbiləsindən sərbəst buraxılmışlar və Səqif qəbiləsindən azad buraxılanlardır. Onlar həm bu dünyada həm də axirətdə biri-birinin dostudurlar".[2]

Kəb ibni Ucradan gələn rəvayətdə isə deyilir ki; "Bir dəfə mühacirlər, ənsarlar və Haşim oğulları Rəsulullahın ﷺ hüzurunda mübahisə edərək soruşdular ki; Bizim hansımızı daha öndə sayır və daha çox sevirsən? Peyğəmbər ﷺ buyurdu: "Ey Ənsarlar sizə onu deyə bilərəm ki, mən sizin qardaşınızam", Onlar dedilər: Allahu Əkbər! Kəbənin Rəbbinə and olsun ki biz apardıq! Sonra ﷺ dedi: "Ey mühacirlər, sizə isə onu deyə bilərəm ki, mən sizlərdənəm". Onlar dedilər: Allahu Əkbər! "Kəbənin Rəbbinə and olsun ki, biz apardıq. Sonra ﷺ yenə buyurdu: "Ey Haşim oğulları, siz isə həm məndənsiniz, həm də mənim üçünsünüz". Beləliklə, bizim hamımız Rəsulullahdan ﷺ razı halda və ona qiptə edərək ayağa qalxdıq".[3]

Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki; Mən peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Mən özümdən sonra sizə iki şeyi buraxıb gedirəm, lakin onların biri digərindən daha böyükdür..." Sonra o dedi:

[1] "Təfsir şibr", (Ali İmran surəsi; 195-ci ayə)
[2] "əl-Mənəqib", (3/331), Biharul Ənvar: (22/312)
[3] "əl-Mənəqib" : (3/331), Biharul Ənvar: (22/312)

“Şübhəsiz ki, mənim Əhli beytim bağrıma basdığım gözümdür. Ənsarlar isə mənim qalxanımdır. Onlardan xəta edənləri bağışlayın, yaxşı işlər görənlərə isə yardımçı olun”.[1]

Bütün bu dəlilləri Əhli beyt çox yaxşı bilirdi. Onlar bu dəlilləri mənimsəyərək hafizələrinə həkk etmişdilər. Buna misal kimi, imam Əlinin ﷺ Müaviyəyə ﷺ ünvanladığı cavab məktubunda mühacirlərə verdiyi tərifi göstərə bilərik. O belə demişdir: “Başqalarını ötüb keçənlər bununla qələbə çalmış, ilk mühacirlər isə fəzilət əldə edərək getmişdir”.[2]

Həmçinin o ﷺ demişdir: “Mühacirlərdə bizim bildiyimiz bir çox xeyirlər vardır. Allah onları ən xeyirli mükafatla mükafatlandırsın”.[3]

Həsən ﷺ peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Kim dini naminə bir torpaqdan başqa torpağa qaçarsa, qaçdığı məsafə bir qarış olsa belə Cənnət ona vacib olar və o İbrahimlə Muhəmmədə ﷺ yoldaş olar”.[4]

Bütün bunlar böyük bir dənizdən kiçicik ləpələrdir. Bu dənizin damcıları qəlblərə axaraq şəfa, balzam, nur və hidayavericiyə çevrilir, qafil olanları oyadır və onların fəzilətlərindən agah olub onlara tabe olmaq istəyənlərə kömək edir. Halal olsun əhli beytə. Onlar səhabələri tərifləyərkən onların heç birini istisna etməmişdilər.

Dördüncü başlıq:
Quran və Əhli Beytin Bədr əhlini tərifləməsi.

Səhabələrə ümumən, sonra mühacir və ənsarlara verilən tərifdən sonra, onların arasında xüsusi səbəbə və böyük bir əmələ görə və başqalarından fəzilət baxımından üstün olduqlarına görə bir qrupuna xüsusi mədhlər verilmişdir.

Uca və nöqsansız olan Allah Bədr döyüşündə iştirak edən səhabələrə xüsusi əfzəllik və böyük məqamlar hazırlamışdır. Onlar o zaman sayca çox az idilər. Qureyş qəbiləsinin başçılarına qarşı vuruşa heç bir tədarük görmədən döyüşə çağırıldıqda kafirlərə qarşı savaşa qalxmışdılar.

Lakin Allahın köməkliyi ilə bu az toplumun əli ilə Allah müsəlmanlara açıq-aşkar bir zəfər nəsib etdi. Sayca az olan bu toplum ərəbləri heyrətə gətirib, onları qorxutmuşdu və bu döyüş ərəb qəbilələri arasında xüsusi yer tutmuşdu.

---

[1] “Biharul Ənvar”: (22/311)
[2] “Nəhcul Bələğa”: (374-cü səh), “Biharul Ənvar”: (33/104), “Vaqətus Saffeyn”(149-cu səh)
[3] “Vaqətu Saffeyn”: (88-ci səh), “Biharul Ənvar”: (33/110).
[4] “Biharul Ənvar”: (19/31), “Məcmuətun varam”: (1/33), “Təfsirus-Safi”: (1/490), Təfsir nurussəqaleyn: (1/541)

Allah döyüşdə iştirak edən pak insanların əməllərinə nəzər saldıqdan sonra onlara müjdə verdi ki, onlar kafir olaraq ölməyəcəklər və Onun izni ilə onların günahları bağışlanmışdır.

Bunu Ömər ibn əl-Xəttab ﷺ Hatib ibn Əbi Bəltəznin boynunu vurmaq istədikdə peyğəmbər ﷺ ona təkidləyəcək demişdi: "Ey Ömər, sən nə bilirsən? Allah Bədr əhlinə baxıb, onları bağışlayaraq buyurmuşdur ki; Nə istəyirsinizsə, edin, artıq mən sizin günahlarınızı bağışlamışam".[1]

Bu nöqsansız Allahın, Öz Rəsulunun ﷺ dili ilə Bədr əhli üçün verdiyi əbədi şəhadət və tərifdir. Bu şahidlik Allahın Qiyamət gününə onlardan razı olmalarına dəlildir.

Beşinci başlıq:
Quran və Əhli beytin Məkkənin fəthindən qabaq Allah yolunda xərcləyib döyüşənləri tərifləməsi.

Çağırılaraq dəvət olunmadan peyğəmbərlərlə ﷺ birgə döyüşməyə tələsən Bədr əhlinə edilən xüsusi tərifdən sonra tərif daha geniş vüsət alaraq Fəthdən qabaq xərcləyib vuruşanlara şamil olunmuşdur.

Hər bir müsəlman Fəthdən qabaq xərcləyib vuruşanların Fəthdən sonra xərcləyib vuruşanlardan daha əfzəl olduğuna iman gətirir.

Fəth deyildikdə Hüdeybiyə sülhü nəzərdə tutulur. Necə ki, Uca Allah buyurur:

﴿إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُّبِينًا﴾

"Həqiqətən, Biz sənə aydın bir qələbə verdik". [əl-Fəth, 1-ci ayə]

Hüdeybiyə: Məkkə yaxınlığında yerləşən bir quyunun adıdır. Orada ağacın altında Ridvan beyəti və Hüdeybiyə sülhü baş vermişdir. Bu zaman müşriklər Allahın Rəsulunu ﷺ və onun səhabələrini Məkkəyə daxil olmalarına qarşı çıxdıqda səhabələr ölümə beyət etmişdilər.

Peyğəmbər ﷺ və onun səhabələrinin o çətin vaxtda çoxlu sayda orduya və hazırlığa ehtiyacları olduğuna görə Fəth və Hüdeybiyyə sülhünün iştirakçıları bu böyük fəzilət və uca məqamla seçilmişlər. Səhabələrin peyğəmbərlə ﷺ etdikləri beyət nəticə etibarı ilə çox gözəl sonluqla nəticələndi.

Osman ﷺ Məkkə əhlinin yanına peyğəmbərlərlə ﷺ vasitəçilik etmək üçün gedib geri qayıtmadıqda sayları min nəfəri ötən səhabələr peyğəmbərə ﷺ beyət etdilər. Peyğəmbər ﷺ öz şərəfli əllərindən biri o birinin üzərinə vuraraq: "Bu da Osman ibn Əbfanın ﷺ yerinədir" –dedi.

[1] "Biharul Ənvar2; (21/22), "Şərh Nəhcul Bələğa": (17/89)

O vaxt bəzi müsəlmanlar dedilər ki, “Allah Osmana Cənnət nəsib etsin, artıq o evi təvaf edib, Səfa və Mərva arasında səy edib ehramını soyunub. Rəsulullah ﷺ isə dedi: “Bu ola bilməz”, Osman geri döndükdə peyğəmbər ﷺ ondan soruşdu: “Evi təvaf etdinmi?” O cavab verdi: “Allahın Rəsulu ﷺ təvaf etmədiyi müddətdə mən evi təvaf edə bilmərəm”.[1]

Müsəlmanlara çoxlu xeyir və açıq-aşkar qələbə gətirən bu beyət Fəth adlandırıldı. Uca və ulu olan Allah bu pak bəndələrini həm zahirlərini, həm də batinlərini tərif edərək buyurmuşdur:

﴿ ۞ لَّقَدۡ رَضِيَ ٱللَّهُ عَنِ ٱلۡمُؤۡمِنِينَ إِذۡ يُبَايِعُونَكَ تَحۡتَ ٱلشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمۡ فَأَنزَلَ ٱلسَّكِينَةَ عَلَيۡهِمۡ وَأَثَٰبَهُمۡ فَتۡحٗا قَرِيبٗا ﴾

“Möminlər Hudeybiyyədə ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində olanı bildi, onlara mənəvi rahatlıq nazil etdi və onları, yaxın bir zəfərlə mükafatlandırdı”. [əl-Fəth surəsi, 18-ci ayə]

Şeyx Əminəddin Əbu Əli ət-Tabrasi demişdir:

Bu hadisənin Beyətur Ridvan adlanmasının səbəbi odur ki, səhabələr Hüdeybiyyədə Səmura adlı məşhur bir ağacın altında peyğəmbərə beyət etmişdilər. “Allah onların qəlblərində olanı bilir”, yəni; onların sadiq niyyətlərini, səbrlərini və vəfatlarını bilir. Onların sayı min beş yüz və ya min üç yüz idi. “Onların üzərinə sükunət nazil etdi”, yəni, möminlərin Sükunət, möminlərin qəlblərinə rahatlıq gətirən gücləndirici bir lütfdür. “Onları yaxın bir zəfərlə mükafatlandırdı”, yəni Xeybərin fəthi ilə.[2]

Uca Allah buyurur:

﴿ لَا يَسۡتَوِي مِنكُم مَّنۡ أَنفَقَ مِن قَبۡلِ ٱلۡفَتۡحِ وَقَٰتَلَۚ أُوْلَٰٓئِكَ أَعۡظَمُ دَرَجَةٗ مِّنَ ٱلَّذِينَ أَنفَقُواْ مِنۢ بَعۡدُ وَقَٰتَلُواْۚ ﴾

“Sizlərdən *Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır”. [əl-Hədid surəsi, 10-cu ayə]

Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi demişdir: “Eyni deyillər” səviyyə baxımından, “xərcləyənlər”, öz malından Allah yolunda, “Döyüşənlər” yəni kafirlərə qarşı, “Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür”, yəni Allahın izzətləndirdiyi

[1] əl-Kəfi: (8/325), Biharul Ənvar: (20/365)

[2] “Təfsir Cəmi əl-Cəvəmi2, “Muqtəniyyət əd-durar”, “Təqrib əl-Quran”, [əl-Fəth surəsi, 18-ci ayə]

Məkkənin fəthindən sonra, İslam ordusuna malından xərcləyib fəthdən əvvəl cihad etmək, fəthdən sonra xərcləyib cihad etməkdən daha çox savabdır. "Allah onların hamısına ən gözəl olanı vəd etmişdir", yəni dərəcə baxımından müxtəlif olmalarına baxmayaraq, Allah onların hər birini Cənnət vədi vermişdir. "Allah sizin etdiklərinizi biləndir". Yəni, o sizin etdiyiniz hər bir əməldən xəbərdardır, Sizin halınızdan, dediklərinizdən, xərclədiklərinizdən və cihadınızdan heç bir şey Ondan gizli deyildir. O, sizin bütün niyyət və davranışlarınızı biləndir".[1]

Əzəldən gözəl aqibət yazılmış şəxlərə Uca və Ulu olan Allah Cənnət vədi verərək buyurmuşdur:

﴿ إِنَّ ٱلَّذِينَ سَبَقَتۡ لَهُم مِّنَّا ٱلۡحُسۡنَىٰٓ أُوْلَٰٓئِكَ عَنۡهَا مُبۡعَدُونَ ١٠١ لَا يَسۡمَعُونَ حَسِيسَهَاۖ وَهُمۡ فِي مَا ٱشۡتَهَتۡ أَنفُسُهُمۡ خَٰلِدُونَ ١٠٢ لَا يَحۡزُنُهُمُ ٱلۡفَزَعُ ٱلۡأَكۡبَرُ وَتَتَلَقَّىٰهُمُ ٱلۡمَلَٰٓئِكَةُۚ هَٰذَا يَوۡمُكُمُ ٱلَّذِي كُنتُمۡ تُوعَدُونَ ١٠٣ ﴾

"Əzəldən ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə, onlar Oddan uzaqlaşdırılmış olacaqlar Onlar onun xışıltısını belə eşitməyəcəklər. Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar. Ən böyük dəhşət onları kədərləndirməyəcək". [əl-Ənbiya surəsi, 101-103].

Əbu Cəfər ət-Tusi demişdir: "Əzəldən ən gözəl aqibət yazılmış insanlar", yəni, Cənnətlə vəd. Sonra o demişdir: Uca Allah bizə xəbər verir ki, kim bu sifətlərə nail olarsa o Oddan yoxa qurtarmış olar".[2]

Hüdeybiyyə sülhündə səhabələr çətinlik və sıxıntı içərisində olduğu kimi, Təbrik döyüşündə də Mədinədə münafiqləri ixlaslı şəxslərdən ayıran hal olaraq seçilirdi. Bu vaxt bəzi insanların qəlblərini aldatmışdı. Quran Təbrik döyüşü üçün Rəsulullahla ﷺ birgə çıxan səhabələr haqqındakı mövqeyi çox aydındır:

﴿ لَّقَد تَّابَ ٱللَّهُ عَلَى ٱلنَّبِيِّ وَٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ ٱلَّذِينَ ٱتَّبَعُوهُ فِي سَاعَةِ ٱلۡعُسۡرَةِ مِنۢ بَعۡدِ مَا كَادَ يَزِيغُ قُلُوبُ فَرِيقٖ مِّنۡهُمۡ ثُمَّ تَابَ عَلَيۡهِمۡۚ إِنَّهُۥ بِهِمۡ رَءُوفٞ رَّحِيمٞ ﴾

"Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da əvvəlcə tövbəsini qəbul etdi. Sonra da onları bağışladı. Çünki Allah onlara qarşı Şəfqətlidir, Rəhmlidir". [ət-Tövbə surəsi, 117-ci ayə]

---

[1] Təfsirul Cədid, Təfsirus-Safi, Şibr, Muqtəniyətud durar, əl-Cəuhərus Səmin, (əl-Hədid surəsi, 10-cu ayə)

[2] "Təfsirul Tibyən", "Təfsirul Cədid", (əl-Ənbiya surəsi, 101-ci ayə)

Seyid Muhəmməd Təqi əl-Mədrasi demişdir:

"Allah... mühacirlərin və ənsarların əvvəlcə tövbəsini qəbul etdi". Allahın peyğəmbərinin tövbəsini qəbul etməsi, ona olan bərəkətini artırması, mühacir və ənsarlara olan tövbəsi isə onların günahlarının bağışlaması mənasını daşıyır. Lakin maraqlıdır ki, onların günahları nə ilə peyğəmbərə tabe olmaqla bağışlamışdır. Bu çox böyük bir əməl olduğundan Uca Allah böyük savabların sayəsində kiçik günahları əhv edir. Ayə bu həqiqəti dəstəkləyərək belə deyir: "Çətin anlarda tabe olanlar". Beləliklə, çətin vaxtlarda səbirli olmaq böyük bir əməldir. Allah buna görə başqa kiçik günahları bağışlayır".[1]

Şeyx ət-Tabrasi demişdir: "Allahın Rəsulu ﷺ Rəcəb ayında Rumlulara qarşı döyüşə hazırlaşırdı. O, İslamı yeni qəbul etmiş ərəb qəbilələrinə məktub yazaraq, onları döyüşə və cihada rəğbətləndirən elçilər göndərdi. Peyğəmbər ﷺ döyüş üçün çıxmaq istədikdə insanlara xütbə verərək qalxıb Allaha həmdi səna edərək, bərabərliyə, zəifə yardım etməyə və xərcləməyə rəğbətləndirdi. Ən birinci malından xərcləyən Osman ibn Əffan oldu. O bir neçə qab gümüş gətirib Rəsulullahın ﷺ qucağına tökdü, bir qrup zəif insana köməklik göstərdi və Usra ordusu üçün tədarük gördü. Sonra Abbas ﷺ Rəsulullahın hüzuruna gəlib yaxşıca öz malından xərclədi və ordunun tədarükünü gördü. Sonra Ənsarlar tələsməyə başladı. Abdur Rahmən Zübeyr və Talhə mallarından sədəqə verdilər. Sonra özlərini göstərərək bir qrup münafiq də sədəqə verdilər".[2]

Qeyd olunan bütün bu ayə və heyrətamiz rəvayətlər Uca və Nöqsansız olan Allahın dininə yardım, peyğəmbərin ﷺ şəninin yüksəlməsi uğrunda əllərindən gələni əsirgəməyən insanların halını açıqlamaq üçün kifayətdir.

Peyğəmbərin ﷺ əhli beytini sevən alimlərin qövllərini izləyərək, ağıl gözü və insaf nuru ilə baxan şəxs aydın bir şəkildə görəcək ki, o mübarək, müxlis, sevimli peyğəmbərlərinin ﷺ sünnətindən yapışdıqlarına görə peyğəmbərlik nuru ilə parlayan və Quran və Əhli beytin onların uca məqamlarına şahidlik etdikləri toplumun fəziləti necə yüksəkdir.

Üçüncü məsələ:

Səhabələr ﷺ arasında fitnə necə yarandı.

Allahın izni ilə Quran ayələri və Əhli beytdən nəql olunan rəvayətlər vasitəsi ilə səhabələrin fəzilətləri haqqındakı nəqlləri bəyan etdikdən

[1] "Təfsir min həyil Quran", "Təfsir cədid", "Min Vahyil Quran", (ət-Tövbə, 117-ci ayə)
[2] "İlləm əl-Vara": (121-ci səhifə), "Biharul ənvar": (21/244)

sonra bir sıra müsəlmanların qarşısına belə bir sual çıxır: Əgər doğrudan da səhabələr fəzilət sahibləri və Allahın dininə tabe olanlar idilərsə, bəs onların arsında necə ixtilaf baş vermişdir?

Birinci: Müsəlmanlar arasında ilk fitnəni yaradan.

Danılmaz bir faktdır ki, səhabələrin yaşadıqları xoşbəxt cəmiyyət, Allahın düşmənləri qarşısındakı mübarək fəthlər və böyük qələbələr, yəhudilərin əvvəlcə Mədinədən, daha sonra bütün Ərəbistan yarımadasından qovulmaları, Fars imperatorluğunun tənəzzülü, yeni-yeni camaatların İslam dininə daxil olaraq müsəlmanlarla birgə yaşaması –hansı ki, onlar əski fikir və adətlətini hələ də öz zehinlərindən silməmişdilər. – Müsəlman ümmətinin parçalanması və münbit torpaqda təfriqə toxumunun əkilməsi üçün əlverişli şərait yaratmışdı.

Sadaladığımız bu rahat həyat çoxlu fəthlər bəzi insanları çox narahat edirdi. Onlar nümunəvi İslam cəmiyyətinə təfriqə salmaq üçün səy göstərməyə başladılar. Səhabələrin sıralarını ayırmaqla və İslam dininə yeniliklər gətirməklə təfriqə alovunu yandırdılar. Beləliklə, müsəlmanların sıralarını ayırmaq, güclərini zəiflətmək üçün peyğəmbərin ﷺ səhabələrinə tənə etməklə olunan bidət, xəstə qəlbli insanlara şübhə salmaqla ilk fitnəni alovlandırdı.

Bu işdə başlıca rol oynayan və bu xəbis alçaqlığın bünövrəsini qoyan şəxs yəhudi olan Abdullah ibn Səba olmuşdur. Əvvəlcə o insanları müsəlmanların xəlifəsi olan Osman ibn Əffana ﷺ qarşı çıxmağa təhrik etmiş, sonra isə o, Əlinin ﷺ adından bir çox yalanlar danışaraq ona bir çox dar düşüncəli, zəif imanlı və fitnəsevər insanların arasında yaya bilmişdi.

Bu yeni, təhlükəli bidətin xəbərləri insanlar arasında yayıldıqda, şeytan onlara əməllərini gözəl göstərdikdə və onların sözləri möminlərin əmiri Əlinin ﷺ qulağına çatdıqda o, qəzəblənərək bu iyrənc sözlərə göz yummadı. Dərhal çamır qazdırıb içərisində o yandırdı. O öz xətərli iftirasında israrlı olaraq dönməyən hər bir kəsi yandırmaqla hədələyərək onların bir qismini yandırıb, digər qismini sürgün etdi.

əl-Məclisi “Bihar əl-ənvar” əsərində nəql etmişdir ki, Bir nəfər kişi Əmirəl möminin ﷺ yanına gəlib dedi: “Məscidin qapısı önündə bir qrup insan sənin onların rəbbi olduğunu iddia edirlər! O, onları çağırıb dedi: Vay olsun sizin halınıza! Mən sizin kimi Allahın bir quluyam, yemək yeyib, su içirəm. Allahdan qorxub dönün!

Onlar ikinci və üçüncü gün də onun yanına gəlib eyni fikirləri bildirdilər. Əli ﷺ onlara dedi: Ya tövbə edin, ya da sizi ən pis şəkildə qətlə yetirəcəyəm. O adam çağırdı, həmin şəxs kəsici alətlə gəldi. O məscidin qapısından qəsrin önünədək çamur qazdırıb, içərisini odunla doldurараq yandırdı. O dedi: Əgər fikrinizdən dönməsəniz sizi bu oda atacağam! Onlar razılaşmadılar və Əli ﷺ onları odun içərisinə atıb yandırdı. Onun bəzi əyanları onları yandırmadığını, tüstünün içərisinə atdığını demişlər.

Sonra Əli ﷺ dedi:

Mən işlərin şuluğ olduğunu bildikdə,
Odumu yandırıb, yerqazan çağırdım.
Sonra bir çamur, yenə bir çamur
Qazdırıb münkərləri oraya atdırdım.

Hörmətli oxucu nəbadə fikirləşəsən ki, bu qəbahətli işləri görən şəxsiyyət xəyali və ya uydurma bir şəxsiyyətdir. O islamın meydanında mövcud olmuş, plan cızaraq işlər görmüşdür. Elə buna görə də alimlər onun halını açıqlamış, sapıqlığını tapmış, bir olan islam ümmətinin sıralarında təfriqə salaraq avam insanların beyinlərinə təhlükəli fikirlər salmasını bəyan etmişlər.

Bir çox alimlər Abdullah ibn Səbanın tərcümeyi halını açıqlamışlar. Onlardan bəziləri aşağıdakılardır:

1 - Səd ibn Abdullah əl-Əşari əl-Qummi (hicrətin 301-ci ilində vəfat etmişdir) demişdir: Abdullah ibn Səbanın ardıcılları olan bu firqə Səbailər adlandırılır. O Abdullah ibn Vahb ər-Rasibi əl-Həmdanidir. Onun yaxın köməkçiləri isə Abdullah ibn Hərasi və ibn Əsvad olmuşlar. Bu iki şəxs onun ən yaxın havadarları olmuşlar. Abdullah ibn Səba ilk dəfə Əbu Bəkrə, Ömərə, Osmana və səhabələrə tənə edərək onlardan uzaqlaşmışdır.[1]

2 - ən-Nəubəxti ibn Səbanın Əbu Bəkrə, Ömərə, Osmana və səhabələrə tənə vuraraq onlardan uzaq durmuşdur və demişdir ki: Ona bunu Əli ﷺ əmr etmişdir. Əli ﷺ onu çağırıb bu haqda soruşduqda o bunu iqrar etmişdi. Əli onun öldürülməsini əmr etdikdə insanlar çığırdılar: Ey Əmirəl möminin, Sizin Əhli Beytin sevgisinə sənin yaxınlığına və düşmənlərindən uzaq durmağa səsləyən bir kəsi qətləmi yetirirsən? O, onu Mədainə sürgün etdi. Sonra o dedi: Abdullah ibn Səba Mədaində olarkən imam Əlinin ölüm xəbəri gəlib çatdıqda o həmin xəbəri gətirənə dedi ki; Yalan deyirsən. Əgər sən onun beynini yetmiş dənə xurcuna qoyub gətirsən və

[1] əl-Məqalət vəl Firaq: (20-ci səhifə)

onun ölümünə yetmiş adil şahid gətirmiş olsan da bir onun ölmədiyini və qətlə yetirilmədiyini yəqin bilərdik. Çünki o bütün yer üzünü ələ keçirməyincə ölməz.[1]

3 - əl-Kəşşi (hicrətin 369-cu ilində vəfat etmişdir) demişdir: Əbən ibn Osman rəvayət edir ki, mən Əbu Abdullahın belə dediyini eşitmişəm: Allah Abdullah ibn Səbaya lənət eləsin, o əmirəl möminin ﷺ Rəbb olduğunu iddia etmişdi. Allaha and olsun ki Əmirəl möminnin ﷺ Allaha itaətkar bir qul idi. Bizim haqqımızda yalan danışanın vay olsun halına. Bəziləri bizim barəmizdə özümüzün demədiyi şeyləri deyirlər. Biz onlardan Allaha sığınırıq, biz onlardan Allaha sığınırıq. Həmçinin demişdir: Bəzi elm əhli qeyd etmişlər ki, Abdullah ibn Səba islamı qəbul etmiş yəhudi idi. O Əlinin ﷺ tərəfdarı idi. O hətta yəhudi olarkən Musanın عليه السلام vəsiyyət etdiyi şəxs olan Yuşi ibn Nun haqqında ifrata varmışdı. Rəsulullahın ﷺ vəfatından sonra islamı qəbul edərək Əli ﷺ haqqında eyni fikirləri irəli sürdü. İlk dəfə Əlinin imamlığı haqqındakı qövlü, onun düşmənlərindən uzaqlaşmağı, ona müxalif olanların küfrü barəsində rəyi o yaymışdı.[2]

4 - Hörmətli şeyx Əbu Cəfər ət-Tusi (hicrətin 460-cı ilində vəfat etmişdir) O "Əlinin səhabələri" babında Abdullah ibn Səbanın tərcümeyi halını yazaraq demişdir: Həmin Abdullah ibn Səba küfrə qayıdaraq həddini aşmışdı.

Kitabın haşiyəsində isə belə deyilir: Abdullah ibn Səba həddini aşmış məlumdur. Möminlərin əmiri Əli ﷺ onu odda yandırmışdı. O Əlinin ﷺ İlah və peyğəmbər olduğunu iddia edirdi.[3]

5 - Möhtəşəm alim Əli əl-Qahbəi (1016-cı ildə vəfat etmişdir) demişdir: Bu həmin Abdullah ibn səbadır ki küfrə qayıtmış və həddini aşdığını büruzə vermişdi.[4]

6 - Alim əl-Ərbəli (hicrətin 1101-ci ilində vəfat etmişdir) demişdir: O həddini aşmış bir məlundur. O Əlinin ilah və ya peyğəmbər olduğunu iddia etmişdir.[5]

7 - Mirzə ən-Nuri ət-Tabrasi (hicrətin 1320-ci ilində vəfat etmişdir) O özünün "Mustədrak əl-Vasəil" kitabında, "həddini aşanların və Qədərilərin hökmü" babında ƏMMAR əs-Səbatinin rəvayətini xatırlatmışdır

[1] "Firaquş Şiə": (22-ci səhifə)
[2] "Ricəl əl-Kişşi": (107-108-ci səhifələr)
[3] "Ricəl ət-Tusi": (51-ci səhifə)
[4] "Ricəl əl-Qahbəi": (3/284)
[5] "Cəmi ər-Ruvat": (1/485)

ki; Bir dəfə Möminlərin əmiri ﷺ Mədainə gəlmişdi. O Xosrovun yardımçısı Dəlf ibn Mucir də var idi. Az sonra o Dəlfə dedi: Dur gedək mənimlə... O sınıq bir kəllə sümüyünə baxıb yoldaşlarına dedi: "Bu kəllə sümüyünü götürün! O sümük atılmış idi. O saraya gəlib əyləşdikdən sonra içərisində su olan bir tas istədi və dedi; o kəllə sümüyünü tasın içərisinə su olan bir tas istədi və dedi; o kəllə sümüyünü tasın içərisində qoy. Sonra o ﷺ dedi: "Səni Allaha and verirəm ey kəllə sümüyü xəbər ver görək mən kiməm? Və sən kimsən? Kəllə sümüyü açıq-aydın dil açaraq belə söylədi: Sən möminlərin əmiri vəsiyyət olunmuşların ağasısan. Mən isə Allahın qulu və Allahın qulunun oğlu Xosrov Ənuşirəvanam. İnsanlar dağılışmağa başladılar, onların arasında Sabat əhlindən olanlar da var idi. Onlar gedib kəllə sümüyündən eşitdiklərini danışmağa başladılar. Beləliklə onlar əmir əl-möminininin mənasında ixtilaf etdilər. Onlardan bəziləri gəlib nəsranilərin Məsih haqqında dedikləri kimi dedilər. Bunu Abdullah ibn Səba və onun tərəfdarları kimi dedilər. Əlinin yoldaşları ona dedilər ki; əgər bu işi belə buraxsan insanlar küfrə düşəcəklər. Bunu eşitcək o dedi: Sizcə onlara nə etsəm yaxşı olar? Onları Abdullah ibn Səba və tərəfdarlarına etdiyin kimi yandırsan yaxşı olar.[1]

Bu da fəsad törədənlərə, onların mübarək şəriətimizə qoyduqları yalan, zəhər və ifrata olan münasibətləri. Görəsən biz bundan sonra əvvəlkilərin əmirəl möminin haqqında dediklərini dərk edəcəyikmi?

İkinci: Səhabələr arasında fitnənin başlaması.

Şübhə yoxdur ki, peyğəmbərin ﷺ səhabələri arasında fitnələrin və döyüşün başlanğıcı yəhudi əsilli Abdulah ibn Səbanın zəif imanlı müsəlmanlar arasında yaydığı pis fikirlərdən sonraya təsadüf edir. Bütün bunlar öz səmərəsini sonra verdi və bu ilk öncə nadanların müsəlmanların xəlifəsi Osman ibn Əffana qarşı çıxmaları və onu evində qətlə yetirmələri ilə nəticələndi.

Osman ﷺ şəhid olduqdan sonra vəziyyət daha da ağırlaşdı. Pislik mikrobları müsəlmanların sıralarında yayılmağa başladı. Əli ﷺ xəlifə elan olunduqda Səbailər, Xavariclər Mədinə əhlinin və islamı ordusunun sıralarına təmizləmək, onlardan müsəlmanların xəlifəsi Osman ibn Əffanı qətlə yetirdikləri üçün intiqam almaq imam Əlinin ﷺ təqdirində deyildi. O, Mədinə əhli arasında fitnənin və ölüm hadisələrinin çoxalmasından ehtiyatlanırdı. Necə ki, onlar məzlum xəlifə Osmanın ﷺ başına nələr gətirmişdilər.

[1] "Mustədrak əl-Vasəil": (18/168), "Mədinətul Məaciz": (1/226)

Mədinə əhli ondan Osman ibn Əffana ﷺ pislik edənlərin cəzalandırılmasını tələb etdikdə, imam Əli ﷺ onlara belə dedi: "Ey qardaşlarım! Mən sizin dediklərinizdən bixəbər deyiləm. Lakin ən nə edə bilərəm onlar öz tikanları ilə bizə malikdirlər, biz isə onlara malik deyilik. Biz onlara baxın sizlər onlar arasında yayılmış, ərəblər onlara qarşı yönəlmişlər, onlar istədikləri qədər sizin aranızdadırlar. Sizin tələb etdiklərinizi yerinə yetirməyə macal görürsünüzmü? Şübhəsiz ki, bu cahilliklə bağlı siz deyəni, bəziləri onun əksini deyəcək. Bəziləri isə bunların heç biri ilə razılaşmayacaq. Ona görə səbirli olun ay camaat, gərək bir insanların sakitləşməsini, qəlbəlir öz yerində qərar tutmasını və imkan yaranmasını gözləyək. Mənə qarşı sakitləşin və mənim sizə verəcəyim əmri gözləyin. Elə bir əməl etməyin ki, o bizim gücümüzü zəiflədib, zəlilliyə salsın. Mən hələ ki gizləyəcəyəm. Başqa çıxış yolu tapmasam, dərmanın sonu yandırandır"[1]

Bundan sonra peyğəmbərin ﷺ səhabələri arasında onların parçalanması ilə nəticələnən fitnələr qaynamağa başladı. Onların rəy və ictihadları müxtəlif oldu. Onların bir qismi dərhal müsəlmanların xəlifəsi Osman ibn Əffanı qətlə yetirənlərin cəzalandırılmasını tələb edir, digər qismi isə möminlərin əmiri vəziyyəti ələ alanadək gözləməyin vacibliyini görürdülər. Bununla da müxtəlif rəy və ictihadlara malik olan bu qövmün arasına pislik və fəsad əhli soxuldu.

Təfriqə fürsətindən istifadə edərək fəsad əhli vəziyyət olduğu kimi saxlamayıb, çalışırdılar ki parçalanma və ixtilaf oduna üfürərək onu alışdırsınlar. Onlar bir qrup səhabənin Məkkədən İraqa tərəf çıxmasına nail oldular. Onlara dedilər ki, İraq əhli pislik istəyirlər. Beləliklə ümmətin sıralarını parçalayan Cəməl döyüşü baş verdi.

Cəməl döyüşü:

Tarixi faktlar sübut edir ki, Talhə, Zübeyr, möminlərin anası Aişə رضي الله عنها və onlarla birgə olanlar Məkkədən İraqa döyüş üçün və ya Əlini ﷺ xilafətdən uzaqlaşdırmaq üçün çıxmamışdılar. Onların çıxışlarının əsas məqsədi ixtilafa son qoymaq. Islah etmək, müsəlmanların sözlərini birləşdirib onları cəm etmək, müsəlmanların xəlifəsi Osman ibn Əffanı ﷺ qətlə yetirənlərdən intiqam alınması və qatilləri İraqdan, müsəlmanların sıralarından uzaqlaşdırmaq idi. Tarix kitabları bunları xatırladır. Cəməl

[1] "Nəhcul Bələğa" (243-cü səhifə), "Biharul Ənvar" (31/502)

döyüşü sonuncu döyüş deyildi. Ondan bir müddət sonra Saffeyn döyüşü də baş verdi. Bu böyük hadisənin icmalını bu cür qeyd etmək olar:

Əlinin ordusu ilə Talhə və Zübeyrin ordusu arasında xavariclərin ordudan kənarlaşdırılması və onlara qarşı vuruşmaq haqqında ittifaq yarandıqdan sonra, hər camaat öz lagerinə döndükdən sonra bu mübarək həmrəylik və birlik xavariclərə xoş getmədi. Çünki bu birlik onlara qarşı vuruşmağa gətirib çıxaracaqdı. Ona görə onlar məkr və hiylə ilə iki ordu arasında fitnəni alovlandırdılar. Gecə vaxtı hər iki tərəfdən bəzilərini hazırladılar ki, səhər savaş yaratsınlar. Hətta hər iki tərəf digərinin onu aldatması qənaətinə gəldi və onlara qarşı hazırlanmış bu hiylədən xəbərsiz oldu. Nəticədə iki ordu arasında müharibə oldu.

Saffeyn döyüşü:

Qayə və hədəf baxımıdan Cəməl və Saffeyn döyüşlərinin əsas səbəbləri bir-birindən heç də fərqlənmirdi. Tarix alimləri də buna görə Əli ilə Müaviyə arasında baş verən ixtilafın başlıca səbəbini bir çox kitabların iddia etdiyi kimi Müaviyənin xilafət düşgümlüyü və tamahkarlığı olmamışdır.

Müaviyə nə xilafətə qarşı çıxmamışdı, nə də müsəlmanlardan heç kim ona beyət etməmişdi. O xəlifə olduğunu deyərək Əliyə qarşı vuruşmamışdı. Müsəlmanların xəlifəsi Əli ibn Əbu Talib ilə Şamın əmiri Müaviyə araısnda baş verən ixtilafın səbəbi onu Şamın başçılığı vəzifəsindən azad etməsi və onun xilafətini iqrar etməsi idi.

Müaviyə qətlə yetirilmiş xəlifə Osmanın qisasını almaq istəyirdi. Şam əhli də belə bir xəbər yaymağa başlamışdı ki, guya Əli müsəlmanların xəlifəsi təyin olunduqda Osmanın qatillərini tapıb, onlardan qisas almaq əvəzinə Cəməl əhli ilə döyüşmüş, Mədinəni tərk edib Osmanın qatillərinin olduğu Kufə şəhərində məskunlaşmışdır və onun ordusunda keçmiş xəlifənin qətlində ittiham olunan şəxslər mövcuddur.

Məsələyə aydınlıq gətirmək və yayılmış xəbərləri yalanlamaq üçün Əmirəl möminnin Əli müsəlmanlar parçalanmasınlar deyə Müaviyəyə məktub göndərib bəyan edir ki, o xəlifəyə daha layiqdir və onun Osmanın qanında əli yoxdur. O belə demişdir: "Əbu Bəkrə, Ömərə və Osmana beyət edənlər mənə də beyət ediblər. Ona görə nə iştirak edən, nə də iştirak etməyən bundan imtina edə bilməz. Şura mühacir və ənsarlardan ibarətdir. Əgər onlar kiminsə imanı olmasında yekdil rəyə gələrlərsə bu Allahın razılığına dəlalət edir. Əgər kimsə tənə etməklə, bidətə yol

verməklə buna qarşı çıxarsa, möminlərin yoluna qayıdanadək ona qarşı vuruşarıq. Ey Müaviyə and olsun ki, nəfsinin istəklərinə uymadan, ağılla baxsan, görəcəksən ki, mən Osmanın qanından ən uzaqda olan şəxsəm. Yox əgər dəli olsan onda özün bildiyini et. Sənə salam olsun".[1]

Müsəlmanların arasında döyüş başlayıb, aralarında qan axıdıldıqda döyüş Müaviyənin ordusunun Quranları qaldırmaları ilə yekunlaşdıqda və onlar izzət və cəlal sahibi olan Allahı razı salacaq hökm məsələsini tələb etdikdə müsəlmanların xəlifəsi Əli ﷺ bu tələblə razı oldu. Müəyyən şərtlərlə razılaşdıqdan sonra Əli Kufəyə, Müaviyə isə Şama qayıdır.

Müaviyə ilə öz arasında baş verənləri möminlərin əmiri Əli ﷺ hamıya belə nəql etmişdi: "Əvvəlcə biz Şam əhli ilə görüşdük, Bizim Rəbbimiz də, peyğəmbərimiz də, islama olan dəvətimiz də birdir. Allaha iman gətirib, Rəsulunu təsdiqləməkdə nə biz onlardan artığıq, nə də onlar bizdən. Bizim ixtilafımız yalnız Osmanın qisasının alınması məsələsində idi. Onu da deyək ki, biz Osmanın qətlində günahsızıq".[2]

Saffeyndə cərəyan edən hadisələr müsəlmanlar və ya əhli beyt üçün heç də gizli deyildi. Əksinə onlar bütün baş verənləri açıqca bilir və öz aralarında danışırdılar. İmam Cəfər əs-Sadiq öz atasından rəvayət edir ki, Əli ﷺ öz döyüşçülərinə belə demişdir: "Biz onlarla onları kafir hesab etdiyimizə və ya onların bizi kafir saydıqlarına görə vuruşmuruq. Sadəcə olaraq biz özümüzü, onlar isə özlərini daha haqlı sayırıq"[3]

Həqiqətən də peyğəmbərin ﷺ səhabələri arasında baş vermiş ixtilaflar, döyüşlər və qarşıdurmalar, aralarında bağladıqları sülh sazişləri və Uca Allahı razı salan hökmlər, sonra hər iki tərəfin bu hökmlə razılaşması bizə Uca və Böyük Allahın bu ayəsini xatırladır:

﴿ وَإِن طَآئِفَتَانِ مِنَ ٱلۡمُؤۡمِنِينَ ٱقۡتَتَلُواْ فَأَصۡلِحُواْ بَيۡنَهُمَاۖ فَإِنۢ بَغَتۡ إِحۡدَىٰهُمَا عَلَى ٱلۡأُخۡرَىٰ فَقَٰتِلُواْ ٱلَّتِي تَبۡغِي
حَتَّىٰ تَفِيٓءَ إِلَىٰٓ أَمۡرِ ٱللَّهِۚ فَإِن فَآءَتۡ فَأَصۡلِحُواْ بَيۡنَهُمَا بِٱلۡعَدۡلِ وَأَقۡسِطُوٓاْۖ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلۡمُقۡسِطِينَ ٩ إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ
إِخۡوَةٞ فَأَصۡلِحُواْ بَيۡنَ أَخَوَيۡكُمۡۚ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُرۡحَمُونَ ١٠ ﴾

"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlərin, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı

[1] Nəhcul Bələğa (366-cı səhifə), Biharul Ənvar: (33/76)
[2] Nəhcul Bələğa (448-ci səhifə), Biharul Ənvar (33/306)
[3] Qurbul İsnad (45-ci səhifə), Biharul Ənvar (32/324)

barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin". [əl-Hucurat surəsi, 9-10-cu ayələr]

Şeyx Muhəmməd Baqir ən-Nasiri öz təfsirində demişdir: "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa", yəni bir-birinə qarşı, "onları barışdırın" yəni onların arasını düzəltməyə səy göstərin. "Əgər onlardan biri digərinə qarşı təcavüz etsə", yəni haqqı olmayan bir şeyi tələb etsə və təcavüzkarlıq edərsə zülmə məruz qalan tərəfə yardım edin, "təcavüzkar dəstə ilə vuruşun" çünki onlar zülm ediblər, "O, Allahın əmrini yerinə yetirməyə qayıdanadək", yəni Allaha itaət edib, təcavüzə son qoyanadək, onlar buna son qoyduqda siz də aranızda sülh yaratmağa çalışın. "İnsaflı olun", zülm etməyin və adil olun, "Möminlər, həqiqətən də qardaşdırlar", yəni din qardaşlarıdırlar. Ona görə də iki dəstəni barışdıraraq məzluma yardım edib, zalımı etdiyi zülmdən uzaqlaşdırın".[1]

Möminlərin əmiri Əlinin ﷺ əsas məqsədi islah və müsəlmanların birliyi, eləcə də müsəlmanların arasında kin və təfriqəyə səbəb olan amillərdən uzaq durmaq idi. Ona görə də möminlərin əmiri Əli müsəlmanların səhvlərini ayırıb aralarında nifrətə səbəb olacaq şeylərdən çəkinirdi. Buna misal olaraq, aralarında döyüş olmasına baxmayaraq öz ordusundan Müaviyə ibn Əbu Sufyanın ordusunu söyüb lənət edənlərə bunu qadağan etməsini göstərə bilərik.

Abdullah ibn Şərik rəvayət edir ki, Hicr ibn Udey və Amr ibn əl-Humq çıxıb Şam əhlini lənətləməyə başladılar. Əli ﷺ bunu eşitcək onların yanına elçi göndərib dedi: "Haqqınızda eşitdiyim əmələ son qoyun". Onlar Əlinin yanına gəlib dedilər: Ey möminlərin əmiri məgər bizim buna haqqımız çatmırmı?" O dedi: Çatır. Onlar sorşdular: Məgər onların əməlləri batil deyilmi? O: Elədir –deyə cavab verdi. Onlar dedilər: Elə isə nə üçün onları söyməyi bizə qadağan edirsən? O dedi: İstəmirəm ki, onlar sizin lənət edən və söyüş söyən olduğunuzu şahidi olub sizdən uzaq dursunlar. Yaxşı olar ki, siz bunun əvəzində onların pis əməllərini qeyd edib deyəsiz ki; onlar belə əməllər ediblər. Bu sözdə və əməldə daha məqsədəuyğun olardı. Onlara lənət etməyin əvəzinə isə gərək belə deyəydiz: Allahım bizim və onların axıtdıqları qanlarının qarşısını al, bizimlə onların arasını düzəlt və onları çaşqınlıqdan çıxar. Belə et ki, onlardan cahil olanlar haqqı tapsın, düşmənçilik və qarşıdurma yaradanlar bundan uzaqlaşsın. Sizin belə deməyiniz mənə daha xoşdur və sizin üçün daha yaxşıdır".[2]

[1] "Təfsir Muxtəsər Məcmə əl-bəyan" (3/308)

[2] Mustədrak əl-Vasəil (12/306), Biharul Ənvar (32/399), Vaqətus Saffeyn (102-ci səhifə)

Əlinin ﷺ bu qadağası təkcə öz tərəfdarları üçün deyildi. O bu nəhyi açıqca bəyan etmiş, öz ortusuna bunu tövsiyyə etmişdi. O bu nəhyin hər biz zaman və məkan şamil olunduğunu açıqlamaq istəyirdi.

Saffeyn döyüşü əsnasında o öz ordusuna həmçinin bunları tövsiyyə etmişdi: "Mən istəmirəm ki, siz çox söyüşsöyən olasınız. Lakin əgər siz onların əməllərini vəsf edib, hallarını xatırlatsanız bu sözdə və əməldə daha yaxşı olardı. Gərək onları söyməyin əvəzinə belə deyəsiniz: Allahım bizim və onların tökdükləri qanlarının qarşısını al və bizimlə onların arasını düzəlt".[1]

İmam Əli ﷺ Şəhid olduqdan sonra baş vermiş olaylar.

Möminlərin əmiri Əli ﷺ xəvariclərdən olan ibn Mulcinin əli ilə şəhid olduqdan sonra Həsən ibn Əli ﷺ müsəlmanlara xəlifə təyin olundu. Onun xəlifə olması ilə müsəlmanlar birləşdi və peyğəmbərn ﷺ möcüzəsi mühəqqəq oldu.

Əbu Bəkrə Bufey ibn əl-Haris əs-Səqafi rəvayət edir ki; bir dəfə mən gördüm ki, peyğəmbər ﷺ Həsən ibn Əli yanında ikən insanlara və ona nəzər salaraq belə dedi: "Mənim bu övladım alicənab bir şəxsdir. Yəqin ki, nə vaxtsa Allah onun vasitəsi ilə iki böyük müsəlman ordusunun arasında sülh yaratcaq".[2]

İmam Həsən ibn Əlinin ﷺ Müaviyə ilə bağladığı sülhün şərtlərindən biri, onun insanlar arasında Quran və sünnə ilə hökm verməsi və Raşidi xəlifələrin yolu ilə getməsi idi.[3]

Möminlərin əmiri Əli ilə Müaviyə arasında ixtilafların olmasına baxmayaraq sıx dini qardaşlığın bariz misallardan Müaviyənin Əli şəhid olduqdan sonra onu xatırladıqda onu itirdiklərinə görə ağlayıb ona rəhmət oxumasını göstərmək olar.

Asbağ ibn Nəbətə rəvayət edir ki; "Bi dəfə Dirar ibn Damra ən-Nəhşəli Müaviyə ibn Əbu Sufyanın ﷺ yanına daxil olduqda o Dirara dedi: Əlini mənim üçün vəsf et. Dirar dedi: Məni sərbəst buraxarsanmı? Müaviyə dedi: Yox, onu mənim üçün vəsf et. Dirar dedi: Allah Əliyə rəhmət eləsin! Allaha and olsun ki, o bizim aramızda, bizlərdən biri kimi idi. Yanına gəldikdə bizi öz yanına buraxar, sual verdikdə sualımıza cavab verər, onu ziyarət etdikdə bizi özün yaxın buraxardı. Bizim üzümüzə onun qapısı bağlanmaz, bizimlə onun arasında heç bir manea olmazdı. Allaha and olsun ki, biz ona yaxın olmağımıza baxmayaraq heybətindən

[1] Nəhcul Bələğa (323-cü səhifə), Biharul Ənvar (32/561)
[2] Kəşful ğummə (1/519), Biharul Ənvar (43/298), Əvali Əlləali: (1/102)
[3] Kəşful ğummə (1/570), Biharul Ənvar (44/64)

dolayı onu danışdırmaz, onun əzəmətli olmasına görə başlamağa cürət etməzdik. O səf-səf mirvari tək təbəssüm edərdi.

Müaviyə dedi: Bir az daha vəsf et. Dirar dedi: Allah Əliyə rəhmət eləsin, Allaha and olsun ki, o çox vaxt yuxusuz olar, çox az yatar, gecə və gündüz vaxtlarında Allahın kitabını oxuyardı.

Bunu eşitcək Müaviyə ağlamağa başladı və dedi: Kifayətdir ey Dirar! Əli doğrudan da sənin vəsf etdiyin kimi idi. Allah Əbu Həsənə rəhmət eləsin".[1]

Keçmişdə qardaşlıq bu cür idi, aralarındakı ictihadi ixtilaf onların bir-birinə rəhmət diləməsinə mane olmurdu. Keçmiş zamanda baş vermiş hadisələri yaxşıca anlamağa bizə tarix kömək edir. Bunları yaxşıca dərk etdikdən sonra hər tərəfdən müsəlmannın üzərinə atılan qarışıq hislərə, şeytanın hiylələrinə və insana hakim olmaq istəyən şübhələrə yer qalmır. Allah bizi bunlardan qorusun.

Dördüncü məsələ:
İslam və müsəlmanlara qarşı hiylələr.

Şərqşünaslar və onların ardıcılları səhabələr arasında baş verən ixtilaf və çəkişmələrdən onların adilliyinə xələl gətirib tənə vurmaq üçün sui istifadə etmişlər.

Həm əvvəllər, həm də müasir dövrümüzdə gözəl natiqliyə yiyələnərək bilmədikləri məsələlərdən bərq vuran, anlamadıqları şeylərə girişən şəxslər özlərini peyğəmbərin ﷺ səhabələrinin arasına hakim seçərək, bəzilərini düzgün, digərlərinin isə səhv mövqedə olduqlarını dəlisiz və sübutsuz olaraq iddia etmişlər. Bunu da onlar şərqşünasların yolunu təqlid etməklə həyata keçirmişlər.

Bu növ yazıçılar öz batil rəylərini və çirkin sözlərini sübuta yetirmək, tarixi təhrif edib müsəlmanların arasında fitnə və kin-küdurət yaratmaq üçün bir neçə əyri üslubdan istifadə etmişlər. Bu üslublardan bəziləri aşağıdakılardır:

Birinci: Peyğəmbərin ﷺ səhabələrinə tənə vurmaq:

Şərqşünaslar dinimizə təcavüz edərək müxtəlif şübhələr meydana gətirmişlər. Həmin şübhələr bunlardır:

Heç insan da öz düsturunu və Qurandan götürüb gedəcəyi yolun mənhəcini aralarında xoşagəlməz hadisələr cərəyan etmiş və səhvlər etmiş adamlardan götürərmi?

[1] Biharul Ənvar (14/41), Əməlis Saduq: (624)

Avam müsəlmanlara bu minvalla zəhərli şübhələr yayan kəs, şübhəsiz ki tarixi naməlum olan adi bədəvi səhabələridən birini, adi bir səhabə qadının zina etdiyini etiraf etdiyinə görə peyğəmbərin ﷺ onu daşqalaq etiyi kəsi və ya içki içdiyinə görə peyğəmbərin ﷺ onu cəzalandırdığı kişini qəsd etmir. O öz şübhələrini yaydıqda peyğəmbərin ﷺ fəth etmək istəti ilə gələcəyini Qureyşə bildirməklə səhv ictihad etmiş Hatib ibn Əbi Bəltəəni də nəzərdə tutmur. Bütün bu sadalanan şəxslər ya Allaha tövbə etməklə, ya da dünyavi cəza çəkməklə bağışlanmışlar.

O bu şübhə və tənələrini barələtində müxtəlif qissələr rəvayət olunmuş böyük səhabələr üçün edirlər. Onlar səhabələr arasında baş vermiş ixtilafları zahirə çıxarmaqla Allahın nurunu söndürüb müsəlmanları azdırmaq istəyirlər. Çünki əgər onlar səhabələrin qeyri adil olduqlarını yaya bilsələr, sonradan Allahın kitabına da müdaxilə elə biləcəklər. Belə ki, Quranı hifz edib nəql edənlər məhz onlar olmuşlar. Bu minvalla Rəbbani şəriətin təfsilatını bizə açıqlayan peyğəmbərin ﷺ sünnəsi. Beləliklə də onlar asanlıqla islam və müsəlmanları ayırmaq və onların arasında fitnə və nifrət yaratmağa nail olacaqlar.

Bunun da ən bariz nümunəsi, insanlar arasında səhabəlkər haqqında olan uydurma hədislərin yayılmasıdır.Ən qəribəsi də budur ki, səhabələrin ixtilaf və təfriqələri barəsində varid hədislərin arasında bircə dənə də olsun səhih rəvayətə rast gəlməmişik.

Amma onlar çox gözəl bilirlər ki:

1 - Səhabələrin tərifi Rəbbimizin kitabında, peyğəmbərimiz Muhəmmədin ﷺ sünnəsində, eləcə də beytin rəvayətlərində mövcuddur.

2 - “Səhabələrin arasında münafiqlər vardır” – ifadəsi yalandır. Çünki münafiqlər səhabələridən deyillər. Münafiqləqin əksəriyyətinin özləri və vəsfləri peyğəmbər ﷺ və onun səhabələri üçün bəlli idi. Belə ki, Quran onların hər bir hərəkət və əməllərini, habelə nəfsi istəklərini də açıqlamışdı.

Peyğəmbərin ən sonuncu döyüşlərindən biri olan Təbuk döyüşünü misal gətirsək görərik ki, həmin döyüşdə iştirak etməmək üçün bəziləri çox yersiz üzrlər gətirirdilər. Onlar adətən Allah yolunda cihad elan olunduqda münafiqlərin gətirdikləri “birdən Rumluların qadınlarının fitnəsinə düşərik” kimi mənasız üzrləri gətirirdilər.

Qurani Kərimdə bir çox yerlərdə xatırlandığı kimi, səhabələrin çoxu Allahın rəsulu ﷺ ilə birgə çıxdıqda, Mədinədə yalnız açıq-aydın münafiq

olanlar, Allahın üzrlü saydığı şəxslər və peyğəmbərin ﷺ qalmağa izn verdiyi kəslər mövcus idi.

Münafiqlərin səhabələrdən sayılmadıqlarına daha bir sübut İzzətli Rəbbimizin Rəsulullahla ﷺ birgə üzrsüz olaraq cihada getməyin üç Mədinə sakininin səmimi qəlbdən etdikləri tövbələrini qəbul etməsidir. Uca Allah buyurur:

﴿وَعَلَى ٱلثَّلَٰثَةِ ٱلَّذِينَ خُلِّفُواْ حَتَّىٰٓ إِذَا ضَاقَتۡ عَلَيۡهِمُ ٱلۡأَرۡضُ بِمَا رَحُبَتۡ وَضَاقَتۡ عَلَيۡهِمۡ أَنفُسُهُمۡ وَظَنُّوٓاْ أَن لَّا مَلۡجَأَ مِنَ ٱللَّهِ إِلَّآ إِلَيۡهِ ثُمَّ تَابَ عَلَيۡهِمۡ لِيَتُوبُوٓاْۚ إِنَّ ٱللَّهَ هُوَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ١١٨ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَكُونُواْ مَعَ ٱلصَّٰدِقِينَ ١١٩﴾

“Allah müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da əvvəlcə tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı Şəfqətlidir, Rəhmlidir. Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmildilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələti yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəbdir, Rəhmlidir”.[ət-Tövbə surəsi, 117-118-ci ayələr]

Qeyd etməyimiz zəruridir ki, Tövbə surəsinin ayələri Təbuk döyüşündən sonra Mədinə əhlini üç qismə bölmüş, dördüncü qism barəsində isə susmuşdur. Bu qismə peyğəmbərin ﷺ qalmağa icazə verdiyi imam Əli və ibn Ummi Məktub kimi şəxslər və cihada getməyə imkan tapmayan kasıblar daxildir.

Tövbə surəsindəki birinci ayə göstərir ki, Mərhəmətli Allah döyüşdə iştirak edən səhabələri bağışlayır. Bunlar birinci qismdir. İkinci ayədə Mədinə əhalisindən döyüşdən üz çevirən münafiqlər qeyd olunmuşdur. Bunlar ikinci qismdir. Sonra Allah bizə üçüncü və sonuncu qism olan döyüşdən yayınan üç nəfər haqqında məlumat verib bildirir ki, onlar peyğəmbərlə ﷺ sadiq olduqlarına görə Allah onların tövbələrini qəbul etmişdir.

Hadisələrin həqiqətini açıqlayan ayələri oxuduqdan sonra belə bir sual meydana çıxır. Məgər bu şəxslərdə münafiqlik varmı?

Əksinə səhabələr ﷺ nifaqdan ən çox həzər edəcək Allahdan qorxurdular.

Sələm ibn əl-Mustənir rəvayət edir ki; “Bir dəfə mən Əbu Cəfərin ﷺ yanında idim. Humran ibn Əyun onun yanına gəlib bəzi suallar verdi. Humran qalxıb getmək istədikdə Əbu Cəfərə ﷺ belə dedi: Allah səni bizim aramızda uzun müddət var eləsin, biz sənin yanına gəldikdə qəlblərimiz incəlir, könlümüz dünyaya qarşı solur və insanların malik olduqları mal-dövlət gözümüzdə adiləşir. Elə ki, sənin yanından çıxırıq insanlara və tacirlərə qoşularaq dünyanı sevirik. Əbu Cəfər ﷺ dedi: “Həqiqətən də qəlblər hərdən sərtləşir, hərdən də yumşalır”. Sonra o belə dedi: “Bir dəfə səhabələr Rəsulullahdan soruşdular: Ey Allahın Rəsulu, bizim üçün nifaqdan qorxursanmı? O dedi: Siz nə üçün ondan qorxursunuz? Onlar cavab verdilər: Biz sənin yanında olduqda sən bizə xatırladıb, bizi rəğbətləndirdikdə qorxub, dünyanı unudaraq taxtayırıq. Sanki sənin hüzurunda ikən axirəti, cənnəti cə cəhənnəmi gözlərimizlə görürük. Sənin yanından çıxıb evlərimizə qayıdıb övladlarımızın, əhli-əyalımızın yanına döndükdə isə yanında ikən olduğumuz hal dəyişir. Sanki heç bir şey olmamışdı. Bu nifaqdan ola bilərmi? Allahın Rəsulu ﷺ buyurdu: “Xeyr bu şeytanın addımlarıdır, dünyanı sizə sevdirmək istəyir. Allaha and olsun ki, əgər siz daimi olaraq qeyd etdiyiniz halda olsanız mələklər sizinlə bilavasitə görüşər və siz suyun üzərində gəzərdiniz. Əgər siz günah edib Allahdan bağışlanma diləmiş olmasaydız, Allah sizin əvəzinizə elə bir məxluqatlar yaradırdı ki, onlar günah edib Allahdan bağışlanma diləyərdilər. Allah da onları bağışlayardı. Həqiqətən də mənim günah edib tövbə edəndir. Məgər İzzət və Cəlal sahibinin bu ayəsini eşitməmisən?:

﴿إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلتَّوَّٰبِينَ وَيُحِبُّ ٱلۡمُتَطَهِّرِينَ﴾

“Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da” [əl-Bəqərə surəsi, 222].

Həmçinin buyurur:

﴿وَأَنِ ٱسۡتَغۡفِرُواْ رَبَّكُمۡ ثُمَّ تُوبُوٓاْ إِلَيۡهِ﴾

“Rəbbinizdən bağışlanma diləyib, sonra tövbə edin. [Hud surəsi 3].

3 - Səhabələr icma etdikləri halda məsumdurlar, Onların hər hansı bir böyük və ya kiçik günahı halal görüb etmələri qeyri mümkündür. Ayrılıqda hər hansı birinin günah etməsi onların tək-tək məsum olmamalarına dəlildir. Ona görə də onların hər hansı bir günah işlətmələri nə onların adilliklərinə xələl gətirməz, nə də onların mövqelərinə əksiklik gətirməz.

Onların ümumən adil olmalarına sübutlardan biri də odur ki, imamlar səhabələrin peyğəmbərdən ﷺ rəvayət etdikləri hədisləri yoxladıqdan sonra bir dənə də olsun peyğəmbərin ﷺ adından yalan danışan səhabəyə rast gəlməyiblər. Baxmayaraq ki, onların dövründə saxta rəy və xəstə ağıl nəticəsi olan qədərilər, xavariclər və murciələr çox geniş vüsət tapmışdı. Buna rəğmən heç bir səhabə o bidətçilərin arasında olmamışdır. Bu isə onu göstərir ki, allah onları peyğəmbərinə ﷺ səhabələr edib onların əli ilə öz dinini yaymaq üçün onları seçmiş, qorumuş və fərqləndirmişdir.

Abu Abdullah ﷺ demişdir: "Peyğəmbərin ﷺ səhabələrinin sayı on iki min idi, onların səkkiz mini Mədinədən, iki mini Məkkədən, iki mini isə müxtəlif yerlərdən idilər. Onların arasında heç vaxt qədəri, murciə, hüruri, mötəzili və ya rəy əhli olmamışdır. Onlar gecə-gündüz ağlayaraq belə deyirdilər: "Ey Rəbbimiz təzə çörək dadmamışdan qabaq bizim ruhumuzu al".[1]

İmam Cəfər əs-Sadiq ﷺ səhabələrin peyğəmbər hədislərini düzgün nəql etdiklərinə görə, onların adilliklərini sübuta yetirmişdir.

Mənsur ibn Hazim rəvayət edir ki; Mən Əbu Abdullaha ﷺ dedim: "Bu necə olur ki, mən sənə sual verdikdə mənə bir cür cavab verirsən, başqası gəlib sənə həmin sualı verdikdə onu başqa cür cavablandırırsan? O dedi: Biz suala insanın səviyyəsinə görə cavab veririk. Mən dedim: Elə isə mənə xəbər ver görüm, Rəsullullahın ﷺ səhabələri Muhəmmədin ﷺ adından doğru danışıblar, yoxsa yalan? Cəfər əs-Sadiq dedi: Məgər bilmirsən ki, biri Rəsullullahın ﷺ yanına gəlib sual verdikdə bir cür cavab verirdi, sonra həmin cavabın hökmünü qüvvədən salan başqa cavab verirdi? Hədislər də bir-birini nəsx ediblər".[2]

Əgər kimsə gəlib səhabələrin yalan danışdırlarını və ya onların qəlblərində nifaqın olduğunu iddia edərsə, o zaman ona sual verərik ki, bu iddiaya açıq-aydın dəlil haradadır?

4 - Səhabələrin adil olmaları əsla onların məsum olmaları demək deyil. Xeyr, onlar da bəşər övladıdır, düzgün iş də edirlər, xətalara da yol verirlər. Lakin onların xətaları etdikləri savabların içərisində ört-bastır olunur.

Onlar elə fəzilətlərə malikdirlər ki, heç kəs onları haqlaya bilməz. Onlar, Ərəblər peyğəmbəri ﷺ qətlə yetirmək üçün bir oraya gəldikdə

[1] əl-Xisal (2/639), Biharul Ənvar (22/305)
[2] əl-Kəfi (1/65), Biharul Ənvar (2/228)

onu qorumuş, malları, övladları və canları ilə cihad etmiş, öz ataları, qardaşları və yaxınları ilə savaşmlş, canlarını Allahın adı uca olsun deyə qurban vermiş və ya əzəmətli dinin bizə gəlib çatmasının səbəbkarları olmuşlar. Bütün bunlar isə küfrə çatmamaq şərti ilə onların etdikləri irili-xırdalı bütün günahların bağışlanmasını Allahın izni ilə vacib edir.

Uca Allah buyurmuşdur:

﴿ فَبِمَا رَحْمَةٍ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمْ ۖ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ ٱلْقَلْبِ لَٱنفَضُّوا۟ مِنْ حَوْلِكَ ۖ فَٱعْفُ عَنْهُمْ وَٱسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِى ٱلْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَوَكِّلِينَ ﴾

“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahlarından keç, Allahdan onların bağışlanmalarını dilə və görəcəyik işlər barəsində onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir”. [Ali İmran surəsi, 159-cu ayə]

əl-Məclisi demişdir: “Əgər bir günahla insanın adilliyi aradan gedirsə, ixtilaf yoxdur ki, tövbə onun adilliyini qaytarmış olur. Bəziləri bunun üzərində icmanın yekdil rəyə gəldiklərini demişlər”.[1]

Seyid Əbul Qasim əl-Vui demişdir: “Günah etməklə insanın adilliyi aradan qalxmış olur. Peşmançılıq hissi keçirib tövbə etməklə isə geri qayıdır. Bu məsələ də böyük günah ilə kiçik günah arasında heç bir fərq yoxdur”.[2]

Seyid Muhəmməd Hüseyn Fədləllah peyğəmbərin ﷺ səhabələrindən qat-qat aşağı səviyyədə olan müasir camaatların adilliyi barəsində demişdir: “Adillik məsumluq demək deyil, ola bilsin ki, adil bir mömin günah iş gördükdən sonra diqqət edib Uca Allahın bu ayəsinə uyğun olaraq tövbə etsin:

﴿ إِنَّ ٱلَّذِينَ ٱتَّقَوْا۟ إِذَا مَسَّهُمْ طَٰٓئِفٌ مِّنَ ٱلشَّيْطَٰنِ تَذَكَّرُوا۟ فَإِذَا هُم مُّبْصِرُونَ ﴾

“Alahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər”. [əl-Əraf surəsi, 201-ci ayə] Bəs adillik nə ilə sübuta yetirilir?

Adillik insanın cəmiyyətdə göstərdiyi ümumi əxlaqı ilə bəlli olur. İnsanlar onu dinində sabit fərdi əxlaqında və şəriətlə bağlı ictimai əlaqələrində dürüst bir şəxs kimi tanıyır. Eləcə də adillik etimad olunan bir

[1] Biharul Ənvar (85/30)
[2] Minhəc əs-Salihin (2/12)

şəxsin birinin elmi və fəziləti barəsində xəbər verməsi olur. Fasiq bir şəxsin kiminsə adilliyi haqqında müsbət və ya mənfi xəbər verməsi heç bir əhəmiyyət kəsb etmir.

İkinci: Səhabələrin tərcümeyi hallarını təhrif etmək.

Dediklərimizdən məlum oldu ki, şəqşünaslar və müsəlmanları ayırmağa cəhd göstərən islam düşmənləri öz məqsədlərinə çatmaq üçün müxtəlif təhlükəli üslublara əl atıblar. Bunların da ən dəhşətlisi səhabələrin tərcümeyi hallarına ləkə gətirməkdir. Buna nail olmaq üçün onlar əllərindən gələni etmişlər. Onlara lənət etməyi halal edib, hər bir iyrənc əməli onlara aid edərək öz istəklərinə çata bilmişlər:

Həmin iyrənc üslublardan bəziləri də bunlardır:

1 - İstər bir, istərsə də bir neçə səhabənin adından yalançı hekayələr uydurmaq.

2 - Səhih hədislərə əlavələr etmək və ya onların bir hissəsini əskiltmək və onları yalan olaraq hədis kitablarına isnad etmək.

3 - Quranın ayələrində və peyğəmbərin ﷺ hədislərində mövcud olan hadisələri öz nəfslərinin istəklərinə, etiqadlarına və bidətlərinə müvafiq olaraq batil şəkildə təvil etmək. Uca Allah bu barədə buyurmuşdur:

﴿ هُوَ ٱلَّذِيٓ أَنزَلَ عَلَيۡكَ ٱلۡكِتَٰبَ مِنۡهُ ءَايَٰتٞ مُّحۡكَمَٰتٌ هُنَّ أُمُّ ٱلۡكِتَٰبِ وَأُخَرُ مُتَشَٰبِهَٰتٞۖ فَأَمَّا ٱلَّذِينَ فِي قُلُوبِهِمۡ زَيۡغٞ فَيَتَّبِعُونَ مَا تَشَٰبَهَ مِنۡهُ ٱبۡتِغَآءَ ٱلۡفِتۡنَةِ وَٱبۡتِغَآءَ تَأۡوِيلِهِۦۖ وَمَا يَعۡلَمُ تَأۡوِيلَهُۥٓ إِلَّا ٱللَّهُ ﴾

"Kitabı sənə nazil edən Odur. O kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz".[Ali İmran surəsi, 7].

4 - İslamın və dəvətin ilk dönəmlərində cahilliyə dövründən təsirləndiklərinə görə səhabələrin yola verdikləri xətalara önəm verib onları zahirə çıxardaraq, tərbiyyələndikdən və möhkəm iman sahibi olduqlarından sonra onların etdikləri xeyir əməllərin, fədakarlıq və böyük cihadların üzərindən xətt çəkmək.

5 - Öz dəvətləri və müsəlmanların arasında fitnələrinin yayılması üçün görkəmli şəxsiyyətlərin adına yalançı şerlər uydurmaq. Bu növ şerlərə Möminlərin əmirinin ﷺ adına uydurulmuş söz və şer beytləri misal ola bilər.[1]

[1] Biharul Ənvar: (20/72, 18, 146, 238, 264, 21/35, 251), Mustədrak əl-Vasəil: (8/119) (13/75)

Beşinci məsələ:
Peyğəmbərin ﷺ səhabələri barədə düzgün mövqe.

Şəkk yoxdur ki, peyğəmbərin ﷺ səhabələri barəsində düzgün mövqe həm ifratdan, həm də təfritdən uzaq olan orta adillik yoludur. Necə ki, Uca Allah buyurur:

﴿ وَكَذَٰلِكَ جَعَلۡنَٰكُمۡ أُمَّةٗ وَسَطٗا ﴾

"Beləliklə Biz sizi orta bir ümmət etdik". [əl-Bəqərə surəsi, 143].

Gərək biz İzzət və Cəlal sahibi olan Allahın öz kitabında və peyğəmbərin ﷺ sünnəsində qeyd olunduğu şəkildə səhabələrə, ələxsus da islamı ilk əvvəl qəbul etmiş mühacir və ənsarlara hörmətlə yanaşaq, onların fəzilət və məqamlarını bilək və ən əsası onların aralarında vaxtilə baş vermiş ixtilaflar barəsində susaq.

Biz bilməliyik ki, müsəlmanların xəlifəsi Osman ibn Əffanın ﷺ qətlindən sonra olmuş ixtilaflar ictihad və təvilin nəticəsində baş vermişdir. Onlardan hər biri öznü haqq üzərində hesab edirdi. İmam Əli ﷺ də öz döyüşçülərinə belə deyirdi: "Nə Biz onları kafir sayaraq onlara qarşı vuruşmuruq, nə də onlar bizi kafir saydıqlarına görə, döyüşmürük. Sadəcə olaraq biz özümüzü, onlar isə özlərini daha haqlı sayırdılar".[1]

Gərək biz imamlarını yolunu tutub gedərək peyğəmbərin ﷺ səhabələrinin heç birin söyüb lənətləməyək ki Uca Allahın buyurduğu kəslərdən olaq:

﴿وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ ﴾

"Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" [əl-Həşr surəsi, 10-cu ayə]

Şeyx Muhəmməd Baqir ən-Nasiri:

"Səhabələrdən sonra gələnlər", yəni mühacir və ənsarlardan sonra Qiyamət gününədək gələnlər. "deyirlər: Ey Rəbbimiz! Bizi bağışla", Onlar bağışlanma diləyərək, özləri və əvvəlki iman qardaşları üçün dua edirlər. "Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə". Burada kin-küdurət və möminlər qarşı ədavət nəzərdə tutulur. Mömin

[1] Qurbul isnəd (45-ci səhifə), Biharul Ənvar (32/324)

bir kəsə imanına görə kin bəsləyib, ona xətər yetirmək istəyən şəxsi kafir olması ixtilafsız bir məsələdir. Əgər mömin olmazsa fasiq sayılır.[1]

Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi demişdir:

"Səhabələrdən sonra gələnlər" yəni mühacir və ənsarlardan sonra gəlib Qiyamət gününədək onlara tabe olanlar. "deyirlər: Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla". Onlar özləri və özlərindən əvvəlki qardaşlarının bağışlanmasını və günahlarının əfv olunmasını diləyirlər. "Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə". Yəni, könlümüzdə onlara qarşı kin-küdurət, nifrət salma ki, onlar haqqında yalnız xeyir düşünək. "Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən", Yəni Rəbbin sən bizim günahlarımızı bağışlayanvə onlara ruzi və məğfirət bəxş edənsən.[2]

İnsanların abidi və zahidi olan İman Zeynul Abididinin ﵀ həyatına nəzər salın. O, özündən sonra elə bir mübarək yol qoymuşdur ki, onu sevənlər və onun yanına İraq əhlindən bir neçə nəfər gəlmişdi. Onlar Əbu Bəkr, Ömər və Osman ﵃ barəsində danışmağa başladılar. Söhbətlərini yekunlaşdıran kimi, imam onlara belə dedi: "Mənə xəbər verərsinizmi görək Allahın bu ayədə xatırlatdığı şəxslər sizsinizmi?

﴿لِلْفُقَرَاءِ الْمُهَاجِرِينَ الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ ۚ أُولَٰئِكَ هُمُ الصَّادِقُونَ﴾

"Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onu Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır". [əl-Həşr surəsi, 8-ci ayə]

Onlar: Xeyr-deyə cavab verdilər.

Bəs bu ayədə xatırlanan şəxslər necə, sizə aiddirmi?

﴿وَالَّذِينَ تَبَوَّءُو الدَّارَ وَالْإِيمَانَ مِن قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِّمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَىٰ أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ﴾

"Mühacirlərdən Mədinədə əvvəl orada yurd salmış və iman gətirmiş kimsələr öz yalanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar". [əl-Həşr surəsi, 9-cu ayə]

[1] "Məcmə əl-bəyan" təfsirinin müxtəsəri, əl-Kəşif, əl-Munir (Həşr surəsi,10-cu ayə)
[2] "Təfsir əl-Cədid", (əl-Həşr surəsi, 10-cu ayə)

Onlar yenə də: “Xeyr” -deyə cavab verdilər.

İmam buyurdu: Madam ki siz bu iki toplumdan olduğunuzu inkar edirsiniz, mən də sizin bu ayədə qeyd olunan toplumdan da olmadığınıza şahidlik edirəm:

﴿وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ﴾

“Səhabələrdən sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!” [əl-Həşr surəsi, 10-cu ayə].

İmam dedi: “Çıxın mənim yanımdan, Allah sizi götürsün!”[1]

Nöqsansız Rəbbimizin bu ayəsini də əsla unutmamalıyıq:

﴿تِلۡكَ أُمَّةٞ قَدۡ خَلَتۡۖ لَهَا مَا كَسَبَتۡ وَلَكُم مَّا كَسَبۡتُمۡۖ وَلَا تُسۡـَٔلُونَ عَمَّا كَانُواْ يَعۡمَلُونَ﴾

“Onlar bir ümmət idi ki, gəlib getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğusuala tutulmayacaqsınız”. [əl-Bəqərə surəsi, 134-cü ayə]

Muhəmməd Cavad Muğniyə demişdir:

Bu ayə ümumi bir qaydaya işarə edir ki, əməllərin nəticəsi istər xeyirli əməl olsun, istərsə də şər əməl öz sahibinə qayıdır və başqaları bundan xeyir və ya ziyan çəkmiş olmur. İslam bu qaydaya müxtəlif üslublarla işarə etmişdir. əl-Ənam surəsinin, 164-cü ayəsində belə buyurulur:

﴿وَلَا تَزِرُ وَازِرَةٞ وِزۡرَ أُخۡرَىٰ﴾

“Heç bir günahkar başqasının günahını daşımaz”.

ən-Nəcm surəsinin 39-cu ayəsində isə belə deyilir:

﴿وَأَن لَّيۡسَ لِلۡإِنسَٰنِ إِلَّا مَا سَعَىٰ﴾

“İnsan yalnız can atdığı şeyə nail olar”

Buna daha bir misal sevimli peyğəmbərimizin ﷺ öz birciyəzi Fatiməyə رضي الله عنها dediyi qövldür: “Ey Fatimə, yaxşı əməllər et, arxayınlaşıb demə ki; Mən Muhəmmədin qızıyam. Çünki mənim Allah qarşısında sizə xeyirim olmayacaq”.

Bütün bu kimi dəlil-sübutlar təkcə bir şeyə dəlalət edir ki, bir bu günümüzə qədər açıq və aydın olan bir şeydən qafil olmuşuq.[1]

[1] Kəşful ğummə: (2/78)

Əgər peyğəmbərin ﷺ əhli beytinin səhabələrə qarşı olan sevgilərinin və onlar arasındakı sıx rabitənin şahidi olmaq istəyirsinizsə, o zaman qarşıdakı fəsli oxuyun.

Altıncı məsələ:
Səhabələrlə Əhli beyt ﷺ arasındakı qohumluq və adqoyma əlaqələri.

Səhabələrlə əhli beyt arasında olan sevgi və ehtiram nəticəsi olan adqoymalar və qohumluq əlaqələrini sübuta yetirən tarixi faktları bəzi cahillər gizlədə bilməyiblər.

Bu böyük şəxsiyyətlər öz övladlarına ad qoyduqda və ya qızlarını ərə verdikdə bunları dünya üçün, fani həyatın nemətlərini əldə etmək üçün deyil, övladlarına məhz nümunəvi şəxslərin adlarını vermiş, qızlarını isə bəşəriyyətin ən xeyirlisinin ﷺ yoluna tabe olub, bunu öz tərəfdarlarına yayan, saf qəlbli, dinləri salamat olan mübarək sifətlərə malik şəxslərə verirdilər.

İbrahim ibn Muhəmməd əl-Həmdəni demişdir: "Mən Əbu Cəfərə qız ərə vermək barəsində məsləhət verməsini istəyərək ona bir məktub yazdım. O məktuba cavab olaraq öz xətti ilə bir namə göndərdi. Orada bunlar yazılmışdı: Allahın Rəsulu ﷺ demişdir: "Əgər sizin yanınıza dinindən və əxlaqından razı qaldığınız bir şəxs evlənmək üçün gəlsə, onu evləndirin. Əgər siz bunu etməsəniz, yer üzündə fitnə və böyük bir fəsad baş verər". [əl-Ənfal surəsi, 73-cü ayə][2]

İmam Ridanın ﷺ fiqhində isə belə deyilir: "Əgər yanınıza evlənmək üçün dinin və əxlaqını bəyəndiyiniz bir kişi gəlsə onu evləndirin. Onun kasıb ehtiyaclı olmasına fikir verməyin. Uca Allah buyurmuşdur:

﴿ وَإِن يَتَفَرَّقَا يُغْنِ ٱللَّهُ كُلًّا مِّن سَعَتِهِۦ ﴾

"Əgər ayrılsalar, Allah hər birini öz lütfündən zəngin edər". [ən-Nisa surəsi,130-cu ayə][3]

Əbu Abdullah ﷺ demişdir: "Həqiqətən də İzzət və Cəlal sahibi olan Allah lazım olan hər bir şeyi Öz peyğəmbərinə ﷺ öyrətmişdir. Həmin şeylərdən biri də budur: Bir gün peyğəmbər ﷺ minbərə qalxıb Allaha həmd-səna edib, tərifl ər etdikdən sonra buyurdu: Ey insanlar: Cəbrayıl ﷺ Lütfkar və Bilən Allahdan mənə vəhy gətirmişdi. O belə dedi:

---

[1] Təfsir əl-Kəşif (əl-Bəqərə surəsi, 134-cü ayə)
[2] əl-Kəfi (5/347), Təhzib əl-Əhkəm (7/396), Vasəil əş Şiə (20/77)
[3] Fiqh ər-Rida: (235-ci səhifə), Mustədrak əl-Vasəil (14/144), Bihar əl-Ənvar (100/372)

“Bakirə qızlar ağac üzərindəki meyvə kimidir. Əgər meyvələri dərməsən günəş onu xarab edəcək, külək də onu aparacaq. Bakirə qızlar da belədir. Həddi büluğa çatan kimi onların yeganə dərmanı ərə getməkdir. Əgər belə olmasa onların fəsad törədə biləcəkləri istisna olunmur. Çünki onlar da bəşər övladıdır”. Bunu eşitcək bir kişi qalxıb soruşdu: Ey Allahın Rəsulu! Qızlarımızı kimlərə ərə verək? O dedi: Etibarlı və yetərli şəxslərə. Kişi soruşdu: Ya Rəsulullah! Yetərli və etibarlı şəxslər kimlərdir? O dedi: Möminlər bir-biriləri üçün yetərli və etibarlıdırlar”.[1]

Sadiq ﷺ demişdir: “Etibarlı və yetərli olmaq iffətli və ailəni saxlaya biləcək qədər imkanlı olmaq deməkdir”.[2]

Əhli beyt ﷺ insanları öz qızlarını nasibilərə, böyük günah sahiblərinə, xüsusən də kafir, münafiq və mürtədlərə ərə verməkdən çəkindirirdilər.

Əbu Abdullah ﷺ demişdir: “Mömin olan kəs nasibiliyi bəlli olanla evlənməz”.[3]

Bir dəfə Fudeyl Əbu Abdullahdan ﷺ soruşur: “Heç qızını nasibiyə ərə verərsənmi? O: Xeyr, heç vaxt –deyə cavab verdi: Fudeyl dedi: Sənə fəda olum, Vallahi ki, bunu mən sənə deyirəm, əgər mənə içərisi dirhəmlə dolu olan bir ev versələr belə mən öz qızımı onlara vermərəm”.[4]

Əbu Abdullah ﷺ həmçinin demişdir: “Yəhudi və ya nəsrani ilə evlənmək nasibi kişi və ya qadın ilə ailə həyatı qurmaqdan daha yaxşıdır”.[5]

Əhməd ibn Muhəmməd Əbu Abdullahın ﷺ belə dediyini rəvayət etmişdir: “Kim öz qızını şərab içənə ərə verərsə, qohumluq əlaqələrini kəsmiş sayılır”.[6]

Rəsulullah ﷺ demişdir: “Kim öz qızını fasiq bir kimsəyə ərə verərsə hər gün onun üzərinə min lənət nazil olar, onun əməlləri səmaya qaldırılmaz, onun heç bir duası və heç bir əməli qəbul olmaz”.[7]

Əbu Abdullah ﷺ demişdir: “Şərab içən şəxs nişanlanmaq istədikdə, ona qız verilməz”.[8]

Peyğəmbər ﷺ demişdir: “Öz qızını şərab içənə verən şəxs, sanki onu zinakarlığa sövq etmiş olur”.[1]

---

[1] əl-Kəfi (5/337), Təhzib əl-Əhkəm (7/397), Vasəil əş-Şiə (20/61)
[2] Mən lə yəhduruhu əl-Fəqih (3/394)
[3] əl-Kəfi (5/348), əl-İstibsar (3/183), Vasəil əş-Şiə (20/549)
[4] əl-Kəfi (5/348)
[5] əl-Kəfi (5/351)
[6] əl-Kəfi (5/347), Təhzib əl-Əhkəm (7/398), Vasəil əş-Şiə (20/79), Avali əlləali (3/341)
[7] İrşəd əl-Qulub (1/174), Mustədrak əl-Vasəil (5/279)
[8] əl-Kəfi (5/348), Təhzib əl-Əhkəm (7/398), Vasəil əş-Şiə (20/79), Avali əll-ləali (3/341)

Hüseyn ibn Bəşşər əl-Vasiti demişdir: Mən Əbul Həsən ər-Ridaya ﷺ məktub yazdım ki, mənim bir qohumum var qızıma nişan gəlib. Onun əxlaqı çox da yaxşı deyil! O mənə belə dedi: "Əgər əxlaqı yaxşı deyilsə, onu evləndirmə"[2]

Bütün bunlardan sonra pak əhli beytin öz qızlarını dinlərində və əxlaqlarında müşkilat olan şeylərə ərə vermələri ağlasığmaz və qeyri mümkündür.

Onların bu mühüm məsələyə riaət etmələrinə, bunun üçün nəsihət və yardım etmələrinə dəlillərdən biri Əbu Bəkr, Ömər və Osmanın, Fatimənin Əliyə ərə getməsinə səy göstərmələridir.

Dahhək ibn Muzəhim rəvayət edir ki, mən Əli ibn Əbu Talibin ﷺ belə dediyini eşitmişəm: "Əbu Bəkr və Ömər ﷺ mənim yanıma gəlib dedilər: Rəsulullahın ﷺ yanına gedib Fatimənin adını onun yanında çəksən çox yaxşı olar".[3]

Bu iki görkəmli səhabənin imam Əliyə ﷺ etdiyi bu nəsihət Əli ibn Əbu Talibin Rəsulullahın kürəkəni olması üçün səhabələrin nə cür rəğbət bəslədiklərini göstərir.

Əli ﷺ imkansız və kasıb olduğuna görə onun səhabə qardaşları, o evləndikdə xəsislik edib kənara çəkilməmişdilər.

İmam Əli ilə Fətimə əz-Zəhranın izdivacına yardım edənlərdən biri də Osman ibn Əffan ﷺ olmuşdur.

İmam Əli ﷺ rəvayət edərək demişdir: Rəsullullah ﷺ mənə dedi:

"Ey Əbul Həsən, get zirehini sat, pulunu da mənə gətir ki, səninlə qızım Fatimə üçün ləvazimatlar hazırlayım". Əli dedi: mən də zirehimi götürüb bazara gedərək, onu Osman ibn Əffana dörd yüz qara dirhəmə satdım. Mən ondan pulu, o isə zirehi aldıqdan sonra dedi: Ey Əli! Məgər mənim daha çox zirehə, sənin isə pula ehtiyacın yoxdurmu?! Mən: Bəli –deyə cavab verdim. O dedi: Mən bu zirehi sənə hədiyyə edirəm! Mən zirehi və pulları onun qarşısına qoyaraq Osmanla olan sərgüzəştimi ona danışdım. Peyğəmbər ﷺ ona xeyir-dua etdi".[4]

Hər şey bununla bitmir. Peyğəmbər ﷺ Fatimənin toyu üçün Əbu Bəkrin ﷺ hesabına lazım olan avadanlıqların alınmasını səhabələrə əmr etmişdi.[5]

---

[1] Mustədrak əl-Vasəil (14/191), Əvali əlləali (1/272)
[2] əl-Kəfi (5/563) mən lə yəhdurul Fəqih (3/409), Vasəil əş-Şiə (20/81), Biharul Ənvar (100/234)
[3] Əməli ət-Tusi (39-cu ayə), Biharul Ənvar (43/93).
[4] Kəşful ğummə (1/358), Biharul Ənvar (43/130)
[5] Əməli ət-Tusi (40-cı səhifə), Biharul Ənvar (43/94)

Ümumilikdə bütün səhabələr, xüsusən də üç xəlifə imam Əlinin ﷺ Rəsulullahın ﷺ qızı Fatimə ilə evlənməsində xüsusi qayğı və yardım göstərmişlər.

Ənəs ﷺ rəvayət edir ki, peyğəmbər ﷺ mənə dedi: "Get Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Talhəni, Zübeyri və bir o qədər də ənsarı mənim yanıma çağır". Mən də gedib onları çağırdım. Onlar gəlib əyləşdikdə peyğəmbər ﷺ dedi: "Mən sizi çağırmışam ki, Fatimənin Əliyə dörd yüz misqal dirhəmə ərə verməyimə şahidlik edəsiniz".[1]

Hörmətli oxucu Əhli beytin ﷺ öz övladlarını yalnız təqvalı və əməli saleh şəxslərə verməyə həris olmaları sənin üçün məxfi deyil. Onlar heç vaxt öz övladlarını fasiq, münafiq, nasibi və mürtədlərə ərə verməzdilər. Əgər kimsə gəlib, onların öz qızlarını fasiq, münafiq mürtəd olan kəslərə ərə verələrini iddia etsə onlara iftira yaxmış və onların söz və əməllərinin əksini demiş olur. Bu əməl isə Allahın İsrail oğullarına və qeyrilərinə qarşı qəzəblənməsinə səbəb olmuşdur. Uca və böyük Allah buyurmuşdur:

﴿ أَتَأۡمُرُونَ ٱلنَّاسَ بِٱلۡبِرِّ وَتَنسَوۡنَ أَنفُسَكُمۡ وَأَنتُمۡ تَتۡلُونَ ٱلۡكِتَٰبَۚ أَفَلَا تَعۡقِلُونَ ﴾

"Siz kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz? Məgər anlamırsınız?" [əl-Bəqərə, 44-cü ayə]

Əhli beyt sevən şəxs onlar haqqında əsla belə düşünməz və etiqad edir ki, onlar öz qızlarını yalnız adil və əməlisaleh şəxslərə ərə verə bilərlər.

Hörmətli oxucu indi Əhli beytin bəzi övladlarının adları və onların qohumları ilə tanış olaq ki, onlarla səhabələrin arasındakı sevgi və sıx bağlılığın şahidi olaq. Çünki əhli beyt peyğəmbərin ﷺ səhabələrini əməlisaleh olaraq tanıdıqları üçün öz qızlarını onlara ərə vermiş, onların qızları ilə nigah bağlamış və övladlarına onların adlarını vermişlər.

1 - Peyğəmbər ﷺ

Onun xanımlarından:

--Aişə bint Əbu Bəkr əs-Siddiq

--Həfsa bint Ömər ibn əl-Xəttab.

--Ramlə bint Əbi Sufyan.

Onun kürəkənlərindən:

--Əli ibn Əbu Talib (qızı Fatimə ilə evlənib)

--Osman ibn Əffan (qızları Ruqiyyə və Ummu Gülsümlə evlənib)

--Əbul As ibn ər-Rabi (qızı Zeynəblə evlənib)

[1] Kəşful ğummə (1/348), Biharul Ənvar (43/119)

2 - Əli ibn Əbu Talib

Fatimənin vəfatından sonra onun zövcələrindən:

--Əsma bint Umeys (Əbu Bəkr əs-Siddiqin keçmiş xanımı)

--Uməmə bint Əbil As ibn Rabi (anası peyğəmbərin ﷺ qızı Zeynəbdir)

Əlinin övladlarının arasında Əbu Bəkr, Ömər və Osman da var

Onun kürəkənlərindən:

--Ömər ibn əl-Xattab (O, Əlinin qızı Ummu Kulsumla evlənib)

--Abdurrahmən ibn Amir ibn Kureyz əl-Uməvi (O, Əlinin qızı Xədicə ilə evlənib)

--Müaviyə ibn Marvan ibn əl-Həkəm. (O Əlinin qızı Ramlə ilə evlənib)

--əl-Munzir ibn Ubeydə ibn əz-zubeyr ibn əl-Əvvam (O, Əlinin qızı Fatimə ilə evlənib)

3 - Əqil ibn Əbu Talib. Onun övladlarından birinin adı Osman idi.

4 - Həsən ibn Əli ibn Əbu Talib.

Onun xanımlarından:

--Ummu İshaq bint Talhə ibn Ubeydullah ət-Teymi.

--Həfsa bint AbdurRahmən ibn Əbu Bəkr.

Onun övladlarından:

--Əbu Bəkr, Ömər, Talhə.

Onun kürəkənlərindən:

--Abdullah ibn Zubeyr ibn əl-Əvvam (Onun qızı Ummu Həsənlə evlənib)

--Amr ibn Zubeyr ibn əl-Əvvam (Onun qızı Ruqiyyə ilə evlənib)

--Cəfər ibn Musab ibn Zubeyr (Onun qızı Muleykə ilə evlənib)

5 - Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

--Leyla bint Əbu Muvra (Onun anası Əbu Sufyanın qızı Məymunə olmuşdur)

--Ummu İshaq bint Talhə ibn Ubeydullah ət-Teymi[1]

Onun övladlarından:

--Əbu Bəkr və Ömər olmuşdur.

Kürəkənlərindən:

--Abdullah ibn Amr ibn Osman ibn Əffan, O Hüseynin qızı Fatimə ilə evlənmişdi.

[1] Hüseynin qardaşı Həsən vəfat etdiyi zaman qardaşına Ummu İshaqla evlənməyi vəsiyyət etmişdi.

--Musab ibn ər-Zubeyr ibn əl-Əvvam o, Hüseynin qızı Səkinə ilə evlənmişdi.

6 - İshaq ibn Cəfər ibn Əbu Talib:

Onun xanımlarından:

--Ummu Həkim bint Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq.

7 - Abdullah ibn Cəfər ibn Əbu Talib:

Onun övladlarından: Əbu Bəkr və Müaviyə olmuşdur.

Kürəkənlərindən isə:

--Abdul Məlik ibn Mərvan. O, Abdullahın qızı Ummu Əlihə ilə evlənmişdi.

8 - Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib (Zenul Abidin), Kunyəsi Əbu Bəkr idi:[1]

Onun övladlarından birinin adı Ömər olmuşdur.

9 - Zeyd ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun kürəkənlərindən:

--Valid ibn Əbdul Məlik ibn Mərvan. O, Zeydin qızı Nəfisə ilə evlənmişdir.

10 - Hüseyn ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

--Əminə bint Həmzə ibn Munzir ibn Zubeyr ibn əl-Əvvam.

11 - Həsən (əl-Musənnə) ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

--Ramlə bint Səid ibn Zeyd ibn Zmr ibn Nufeyl əl-Ədəvi olmuşdur.

Kürəkənlərindən isə:

--Valid ibn Əbdül Məlik ibn Mərvan. O Həsənin qızı Zeynəblə evlənmişdir.

12 - Muhəmməd ibn Ömər ibn Əli ibn Əbu Talib:

Onun övladlarından birinin adı Ömər olmuşdur.

13 - Muhəmməd (əl-Baqir) ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Ummu Fərva bint Qasim ibn Muhəmməd ibn Əbi Bəkr əs-Siddiq.

14 - Musa (əl-Cun) ibn Abdullah əl-Məhd ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun kürəkənlərindən:

--İbn Əxil Mənsur əl-Abbasi. O, Musanın qızı Ummu Kulsumla evlənmişdir.

[1] "Firaquş Şiə" ən-Növbəxti (53-cü səhifə)

15 - Hüseyn əl-Əsğar ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

--Xalidə bint Həmzə ibn Musab ibn Zübeyr ibn əl-Əvvam.

16 - Ubeydullah ibn Muhəmməd ibn Ömər (əl-Ətraf) ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

--Əmma Əbu Cəfər əl-Mənsur olmuşdur.

17 - Cəfər ibn Muhəmməd ibn Ömər ibn Əli ibn Əbu Talib:

Onun övladlarından birinin adı Ömər olmuşdur.

18 - Hüseyn əl-Əsğar ibn Əli Zeynul Abidin ibn Hüseyn:

Onun xanımlarından:

--Xalidə bint Həmzə ibn Musab ibn Zübeyr ibn əl-Əvvam.

19 - Həsən ibn Əli ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun övladlarından birinin adı Ömər olmuşdur:

20 - Cəfər əs-Sadiq ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

İmam Cəfər əs-Sadiq ﵀ demişdir: "Mən iki tərəfdən Əbu Bəkrin övladıyam".[1] Buna görə də ona "Şərəfli dayaq" ləqəbi verilmişdi.

21 - Həsən (əl-Əffas) ibn Əli ibn Əli Zeyn əl-Abidin ibn əl-Hüseyn:

Onun xanımlarından:

--Bint Xalid ibn Əbu Bəkr ibn Abdullah ibn Ömər ibn əl-Xəttab.

22 - Muhəmməd ibn Ömər ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun övladlarından birinin adı Ömər idi.

23 - Musə ibn Ömər ibn Əli ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Ubeydə bint Zubeyr ibn Hişam ibn Urva ibn Zubeyr ibn əl-Əvvam.

24 - Cəfər əl-Əkbər ibn Ömər ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından:

Fatimə bint Urva ibn Zübeyr ibn əl-Əvvam.

25 - Abdullah ibn əl-Hüseyn ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Ummu Amr bint Amr ibn Zübeyr ibn Urva ibn Ömər ibn Zübeyr.

---

[1] Yəni ana tərəfdən: Onun anası Ummu Fərva bint əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiq, nənəsi isə Ummu Fərvanın anası, Əsma bint Əbdur Rahmən ibn Əbu Bəkr olmuşdur. "Kəşful ğummə" (2/161)

26 - Muhəmməd ibn Auf ibn Əli ibn Muhəmməd ibn Əli ibn Əbi Talib:

Onun xanımlarından: Safiyyə bint Muhəmməd ibn Musab ibn Zubeyr.

27 - Muhəmməd ibn Abdullah ibn Həsən əl-Musənnə ibn Həsən ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Faxitə bint Fuleyh ibn Muhəmməd ibn əl-Munzir ibn Zubeyr.[1]

28 - Musə əl-Cun ibn Abdullah ibn Həsən əl-Musənnə ibn Həsən ibn Əli ibn Əbu Talib.

Onun xanımlarından: Ummu Sələmə bint Muhəmməd ibn Talhə ibn Abdullah ibn Abdur Rahmən ibn Əbu Bəkr əs-Siddiq.

29 - Cəfər ibn Ömər ibn Əli ibn Hüseyn ibn Əbu Talib:

Onun xanımlarından: Fatimə bint Urva ibn Zübeyr ibn əl-Əvvam.

30 - Abdullah ibn Hüseyn ibn Əli in Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Ummu Amr bint Amr ibn Zübeyr ibn Urva ibn Zubeyr ibn əl-Əvvam.

31 - Muhəmməd ibn Auf ibn Əli ibn Muhəmməd ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Safiyyə bint Muhəmməd ibn Musab ibn Zubeyr.

32 - Hüseyn ibn Zeyd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun övladlarından biri Ömər adlanırdı.

33 - Əli ibn əl-Hüseyn ibn Əli ibn Ömər ibn Əli ibn Əbu Talib:

Onun da övladlarından biri Ömər idi.

34 - Musa əl-Kazım ibn Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli:

Onun övladlarından: Ömər və Aişə.

35 - Əli ibn Həsən ibn Əli ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun xanımlarından: Fatimə bint Osman ibn Urva ibn Zubeyr ibn əl-Əvvam.

36 - Yəhya ibn Hüseyn ibn Zeyd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib:

Onun övladlarından birinin adı Ömər idi.

37 - Əli ər-Rida ibn Musə ibn Cəfər əs-Sadiq. Onun kunyəsi Əbu Bəkr idi:[1]

---

[1] "Sirru silsilətil Ələviyyə" (33-cü səhifə), Umdətut Talib fi ənsəb Əli Əbi Talib (195-ci səhifə) ------əlyazmada bu sözlər yalnız aşağıda yazılıb mətndə qeyd olunmayıb. Əlyazma səh 68

Onun xanımlarından:

--Ummu Həbib bint Məmun əl-Abbasi.

Onun beş oğlu və Aişə adlı bir qızı var idi.[2]

38 - Cəfər ibn Musa əl-Kazım ibn Cəfər əs-Sadiq:

Qızlarından birinin adı Aişə idi.

39 - Muhəmməd əl-Cavad ibn Əli ibn Musə ibn Cəfər:

Onun xanımlarından: Ummu Fadl bint Məmun əl-Abbasi.[3]

40 - Əli əl-Hədi ibn Muhəmməd ibn Əli ibn Musa:

Onun da qızlarından birinin adı Aişə idi.

Səhabələrlə Əhli beyt arasında olan bu mübarək bağlılıq, istər evlilikdə, istər adqoymada, istərsə də kürəkənlərdə özünü büruzə verir. Nəticə etbari ilə də bunlar aydın və qabarıq şəkildə onların bir-biri ilə mehriban olmalarına, sağlam din və mənhəc sahibləri olmalarına, öz aralarında dillərinin və qəlblərinin salamat olmasına dəlalət edir və Fitnə-fəsad əhlinin yaydıqları kimi deyil. Bu baxımdan diqqətli olmaq labüddür.

Yeddinci məsələ:
Sual cavab.

Hörmətli oxucu! Müxtəlif dövrlərdə şübhə əhlindən növbənöv sual və açıqlamalarla tanış oluruq. Onlar bu dəyərsiz tənələrini etməklə kin və nifrətlərini büruzə verir və səhabələrlə müsəlmanlar və əhli beyt arasındakı əlaqələri pozmağa çalışırdılar. Onlar səhabələrə iftiralar yaxaraq, onlar barəsində göz-qaşla danışırdılar. Bu cür axmaqlar düşünmürlər ki, onun bu göz-qaşla danışıqları dağ boyda əzəmətli şəxslərə deyil, yalnız onların özlərinə zərər verir.

Buynuzunu qayaya vurub onu yumşaltmaq istəyən kimi, onun zərbələri qayanı deyil, onun öz buynuzunu zədələyər. Görəcəyiniz bu şübhələr parlaq islam tarixi boyunca peyğəmbərin ﷺ davamçılarına qarşı istifadə olunmuş şübhələr məcmusudur. Şübhələr sizə suallar şəklində təqdim olunacaq. Haqq bəyan olunsun deyə hər bir sualdan sonra cavab gəlir. Allah bizi aydın haqq yolu ilə getməyə müvəffəq etsin.

---

[1] Nuri ət-Tabrasi öz "Nəcmus Səqib Əlqab va Əsmə əl-Huccətul ğaib" kitabında (14-cü səh) demişdir: İmam Ridanın kunyələrindən biri Əbu Bəkr idi. Bunu Əbul Fərac əl-İsfəhani də "Muqatil ət-Talibin" əsərində demişdir.

[2] Kəşful ğummə (2/267)

[3] Şeyx Muhəmməd Təqi Tusturi "Tarix ən-Nəbi val Əl" əsərində demişdir: Ridanın zövcələrindən yalnız Ummu Həbib bint Məmun, Cavadın xanımlarından isə yalnız Ummu Fadl bint Məmun tanınır.

Birinci sual: “Səhabələrin mürtəd olmaları haqqında”.

Əgər Uca Allah öz ayəsində üç nəfərdən başqa[1] bütün səhabələrin peyğəmbərin ﷺ vəfatından sonra dindən çıxdıqlarını açıqlamışdırsa, səhabələrin adilliyindən necə söhbət gedə bilər? Uca Allah buyurur:

﴿ وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُ ۚ أَفَإِيْن مَّاتَ أَوْ قُتِلَ ٱنقَلَبْتُمْ عَلَىٰٓ أَعْقَٰبِكُمْ ۚ وَمَن يَنقَلِبْ عَلَىٰ عَقِبَيْهِ فَلَن يَضُرَّ ٱللَّهَ شَيْـًٔا ۗ وَسَيَجْزِى ٱللَّهُ ٱلشَّٰكِرِينَ ﴾

“Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə siz gerimi dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər yetirməz. Allah şükür edənləri mükafatlandırar”. [Ali İmran surəsi, 144-cü ayə]

Cavab:

Birinci: Təfsir kitabı oxuyan şəxs gərək kitab seçimi etdikdə diqqətli olsun. Düzgün əqidəli, alimlərin elm və fəzilətlərinə şahidlik etdikləri və Təfsir qaydalarını, o cümlədən Quran ayələrinin nazil olma səbəblərini, hökmü düşmüş ayələri, ümumi və xüsusi anlayışlarını və başqa elmi məsələləri mükəmməl bilən şəxsləri seçsin ki, elmsiz olaraq Allahın ayələrinə açıqlama verməsin.

İkinci: Tarixçilər və təfsir alimləri həmin ayənin müəyyən və məlum hadisəyə görə, Uhud döyüşünə görə nazil olduğunu deyirlər. Bu döyüş müsəlmanların apardıqları ilk döyüşlərdəndir. Belə olduğu halda hicrətin ilk illərində müəyyən hadisəyə görə nazil olan ayə, peyğəmbərin ﷺ vəfatından sonra səhabələrin dindən çıxmalarına necə dəlil ola bilər?

Şeyx Nasir Məkərim əş-Şirazi öz təfsirində demişdir: Bu iki ayənin birincisi digəri kimi Uhud döyüşü əsnasında cərəyan edən hadisələrin birinə aiddir. Bu hadisə də müsəlmanlarla bütpərəstlərin arasında: “Muhəmməd qətlə yetirildi” –xəbərinin yayılmasıdır.[2]

Muhəmməd Cavad Muğniyə öz təfsir kitabında demişdir: Bu ayə müəyyən hadisəyə Uhud döyüşünə aiddir.[3]

Üçüncü: Ayə ilk baxışdan heç də səhabələrin mürtəd olmalarına dəlalət etmir. Əksinə bu ayə Uhud döyüşü zamanı peyğəmbərin ﷺ ölüm xəbəri yayıldıqda səhabələr arasında baş verən çaşqınlıq və çaxnaşmanın töhmət olunmasına sübutdur. Allah həmin şəxslərə deyir ki: Muhəmməd bir insandır. Allah onu insanlara elçi olaraq seçib göndərmişdir. Ondan

[1] Rical əl-Kişşi (11-ci səhifə), Biharul Ənvar (28/259), (71/220), əl-İxtisas (6-cı səhifə)
[2] Təfsir əl-Əmsəl (2/169)
[3] Təfsir əl-Kəşif (2/554)

qabaq da peyğəmbərlər gəlib getmişlər. Allah onları da öz qövmlərinə göndərmiş, onlar da ölmüş və bəziləri öldürülmüşdülər və onlar öldükləri kimi peyğəmbər ﷺ də öləcək. Ölüm və ya qətlə yetirilmək heç də onun üçün qeyri mümkün hal deyil. Sonra Uca Allah bunu təkidləyərək buyurmuşdur:

﴿أَفَإِيْن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَىٰٓ أَعْقَٰبِكُمْ﴾

"Məgər o ölərsə və ya öldürülərsə siz gerimi dönəcəksiniz?"

Ayənin mənası belədir: Əgər Allah onu öldürsə və ya kafirlər onu qətlə yetirsə siz dininizdən çıxıb kafir olacaqsınız və arxanız üstə yıxılıb çevriləcəksiniz? Çünki mürtəd olmaq ən qəbahətli dinə çıxmaq olduğu kimi, arxası üstə yıxılıb çevrilmək də ən pis yıxılmaq formasıdır.

Ayədəki "Məgər o ölsə" sual əvəzliyi inkarı bildirir. Aşağıdakı ayədəki kimi:

﴿وَمَا جَعَلْنَا لِبَشَرٍ مِّن قَبْلِكَ ٱلْخُلْدَ ۖ أَفَإِيْن مِّتَّ فَهُمُ ٱلْخَٰلِدُونَ﴾

"Səndən əvvəl heç bir bəşərə ölümsüzlük nəsib etmədik. Məgər sən öləcəksən, onlar həmişəlik qalacaqlar?!" [əl-Ənbiya surəsi, 34-cü ayə]

Dördüncü: Allah təala aşağıdakı ayədə səhabələri əhv etməsini buyurduğu halda, məğlub olmuş səhabələrin dindən çıxmalarına nəyə əsasən hökm vermək olar? O buyurur:

﴿إِنَّ ٱلَّذِينَ تَوَلَّوْا۟ مِنكُمْ يَوْمَ ٱلْتَقَى ٱلْجَمْعَانِ إِنَّمَا ٱسْتَزَلَّهُمُ ٱلشَّيْطَٰنُ بِبَعْضِ مَا كَسَبُوا۟ ۖ وَلَقَدْ عَفَا ٱللَّهُ عَنْهُمْ ۗ إِنَّ ٱللَّهَ غَفُورٌ حَلِيمٌ﴾

"Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən üz döndərənləri şeytan, qazandıqları bəzi günahlar üzündən səhv etməyə vadar etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah Bağışlayandır, Həlimdir". [Ali İmran surəsi, 155-ci ayə]

Beşinci: Bu ayə bizə Əbu Bəkr əs-Siddiqin mövqeyini, şücaətini, Uca Allaha bağlılığını və Rəsulullahın ﷺ vəfatı kimi çətin onlarda bu ayəni tilavət etməsini xatırladır.

﴿وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُ ۚ أَفَإِيْن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَىٰٓ أَعْقَٰبِكُمْ ۚ وَمَن يَنقَلِبْ عَلَىٰ عَقِبَيْهِ فَلَن يَضُرَّ ٱللَّهَ شَيْـًٔا ۗ وَسَيَجْزِى ٱللَّهُ ٱلشَّٰكِرِينَ﴾

"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə və ya öldürülərsə siz gerimi dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər yetirməz. Allah şükür edənləri mükafatlandırar". [Ali İmran surəsi, 144-cü ayə]

Peyğəmbərimiz ﷺ dünyasını dəyişdikdə qəlbləri həddindən artıq ona bağlı olan bir qrup insan peyğəmbərin ﷺ ölüm xəbərini inkar etmişdilər. Bəziləri isə heyrətdən susmağa məcbur olmuşdular. İnkar edənlərdən biri də Ömər ibn əl-Xəttab idi. Bir çox ərəb qəbilələri peyğəbərin ﷺ vəfatına görə dindən çıxmış, bəziləri isə zəkat verməkdən imtina etmişdilər.

Altıncı:

Məlum məsələdir ki, peyğəmbərin ﷺ vəfatından sonra dindən çıxan şəxslər artıq səhabə sayılmırlar. Çünki qeyd etdiyimiz kimi şəriətə görə səhabə peyğəmbərlə ﷺ mömin olaraq görüşüb, İslam üzərində ölən şəxsə deyilir. İslam dinindən çıxan isə yenidən İslama qayıtmayanadək onlardan sayılmır.

İkinci sual: "Hovuz hədisi"

Hovuz hədisində Allahın özlərinin mürtəd olaraq dinlərini dəyişdiklərinə hökm verdikdən sonra biz nə cür səhabələrin sadiq və adil olmalarından söhbət aça bilərik? Peyğəmbər ﷺ həmin hədisdə: "Mənim səhabələrim, mənim səhabələrim" –deyə səslədikdə ona öz Rəbbi tərəfindən qəti bir cavab gəlir ki, "Sən onlardan ayrıldıqdan sonra onlar dinlərindən çıxmışdılar".

CAVAB:

Bu dəlili aşağıdakı kimi açıqlamaqla dürüst anlamaq olar:

Birinci: Ayədəki "səhabə" anlamı peyğəmbərin ﷺ dönəmində zahirdə özünü müsəlman kimi göstərən münafiqlərə şamil olunur. Necə ki Uca və Böyük Allah buyurmuşdur:

﴿إِذَا جَآءَكَ ٱلْمُنَٰفِقُونَ قَالُوا۟ نَشْهَدُ إِنَّكَ لَرَسُولُ ٱللَّهِ ۘ وَٱللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُۥ ۗ وَٱللَّهُ يَشْهَدُ إِنَّ ٱلْمُنَٰفِقِينَ لَكَٰذِبُونَ﴾

"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!" –deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar". [əl-Munəfiqun surəsi, 1].

Münafiqlərin əksər hissəsinin batinlərini peyğəmbər ﷺ bilirdi. Bir qismi isə onun üçün naməlum idi. Məhz bu qism münafiqlər barəsində batinlərini bilmədiyindən peyğəmbər ﷺ: "Səhabələrim, səhabələrim" – demişdi. Uca Allah buyurmuşdur:

﴿وَمِمَّنْ حَوْلَكُم مِّنَ ٱلْأَعْرَابِ مُنَٰفِقُونَ ۖ وَمِنْ أَهْلِ ٱلْمَدِينَةِ ۖ مَرَدُوا۟ عَلَى ٱلنِّفَاقِ لَا تَعْلَمُهُمْ ۖ نَحْنُ نَعْلَمُهُمْ ۚ سَنُعَذِّبُهُم مَّرَّتَيْنِ ثُمَّ يُرَدُّونَ إِلَىٰ عَذَابٍ عَظِيمٍ﴾

“Çevrənizdəki bədəvilərdən və Mədinə əhalisi arasında münafiqlər var. Onlar ikiüzlülükdə inadkarlıq göstərir, sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq. Biz onlara iki dəfə işkəncə verəcəyik. Sonra isə böyük bir əzaba qaytarılacaqlar”. [ət-Tövbə surəsi, 101-ci ayə]

Beləliklə Rəsulullahın ﷺ hovuz ətrafında “səhabələrim” –deyə çağırdığı şəxslər səhabə hesab edərək Mədinə əhlindən münafiq olanlar idi. Onlar isə səhabə deyildilər. Çünki peyğəmbər ﷺ qeybi və insanların batini hallarını bilmirdi. Şərti hökm yalnız zahirə verilən hökmə aiddir.

İkinci: Ola bilsin ki, səhabə deyildikdə peyğəmbərin ﷺ vəfatından sonra bir çox ərəblər kimi dindən çıxmış və son illərdə islamı qəbul etmiş şəxslər nəzərdə tutulur.

əl-Məclisi “Biharul Ənvar” əsərində Seyid ibn Tavusdan rəvayət edir ki, Abbas ibn Abdur Rahim əl-Mərvazi öz tarixində demişdir: “Peyğəmbər ﷺ dünyasını dəyişdikdən sonra İslam yalnız Mədinə, Məkkə və Taif əhlində qalmışdı”.

Bənu Təmim və ər-Rabəb qəbilələri dindən çıxaraq Məlik ibn Nuveyra əl-Yurbuiyə cəm olundular. Rabiə qəbilərsinin hamısı mürtəd oldu. Onların Yəməndə Museyləmə əl-Kəzzəb ilə birgə vuruşan üç ordusu var idi. Bir ordu da Mərur əş-Şeybani ilə birgə idi. Yəmən əhalisi və Kində qəbiləsində Əşəs ibn Qeys dindən çıxanlar arasında idi. Mərib qəbiləsi Əsvad əl-Ansi ilə birgə, Bənu Amir qəbiləsində isə Əlqamə ibn Əlasədən başqa hamı mürtəd olmuşdu.[1]

Üçüncü: Ola bilsin ki, səhabə deyildikdə peyğəmbərin ﷺ yolunun davamçıları nəzərdə tutulsun. Bu halda peyğəmbərin ﷺ onları görməsi şərt deyil. Bu hədisin digər rəvayətlərindəki: “Ümmətim, ümmətim” və “onlar mənim ümmətimdir” ləfzləri buna dəlildir.

Peyğəmbərin ﷺ: “Mən onları tanıyıram” –söyləməsinə gəldikdə isə məlumdur ki o, öz ümmətini onların dəstəmaz üzvlərinin parıltısından tanıyacaq.

Bu İzzət və cəlal sahibi Allahın peyğəmbərinin ﷺ dili ilə buyurduğu kimidir:

﴿ وَقَالَ ٱلرَّسُولُ يَٰرَبِّ إِنَّ قَوۡمِي ٱتَّخَذُواْ هَٰذَا ٱلۡقُرۡءَانَ مَهۡجُورٗا ﴾

“Peyğəmbər: “Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!” –deyəcək” [əl-Furqan surəsi, 30-cu ayə] Burada peyğəmbər ﷺ qövmüm dedikdə öz zamanında olanları və səhabələrini qəsd etmirdi. O, ümmətindən olanların Quranı tərk etməklə edəcəkləri yenilikləri qəsd edirdi. Məhz

[1] Biharul Ənvar (11/28)

onlar barəsində peyğəmbər ﷺ “səhabələrim, səhabələrim” –deyəcək. Ona isə belə deyiləcək: Sən onların səndən sonra nələr etdiklərindən bixəbərsən. Sən onlardan ayrıldıqdan sonra onlar mürtəd olmuşdular.

Üçüncü sual: “Allahın bir qrup səhabəni pisləməsi” haqqında.

Allah öz kitabında bir neçə yerdə səhabələri pislədiyi halda səhabələrin adilliyindən necə söhbət gedə bilər? Nöqsansız Allah Cihaddan yayınanlar barəsində buyurmuşdur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ مَا لَكُمۡ إِذَا قِيلَ لَكُمُ ٱنفِرُواْ فِي سَبِيلِ ٱللَّهِ ٱثَّاقَلۡتُمۡ إِلَى ٱلۡأَرۡضِۚ أَرَضِيتُم بِٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا مِنَ ٱلۡأٓخِرَةِۚ فَمَا مَتَٰعُ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا فِي ٱلۡأٓخِرَةِ إِلَّا قَلِيلٌ ﴾

“Ey iman gətirənlər! Sizə nə olub ki, “Allah yolunda döyüşə çıxın!” –deyildikdə yerinizdə qaxılıb qalırsınız? Olmaya, axirətdən daha çox dünya həyatından razısınız? Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir” [ət-Tövbə surəsi, 38-ci ayə]

Allah onları hədələyərək buyurmuşdur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ مَن يَرۡتَدَّ مِنكُمۡ عَن دِينِهِۦ فَسَوۡفَ يَأۡتِي ٱللَّهُ بِقَوۡمٖ يُحِبُّهُمۡ وَيُحِبُّونَهُۥٓ أَذِلَّةٍ عَلَى ٱلۡمُؤۡمِنِينَ أَعِزَّةٍ عَلَى ٱلۡكَٰفِرِينَ يُجَٰهِدُونَ فِي سَبِيلِ ٱللَّهِ وَلَا يَخَافُونَ لَوۡمَةَ لَآئِمٖۚ ذَٰلِكَ فَضۡلُ ٱللَّهِ يُؤۡتِيهِ مَن يَشَآءُۚ وَٱللَّهُ وَٰسِعٌ عَلِيمٌ ﴾

“Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda Cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu Allahın lütfüdür, onu istədiyinə verər. Allah hər şeyi Əhatəedəndir, Biləndir”. [əl-Maidə surəsi, 54].

Həmçinin Uca Allah onların qəlblərinin zikrlə müti olmamasını pisləyərək buyurmuşdur:

﴿ ۞ أَلَمۡ يَأۡنِ لِلَّذِينَ ءَامَنُوٓاْ أَن تَخۡشَعَ قُلُوبُهُمۡ لِذِكۡرِ ٱللَّهِ وَمَا نَزَلَ مِنَ ٱلۡحَقِّ وَلَا يَكُونُواْ كَٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ مِن قَبۡلُ فَطَالَ عَلَيۡهِمُ ٱلۡأَمَدُ فَقَسَتۡ قُلُوبُهُمۡۖ وَكَثِيرٞ مِّنۡهُمۡ فَٰسِقُونَ ﴾

“Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan ayələr üçün yumşalması, daha öncə özlərinə Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı?” [əl-Hədid surəsi, 16-cı ayə]

Eləcə də Ticarət karvanını görcək peyğəmbəri ﷺ tərk edib gedənləri pisləyərək buyurmuşdur:

﴿ وَإِذَا رَأَوۡاْ تِجَٰرَةً أَوۡ لَهۡوًا ٱنفَضُّوٓاْ إِلَيۡهَا وَتَرَكُوكَ قَآئِمٗاۚ قُلۡ مَا عِندَ ٱللَّهِ خَيۡرٞ مِّنَ ٱللَّهۡوِ وَمِنَ ٱلتِّجَٰرَةِۚ وَٱللَّهُ خَيۡرُ ٱلرَّٰزِقِينَ ﴾

“Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər. De: “Allah yanında qazanacağınız savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ən yaxşı ruzi verəndir”. [Cümə surəsi, 11-ci ayə]

CAVAB:

Birinci: Gərək müsəlman təəssübkeşliyi tərk edərək haqqı axtarıb hidayəti soraqlasın. Biz namazımızda daima oxuyuruq:

﴿ ٱهۡدِنَا ٱلصِّرَٰطَ ٱلۡمُسۡتَقِيمَ ﴾

“Bizi doğru yola yönəlt” [əl-Fatihə surəsi, 6-cı ayə]. Bununla belə gərək o, alimdən və ya təqlid etdiyi şeyxdən olsa belə batildən uzaqlaşsın. Uca Allah aşağıdakı sözləri deyən təəssübkeş bir camaatı tənqid etmişdir. Onlar belə deyirdilər.

﴿إِنَّا وَجَدۡنَآ ءَابَآءَنَا عَلَىٰٓ أُمَّةٖ وَإِنَّا عَلَىٰٓ ءَاثَٰرِهِم مُّقۡتَدُونَ ﴾

“Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik”. [əz-Zuxruf surəsi, 23-cü ayə]

İkinci:

Biz bilməliyik ki, peyğəmbərin ﷺ səhabələri xəta etməkdən məsum deyillər. İslam, onları olduqları cəmiyyətlərdə geniş vüsət tapmış cahillik dövründən qalma rəzilliklərdən qorumuşdu.

Peyğəmbər ﷺ onlara Allahın tövhidinə və yaxşı işlər görməyə, etdikləri pis əməllərdən çəkinməyi dəvət etdikdə onlar onun dəvətinə cavab verərək iman gətirmişdilər. Allah da onları xeyirə və yaxşı işlərə müvəffəq etmiş, onları haram işlər görməkdən çəkindirmiş və öz kitabında onlara: “Ey iman gətirənlər” –deyə xitab etmişdi.

Səhabələr də bəzilərinin cahiliyyətdən təsirlənib yeni dinə nabələd olduqlarına görə etdikləri xətalardan bunu öyrənmişdilər. Şəkk yoxdur ki, bu həm Abbas, Həmzə və Cəfər ət-Təyyar kimi əhli beytdən olan və onlardan olmayan səhabələrə aiddir.

Bütün bu sadalanan əmrlər və qadağalar təkcə peyğəmbərin ﷺ səhabələrinə aid deyil, sevimli peyğəmbərimizin ﷺ bütün ardıcıllarına şamil olunur. Belə ki, səbəbin xüsusiliyi deyil ləfzin ümumiliyi şərtdir.

Üçüncü: Uca və Ulu Allah iman əhli ilə küfr əhlinə fərqli olaraq xitab edərək iman əhlinə “Ey iman gətirənlər”, kafirlərə və ümumi insanlara müraciət etdikdə isə “Ey insanlar2 deyə buyurur.

Dördüncü:

Fərz edək ki, biz Quranı anlamasaq da, onun təfsirini başa düşürük. Əgər təəssübkeş şərqşünaslardan biri bizlərə desələr ki, İslam peyğəmbəri

Muhəmməd ibn Abdullah Quranda göstərildiyi kimi kafir və münafiqlərə itaət etmişdir: Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ لِمَ تُحَرِّمُ مَآ أَحَلَّ ٱللَّهُ لَكَۖ تَبۡتَغِي مَرۡضَاتَ أَزۡوَٰجِكَۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ﴾

“Ey peyğəmbər! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah, Bağışlayandır, Rəhmlidir”. [ət-Təhrim surəsi, 1-ci ayə]. Belə olduğu halda biz onlarla nə cür cavab verməliyik? Və ya desələr ki, sizin peyğəmbəriniz münafiqlərin cənazə namazını qılıb onlara rəhmət diləmək istəyirdi. Buna dəlil aşağıdakı ayədir:

﴿ وَلَا تُصَلِّ عَلَىٰٓ أَحَدٖ مِّنۡهُم مَّاتَ أَبَدٗا وَلَا تَقُمۡ عَلَىٰ قَبۡرِهِۦٓۖ إِنَّهُمۡ كَفَرُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَمَاتُواْ وَهُمۡ فَٰسِقُونَ ﴾

“Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allah və Onun elçisini inkar etdilər və günahkar olaraq öldülər”. [ət-Tövbə surəsi, 84-cü ayə]

Ey peyğəmbərə sevgi bəsləyən, gərək sən onları belə cavablandırasan: Peyğəmbər ﷺ öz Rəbbinə əsla asi olmaz. Sadəcə olaraq bu ayələrdə Uca Allah peyğəmbərlərinə öz dinini öyrədir ki, onu insanlara təbliğ etsin. Uca Allah buyurmuşdur:

﴿ يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ إِنَّآ أَرۡسَلۡنَٰكَ شَٰهِدٗا وَمُبَشِّرٗا وَنَذِيرٗا ﴾

“Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik”. [əl-Əhzab surəsi, 45-ci ayə]

Uca Allah Öz kitabında müxtəlif yerlərdə buna bənzər əmrlər vermişdir: o, belə buyurmuşdur:

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ جَٰهِدِ ٱلۡكُفَّارَ وَٱلۡمُنَٰفِقِينَ وَٱغۡلُظۡ عَلَيۡهِمۡ ﴾

“Ey peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! Onlarla sərt davran!” [ət-Təhrim surəsi, 9-cu ayə].

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ قُل لِّأَزۡوَٰجِكَ وَبَنَاتِكَ وَنِسَآءِ ٱلۡمُؤۡمِنِينَ يُدۡنِينَ عَلَيۡهِنَّ مِن جَلَٰبِيبِهِنَّ ﴾

“Ey peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər”. [əl-Əhzab surəsi, 59].

Beşinci:

Birdən imam Əliyə ﷺ bir nasibi tənə etmək məqsədi ilə və tənəsinə Quranın zahirindən və sabit rəvayətlərdən dəlillər gətirərək desə ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Uca Allah “Ey imam gətirənlər” –deyə elə bir ayə nazil etməyib ki, Əli ﷺ onun başçısı və əmiri olsun”.[1]

[1] əl-Yəqin fi imrati əmiril muminin (174-177-ci səhifələr), Bihar əl-Ənvar (40/21)

Buna sübut imam Rzanın ﷺ səhifəsindəki bu qövldür:

“Bu Quranda xatırlanan hər bir “Ey iman gətirənlər” sözü bizim haqqımızdadır”.[1]

Peyğəmbərin Əhli beytinə qarşı çıxan şəxsə verdiyimiz cavab peyğəmbərimizin səhabələrinə düşmənçilik hissi bəsləyən verdiyimiz cavabla eynidir.

Dördüncü sual: Hudeybiyyə sülhü vaxtı səhabələrin peyğəmbərin ﷺ əmrinə müxalif olmaları.

Səhabələr peyğəmbərin əmrinə asi olmaqla, ona müxalif olduqları halda biz necə onların adil olduqlarını deyə bilərik? O vaxt peyğəmbər ﷺ onlara saçlarını qırxdırıb qurban kəsməyi əmr etmiş, onlar isə bunu yerinə yetirməmişdilər. Hətta Ömər ﷺ açıq bir şəkildə peyğəmbərin ﷺ müşriklərlə bağladığı sülh müqaviləsinə qarşı çıxdıqda Rəsulullah ﷺ soruşmuşdu: “Məgər mən Allahın haqq peyğəmbəri deyiləmmi?” Ömər: Bəli –deyə cavab verdi. Sonra Ömər sual verdi: Məgir biz haqq, düşmənlərimiz isə batil üzərində deyillərmi? Peyğəmbər ﷺ: “Bəli, elədir” –deyə cavab verdikdə Ömər dedi: Elə isə dinimizdən onlara yaxınlıq verməyəcəyik.

CAVAB:

Birinci: Gərək müsəlman olan kəs hadisələrin səbəblərini araşdırmadan ittihamlar irəli sürməsin və haqqa çatmaq istəyirsə insaflı olsun. Heç nədən kiməsə qarşı sərt olmasın; ələxsus da elmsiz olaraq peyğəmbər ﷺ səhabələri haqqında. Gərək o, səhabələrin peyğəmbəri ﷺ necə sevdiklərini bilsin. Bu da bir çox hallarda özünü büruzə verirdi. Misal olaraq səhabələrin peyğəmbərin ﷺ izləri ilə bərəkət olmalarını göstərmək olar. Onun hər bir tüpürcəyini belə əlləri ilə tutub üzlərinə və əllərinə sürtürdülər. Başından tük düşdükdə Urva ibn Məsudun rəvayətindəki kimi bərəkət üçün onu götürməyə tələsirdilər.

İkinci: Hüdeybiyyə sülhü zamanı səhabələr peyğəmbərə ﷺ asi olmamışdılar. Sadəcə olaraq onlar Allahın evi Kəbəyə o qədər çox darıxmışdılar ki, peyğəmbər ﷺ onlara ümrəni kəsib saçlarını qırxmağı əmr etdikdə onlar peyğəmbərin ﷺ bu fikirdən dönməsini təmənna edirdilər. Ya da istəyirdilər ki, Uca Allah Öz peyğəmbərinə ﷺ vəhy endirib onların Məkkəyə daxil olmalarını əmr etsin. Beləliklə onların hamısı gözləməyə başladılar ki, görək nə olur! Elə bu səbəbdən də onlar belə bir əmrin baş

[1] əl-Mənəqib (3/53), əl-Burhan (əl-Bəqərə surəsi, 153-cü ayə)

verməsini gözləyərək peyğəmbərin ﷺ əmrini həyata keçirməkdə azca yubandılar. Onlar peyğəmbərin başını qırxdırıb qurbanını kəsmiş gördükdə anladılar ki, artıq olan olub, keçən keçib. O an dərhal Allahın və Onun Rəsulunun əmrinə cavab verərək saçlarını qırxdırıb tərəddüd etmədən qurbanlarını kəsdilər. Böyük Allah da onların barəsində belə bir ayə endirdi:

﴿لَّقَدْ رَضِيَ ٱللَّهُ عَنِ ٱلْمُؤْمِنِينَ إِذْ يُبَايِعُونَكَ تَحْتَ ٱلشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمْ فَأَنزَلَ ٱلسَّكِينَةَ عَلَيْهِمْ وَأَثَٰبَهُمْ فَتْحًا قَرِيبًا﴾

“Möminlər Hüdeybiyyədə ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində olanı bildi, onlara mənəvi rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı”. [əl-Fəth surəsi, 18-cia ayə].

Üçüncü: Ömər ibn əl-Xəttab ﷺ sülh zamanı heç də peyğəmbərin qərarına qarşı çıxmamışdı. O peyğəmbərlə ﷺ birgə araşdırma aparır və ümmətin halı haqqında məşvərət aparırdı. Məşvərət aparmaq xüsusən də böyük səhabələrlə birgə Rəsulullahın ﷺ adəti idi. Bu məşvərəti də Ona Uca Allah əmr etmişdi:

﴿وَشَاوِرْهُمْ فِي ٱلْأَمْرِ﴾

“Görəcəyin işlər barəsində onlarla məsləhətləş” [Ali İmran, 159].

Feyd əl-Kəşani bu ayə barəsində demişdir: Yəni Onlarla həm müharibə ilə bağlı, həm də digər məsələlərdə məsləhətləş ki, həm onların rəylərində faydalanasan, həm bu onlara xoş getsin, həm də məsləhətləşmək peyğəmbərin ﷺ ümməti üçün sünnət olsun və özünü bəyənərək təkcə fikir söyləməyə son qoyulsun. Şübhəsiz ki, məsləhətləşəndə insan hidayətə varar, təkbaşına fikir söyləyən isə təhlükədə olar.

“əl-Xisal” əsərində Sadiqdən ﷺ belə bir rəvayət var ki, “İşini Allahdan qorxanlarla məsləhətləş”.[1]

Bu hadisədə də peyğəmbər ﷺ Ömər ibn əl-Xəttabın ﷺ məsləhəti ilə Osman ibn Əffanı ﷺ Məkkə əhli ilə danışıqlar aparmaq üçün göndərmişdi.

Şeyx Tabrasi öz “Məcmə əl-bəyan” təfsir əsərində Hüdeybiyyənin Fəthi xatırlayarkən demişdir: İbn Abbas ﷺ rəvayət edir ki, Allahın Rəsulu ﷺ Məkkəyə getmək üçün səfər çıxmışdı. Hüdeybiyyəyə çatdıqda onun dəvəsi dayandı. Ona getməyi əmr etdikdə dəvə sözə baxmayaraq oturdu. Səhabələr dedilər: Bu niyə görəsən belə edir? Rəsulullah ﷺ dedi:

[1] Təfsir əs-Safi, “Məcmə əl-Bəyan”, Təfsir Muin”, “Təfsirşibr”, (Ali İmran surəsi, 159-cu ayə)

“Adətən bu dəvə belə etməzdi. Hərçənd ki, filləri yerində durduran bunu da durdurub”. O, Ömər ibn əl-Xəttabı çağırıb Məkkəyə göndərmək istədi ki, gedib Ümrə ziyarətini yerinə yetirmək üçün izn alsın. O dedi: Ey Allahın Rəsulu! Qureyşə qarşı elə böyük düşmənçiliyim var ki, qorxuram bu dinc səfər olmasın. Yaxşı olar ki, bu işi daha yaxşı görə biləcək şəxsə, Osman ibn Əffana həvalə edəsən. Peyğəmbər ﷺ: “Doğru deyirsən” –deyə cavab verdi.[1]

Dördüncü: Peyğəmbərlə apardığı məsləhətləşməyə görə biz nəyə əsasən Ömər ibn əl-Xəttabı peyğəmbərə qarşı çıxmaqda ittiham etməli və onun haqqında nalayiq söz söyləməliyik. Halbuki peyğəmbər ﷺ ona heç bir söz söyləməmiş və onun əməlini pisləməmişdi?!

Məgər biz səhabələrini necə tərbiyələndirməyin gərək olduğunu və onlarla necə davranmağın gərək olduğunu peyğəmbərdən ﷺ daha yaxşı bilirik?

Yoxsa Peyğəmbərin bilmədiyi bir şeyi bilirik?! Bəlkə Ömərə ﷺ kin bəsləmək üçün başqa bir səbəb var?

Bu cür müşavirələr imam Əli ﷺ ilə tərəfdarları arasında, Məsələn Suffin döyüşündə onunla Hicr ibn Udey arasında baş vermişdir. O zaman imam Əli ﷺ öz ordusuna Müaviyəni və onun ordusunu söyməyi qadağan etdikdə bu məsələ ilə bağlı Hicr və başqaları ilə münaqişə etmişdi. Bununla belə imam Əli ﷺ və ya ondan sonra gələnlər imama qarşı çıxdıqlarına görə Hicrə bir söz söyləmişdilər.

Abdullah ibn Şərik rəvayət edir ki; Bir dəfə Hicr ibn Udey və Amr ibn əl-Həmq çölə çıxaraq Şam əhlini lənətləməyə başlayırlar. Əli ﷺ onlara xəbər göndərir ki, “Sizin haqqınızda qulağıma çatanlara son qoyun”. Onlar imamın yanına gəlib dedilər: Ey möminlərin əmiri! Biz daha haqlı deyilikmi? O: “Bəli” –deyə cavab verdi. Onlar dedilər: Məgər onlar batil yolda deyillərmi? O: “Bəli” –deyə cavab verir. Onlar dedilər: Elə isə nə üçün bizə onları söyməyi qadağan edirsən? O dedi: “Mən sizin söyüş söyən, çoxlu lənət edən olmanızı istəmirəm ki, onlar sizi belə görüb uzaqlaşmasınlar.[2]

Beşinci: Fərz edək ki, Ömər peyğəmbərin ﷺ sözünü yerə saldığına görə səhv etmişdi, bəs birdən bir nasibi bizə sual versə ki; “Əli ﷺ Hüdeybiyyə sülhü vaxtı peyğəmbərə ﷺ qarşı çıxanların başında dururdu. O digər səhabələr kimi, saçını qırdırmayıb qurban kəsməməklə peyğəmbərə ﷺ asi olmuşdu. Bəs bunu necə anlayaq?

[1] Təfsir Məcmə əl-Bəyan (9/194), Biharul Ənvar (20/329)
[2] Mustədrak əl-Vasəil (12/306), Biharul Ənvar (32/399), Vaqatu Saffeyn (102-ci səhifə)

Əksinə Əli ibn Əbu Talibin ﷺ peyğəmbərə qarşı çıxması Ömər ibn əl-Xəttabın ona qarşı çıxmasından daha böyük idi. Qureyşin nümayəndəsi Suheyl ibn Amr ilə birgə sülh sazişi bağladıqda o peyğəmbərin adının silinməsini tələb etdikdə və peyğəmbər ﷺ bunu təkidlədikdə Əli ibn Əbu Talib peyğəmbərin ﷺ əmrinə qarşı çıxmışdı. Buna dəlil Hüdeybiyyə sülhü haqqında varid olan, Abdullahdan ﷺ rəvayət olunan uzun bir hədisdir: Möminlərin əmiri ﷺ sülh sazişini belə yazdı: "Allahım Sənin adınla, Bu Allahın Rəsulu Muhəmmədlə Qureyş camaatının arasında olan razılıqdır". Suheyl ibn Amr dedi: Əgər biz sənin Allahın Rəsulu olduğunu bilsəydik sənə qarşı vuruşmazdıq. Yaz ki, bu Muhəmməd ibn Abdullahla əldə edilən razılıqdır. Ey Muhəmməd öz soyunu danırsan? Peyğəmbər ﷺ buyurdu: "Siz iqrar etməsəniz belə, mən Allahın Rəsuluyam". Sonra o dedi: "Ey Əli poz!" Və Muhəmməd ibn Abdullah yaz. Möminlərin əmiri ﷺ dedi: Mən əsla sənin adını peyğəmbərlikdən silmərəm. Bunu eşidən peyğəmbər ﷺ onu özü sildi...[1]

Birdən bir nasibi bizə irad tutsa ki, Nə üçün Əli ibn Əbu Talib ﷺ Peyğəmbər ondan adını silməyi tələb etdikdə ona qarşı çıxdı. Məgər Əli ibn Əbu Talib ﷺ peyğəmbərdən ﷺ daha elmli və daha təqvalıdır ki, onun adını silməkdən imtina edir? Hələ bu cür qarşıdurma Əli tərəfdən Təbuk döyüşündə də baş vermişdi. O vaxt peyğəmbər ﷺ Abdullah ibn Ummi Məktum ﷺ kimi bir çox üzrlü səhabələrlə bərabər Əliyə ﷺ də müəyyən səbəblərə görə Mədinədə qalmağı əmr etdikdə o buna məhəl qoymayaraq döyüşə getmək üçün peyğəmbərin ﷺ yanına gedib ona qoşulmağa cəhd göstərdi.

Abdullah öz atasından, Əbu Səiddən, o da Süleyman ibn Bilaldan, o da Cueyd ibn Abdur Rahməndən, o isə Aişə bint Səddən, o da öz atası Səddən rəvayət edir ki, Əli ﷺ peyğəmbərlə birgə çıxaraq Səniyyətul Vadə adlanan yerə gəlib çatır. O ağlayaraq deyir: "Məni geridə qalanlarla birgə buraxırsan? Peyğəmbər ﷺ ona belə cavab verdi: "Məgər sən peyğəmbərlik istisna olmaqla Harun Musaya yaxın olduğu kimi mənə yaxın olmaq istəmirsən?"[2]

Nə üçün Əli ibn Əbu Talib peyğəmbər ﷺ onun Təbuk döyüşü zamanı Mədinədə qalmasını əmr etdikdə bundan narazı olur. Məgər o bilmirdi ki, onun Mədinədə qalması əldə olunan bir fəzilətdir. Əgər o bunu bilmirdisə bu bir müsibət, yox əgər bunu bilirdisə daha böyük bir müsibətdir.

[1] Mustədrak əl Vasəil (8/437)
[2] Biharul Ənvar (37/262), əl-Umdə (127-ci səhifə)

Möminlərin əmiri Əli ﷺ haqqında danışılan bütün bu dedi-qodulara rədd, möminlərin əmiri Ömər ﷺ haqqında yayılan danışıqlara da rəddir. Çünki iftiralar müxtəlif formalarda olsa belə haqq bir olaraq qalır.

Beşinci sual: Cümə axşamı əhvalatı.

Peyğəmbərin ﷺ vəfatından dörd gün qabaq cümə axşamı günü səhabələrin arasında baş verən səs-küylü ixtilaf və onların peyğəmbərin ﷺ əmrinə qarşı çıxaraq ondan sonra azmamaq üçün yazı yazdırmaq istədikdə onun sözünə məhəl verməmələri və onu sayaqlamaqda ittiham etmələrinə nə deyirsiniz? Hətta Ömər ibn əl-Xəttab ﷺ onun haqqında dedi ki; "Ağrıları ona güc gəlib. Allahın kitabı bizim üçün yetər". Peyğəmbər ﷺ də bunu eşitdikdə qəzəblənərək onları evindən çıxarmışdı. İbn Abbas ﷺ bu hadisəni xatırladıqda bunu bir bədbəxtlik adlandırırdı. Məgər belə deyilmi?

Cavab:

Birinci: İlk öncə gərək özümüzə belə bir sual verək. Görəsən peyğəmbərin ﷺ o zamankı sağlamlıq durumu hansı səviyyədə idi? Və səhabələrin onun qarşısında ixtilaf etmələrinin səbəbi nədir?

Bu hadisə peyğəmbərin ﷺ ölümündən dörd gün əvvəl o, yataqda ikən baş vermişdir. O bərk ağrıdan çox rahatsız idi. Hətta ağrı o qədər şiddətli idi ki, o hərdən huşunu itirir, sonra özünə gəlirdi. Bu əsnada o səhabələrə buyurdu ki; "Mənim üçün yazı ləvazimatı gətirin, sizə bəzi şeyləri yazdırım ki məndən sonra heç vaxt azmayasınız. Bu vaxt səhabələr arasında çaxnaşma düşür. Onların bəziləri peyğəmbərin ﷺ bu ağır xəstə halında onun əziyyət çəkməsini istəmədilər və elə fikirləşdilər ki, bu vacib bir məsələ deyil, xatırlatma xarakteri daşıyır. Bəziləri isə yazı ləvazimatlarının gətirilməsində israrlı idi.

İkinci: Peyğəmbərdən ﷺ sonra yaşamış heç kəs, həmin hadisənin nə cür cərəyan etdiyini aydın şəkildə təxəyyül edə bilməz. Bunu yalnız o hadisənin iştirakçıları, peyğəmbərin ﷺ çəkdiyi iztirabların canlı şahidi olanların dəqiq bilməsi mümkündür. Xüsusən də ondan əvvəl onlar peyğəmbərin belə bir halda olması ilə qarşılaşmamışdılar. Beləcə qarşılaşmadıqları bir şeyi gördüklərindən müxtəlif rəylər irəli sürdülər.

Üçüncü: Bu hadisəyə əsasən səhabələrə tənə vurmaq sonradan meydana çıxmış bir şeydir. Halbuki səhabələr bu hadisələrdə iştirak etmiş, lakin onların bəziləri digərlərini münafiqlikdə, küfrdə və peyğəmbərə ﷺ itaətsizlikdə ittiham etməmişdilər. Elə isə onlardan uzun müddət sonra

yaşayanlar necə onlardan daha elmli vəziyyəti daha dolğun anlayan ola bilərlər?! Dördüncü: Bu hadisədən səhabələrin adilliyinə xələl gətirə biləcək məsələləri cəm etsək görərik ki onlar aşağıdakılardır:

A) Səahbələrin peyğəmbərə ﷺ itaətdən boyun qaçırmaları.

B) Peyğəmbərin ﷺ hüzurunda ixtilaf etmələri və səs-küy qaldırmaları.

C) Bəzi səhabələrin peyğəmbər ﷺ məqamına yaraşmayan sözlər deyərək, onu sayaqlamaqla vəsf etməsi:

D) Ömər ibn əl-Xəttabın peyğəmbərin ﷺ tələbini cavabsız qoyması.

Qeyd etdiyimiz bu şübhələr aşağıdakı şəkildə rədd etmək mümkündür:

Peyğəmbərin ﷺ əmrinə qarşı çıxmaları: Səhabələr heç də peyğəmbərin ﷺ əmrinə qarşı çıxmamışdırlar. Onlar elə düşünürdülər ki, digər insanlarda olduğu kimi peyğəmbərə ﷺ də xəstəlik güc gəlib. Belə ki, onlar ilk dəfə olaraq peyğəmbəri ﷺ belə bir halda görürdülər. Onlar bilirdilər ki, din artıq kamildir və onların əllərində Allahın kitabı mövcuddur. Buna görə də peyğəmbərin ﷺ nəyi nəzərdə tutmasını düzgün anlamayaraq tərəddüd etdilər.

Səs-küy qaldıraraq ixtilaf etmələri:

Əvvəla səhabələrin öz səslərini peyğəmbərin ﷺ səsindən daha yüksəyə qaldırmalarına heç bir əyani dəlil-sübut yoxdur. Əgər olsaydı o zaman Allah tərəfindən onların əməllərini pisləyən vəhy nazil olardı. Həmin vaxt artıq peyğəmbərlə ﷺ danışıq tərzinin necə olmasının gərək olduğu ədəb normalrını özündə cəmləşdirən əl-Hucurat surəsi nazil olmuşdu.

Səhabələr səslərini peyğəmbərin ﷺ səsindən yüksəyə qaldırmamış, peyğəmbərin ﷺ onlar üçün xüsusi bir şey yazdırmaq istədiyinin açıqlamasında münaqişə etdikləri üçün öz aralarında səs-küy salmışdılar. Məlumdur ki, peyğəmbər ﷺ yazıb-oxuma bilmirdi.[1] Onların arasındakı bu münaqişənin uzandığını gördükdə peyğəmbər ﷺ onları bu ixtilafdan çəkindirmişdi. Əgər belə olsaydı o zaman Nöqsansız Allah tərəfindən nida nazil olar və bu problem kökündən öz həllini tapardı.

Bəzilərinin: “O, sayaqlayır?” –dəmələri:

Hər şeydən öncə bilməliyik ki, rəvayətlərdə bu kəlimənin dəqiq olaraq kimin deməsi təyin olunmayıb. Ola bilsin ki, bu səhabələrin aralarına girmiş bir münafiqin sözüdür. Ya da peyğəmbərin aralarına girmiş bir

[1] Iləl əş-Şərai (1/126), Biharul Ənvar (16/132)

münafiqin sözüdür. Ya da peyğəmbərin səhhəti barəsində soruşan bir səhabənin qövlüdür. O da ola bilsin ki soruşmaq istəyib ki, görəsən o da bizim kimi sayaqlaya bilərmi? Və o bunu müxtəsər bir şəkildə ifadə etmişdir. Ehtimal oluna bilər ki, biri belə soruşmaq istəsin: Biz nə üçün yazı ləvazimatını gətirməyək? Heç ağlımıza gələr ki, peyğəmbər ﷺ də digərləri kimi nə danışdığının fərqində olmasın? Ola bilsin ki, peyğəmbərin ﷺ qızdırmadan dolayı titrəyişli səsini yaxşı anlamamasına görə idi. Peyğəmbərin həyat tərzi haqqında əsərlər yazmış sira alimləri Rəsulullahın ﷺ ölümündən qabaq Səsinin titrəyişli olmasına icma etmişlər.

Beləcə ərəb dilinin üslublarına əsasən bu sözü daha bir neçə cür açıqlamaq mümkündür. Heç kim o zaman peyğəmbərin ﷺ hüzurunda Ömər ibn əl-Xəttab, Əli ibn Əbu Talib və ibn Abbasdan başqa kimlərin olduğunu bilmir. Gərək bu açıqlamalar heç kimə qəribə gəlməsin. Çünki söz sahibinin kim olduğu bəlli deyil. Hər şeydən xəbərdar olan Allah da öz sevimli Rəsuluna bu barədə heç bir vəhy endirməmişdir.

Ömərin peyğəmbərin ﷺ əmrinə itaət etməkdən boyun qaçırması.

Ömərin bütün həyatı boyu peyğəmbərə ﷺ tam şəkildə itaət etdiyini bildiyimiz halda, onun kiçicik bir xahişə etinasız yanaşdığını necə təsəvvürümüzə gətirə bilərik.

Ömərin: Ağrıları ona güc gəlir, sizin əllərinizdə Allahın kitabı var. Bu bizə kifayətdir –deməsi belə açıqlana bilər: Ömər ﷺ peyğəmbərin ﷺ bu ağır xəstə halında səhabələrin ona çoxlu sual verib danışdıraraq onu yarmalarını istəmirdi. Onun: Sizin əlinizdə Allahın kitabı var, bu bizə kifayətdir –sözü buna sübutdur. Uca Allah dininin və şəriətinin kamilliyi barəsində buyurmuşdur:

﴿مَّا فَرَّطۡنَا فِي ٱلۡكِتَٰبِ مِن شَيۡءٖ﴾

“Biz Kitabda heç şeyi nəzərdən qaçırmadıq”. [əl-Ənam surəsi, 38].

﴿ٱلۡيَوۡمَ أَكۡمَلۡتُ لَكُمۡ دِينَكُمۡ وَأَتۡمَمۡتُ عَلَيۡكُمۡ نِعۡمَتِي وَرَضِيتُ لَكُمُ ٱلۡإِسۡلَٰمَ دِينٗا﴾

“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim”. [əl-Maidə surəsi, 3-cü ayə].

Belə başa düşülür ki, peyğəmbərin ﷺ yazdırmaq istədikləri təbliğ olunması vacib olan yeniliklər deyil, nəsihətlərdən ibarət idi. Çünki peyğəmbərin ﷺ Allahın ona təbliğ etməyi vacib etdiyi əmrləri tərk etməsi və ya yalan danışması qeyri mümkündür.

Əgər peyğəmbərin ﷺ bəyan etmək istədiyi məsələlərin arasında çatdırılması vacib olan məsələ olsaydı, heç Allah onu o cür buraxardımı?!

Bunları bildikdən sonra bizə aydın olur ki, istər xəstə halında, istərsə də sağlam vəziyyətində peyğəmbərin ﷺ ona əmr olunanı təbliğ etməsi qaçılmazdır. Əgər ümmət üçün vacib olan bir şeyi çatdırmaq niyyətində idisə, səhabələrin münaqişəsinə əhəmiyyət vermədən bunu etməli idi. Uca Allah buyurmuşdur:

﴿بَلِّغۡ مَآ أُنزِلَ إِلَيۡكَ مِن رَّبِّكَ﴾

"Rəbbindən sənə nazil ediləni təbliğ et" [əl-Maidə surəsi, 67-ci ayə] Onun bunu tərk etməsi deyəcəklərinin vacib və yeni bir hökm olmadığına dəlalət edir. Peyğəmbər ﷺ o hadisədən sonra dörd gün yaşamış və yenidən nəsə yazdırmaq istədiyini bildirmişdi.

Beşinci:

Müsəlmanların öz qəlblərini səhabələrə qarşı olan kin və nifrətdən təmizləmələri labüddür. Gərək onlar imamlar kimi onlara dərin bir məhəbbət bəsləsinlər. Əgər səhabələr barəsində sizin üçün qaranlıq bir məsələ qalsa, onlara üzrlər gətirin. İmamların belə dediyi rəvayət olunur ki; "Çalış mömin olan qardaşına yetmiş dəfə üzr gətirəsən..." Həmçinin demişlər: "Qardaşın haqqında öz gözlərini və qulaqlarını belə yalançı say". əl-Kafi əsərində Hüseyn ibn Muxtar Əbu Abdullahdan ﷺ belə rəvayət etmişdir ki; Möminlərin əmiri ﷺ belə buyurmuşdur: "Dəqiqləşdirənə qədər qardaşının halını yaxşı yerə yoz, qardaşının sözünü nə qədər ki xeyirli yerə yozmaq mümkündür pis mənada anlama. Ubey ibn Kəb demişdir: "Qardaşınızdan xoşagəlməz bir söz eşitdikdə onu yetmiş cür yaxşı açıqlama verin".[1]

Bizim imamların yolu ilə gedərək səhabələrə üzrlər gətirməyimiz daha önəmnlidir. Onlar həmin vaxt ən sevimli adamlarının ölüm ayağında əziyyət çəkdiyini görərək heyrət içində idilər.

Uca və Böyük Allah onları tərifləyərək, belə buyurmuşdur:

﴿كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَتَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِ وَتُؤۡمِنُونَ بِٱللَّهِ﴾

"Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz". [Ali İmran surəsi, 110-cu ayə] Halbuki bəziləri lap kiçik fiqhi məsələlərdə belə səhabələrin rəyinə qarşı çıxırlar.

[1] əl-Hədəiq ən-Nadirah: (15/353)

Nəyə görə aradan uzun əsrlərin keçməsinə baxmayaraq bu və ya digər hadisələrə görə peyğəmbər ﷺ səhabələrinə nalayiq sözlər deməliyik?! Bizim məqsədimiz nədir?

Məgər biz peyğəmbərə ﷺ onun özündən daha elmli və daha hərisik?!

Məgər biz peyğəmbəri ﷺ səhabələrin onu sevdiyindən daha artıq sevirik?!

Yoxsa biz sadəcə olaraq nəfsimizin istəklərinə uymusuq?!

Altıncı: İbn Abbasın ﷺ hədisi rəvayət etdikdə bu hadisəni bədbəxtlik adlandırırdı. Lakin o bu hadisədə iştirak etməmişdi. O hadisədən uzun illər sonra peyğəmbərin ﷺ vəfatını xatırladıqda bunu deyirdi. Bütün rəvayətlər buna dəlildir.

Yeddinci: Bütün bunları anladıqdan sonra birdən bir nasibi bizə desə ki, bütün o problemlərin səbəbkarı Əli ibn Əbu Talib olmuşdur. O bir çox hallarda peyğəmbərə ﷺ qarşı çıxır və ona itaətsizlik göstərirdi. Elə Hüdeybiyə sülhündə də o peyğəmbərin ﷺ adını pozmaqla ona itaətsizlik göstərdi. Eləcə də o digər səhabələr kimi saçını qırxdırıb qurbanını da kəsməmiş və Təbuk döyüşünə getməyərək Mədinədə qalmaqdan imtina etmişdi.

Bununla bərabər o, peyğəmbər ﷺ ölüm yatağında ikən səhabələrdən yazı ləvazimatı tələb etdikdə digər səhabələr kimi onun tələbini peyğəmbər ﷺ dünyasını dəyişənədək yerinə yetirməmişdi. Hətta o, barəsində həddini aşanlar üçün İslam şəriətinin hökmünü dəyişdirərək onları qisas əvəzinə diri-diri yandırmaqla cəzalandırmışdı.[1]

Məhz belə suallarla peyğəmbərin ﷺ əhli beytinə və onun səhabələrinə düşmənçilik bəsləyənlər tanınır.

Altıncı sual: Əbu Bəkr əs-Siddiqin ﷺ Fədək bağı mirasında mövqeyi.

Birdən biri bizə desə ki; Deyin görək Əbu Bəkr əs-Siddiqin ﷺ Fatimənin رضي الله عنها Fədək bağından olan mirasını verməməsinə necə baxırsınız? Fatimə رضي الله عنها ölənə qədər onunla danışmırdı. Halbuki Böyük Allah miras qərarını əziz kitabında bəyan etmişdir:

﴿ يُوصِيكُمُ ٱللَّهُ فِيٓ أَوۡلَٰدِكُمۡۖ لِلذَّكَرِ مِثۡلُ حَظِّ ٱلۡأُنثَيَيۡنِ ﴾

“Allah övladlarınız haqqında sizə belə tövsiyə edir; kişiyə, iki qadının payı qədər pay düşür”. [ən-Nisa surəsi, 11-ci ayə]. Hətta peyğəmbərlər arasında belə miras, təyin edərək Zəkəriyyə عليه السلام barəsində buyurmuşdur:

[1] Biharul Ənvar (24/414)

﴿ وَإِنِّي خِفْتُ ٱلْمَوَٰلِيَ مِن وَرَآءِي وَكَانَتِ ٱمْرَأَتِي عَاقِرًا فَهَبْ لِي مِن لَّدُنكَ وَلِيًّا ۝٥ يَرِثُنِي وَيَرِثُ مِنْ ءَالِ يَعْقُوبَ ۖ وَٱجْعَلْهُ رَبِّ رَضِيًّا ۝٦ ﴾

"Mən özümdən sonra gələn qohumlarından dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!" [Məryəm surəsi, 5-6-cı ayələr]. Süleyman عليه السلام barəsində isə buyurmuşdur:

﴿ وَوَرِثَ سُلَيْمَٰنُ دَاوُۥدَ ﴾

"Süleyman Davuda varis oldu" [ən-Nəml surəsi, 16-cı ayə]

Aləmlərin xanımına qarşı etdiyi bu davranışa görə o peyğəmbəri ﷺ qəzəbləndirmiş olub. Peyğəmbər ﷺ Fatimə رضي الله عنها haqqında demişdir: "Şübhəsiz ki Fatimə məndən bir parçadır. Onu qəzəbləndirən məni qəzəbləndirmiş olur".

CAVAB:

Birinci: Əvvəla unutmamalıyıq ki, Fatimə رضي الله عنها və onun əri Əbu Bəkr əs-Siddiqin رضي الله عنه və başqa səhabələrin yanında xüsusi hörmətə malik idilər.

Buna əyani sübut Əbu Bəkrin Əli ibn Əbu Talibə Fatimə əz-Zəhra ilə evlənməyini məsləhət görməsidir.[1] Peyğəmbər ﷺ də qızının Əliyə ərə getməsi üçün lazımi tədarüklərin görülməsini Əbu Bəkrə həvalə etmiş, sonradan Fatimənin toyu günü onun xanımı Əsma bint Umeys də tədarüklərə qoşulmuşdu.[2] Fatimə əz-Zəhra رضي الله عنها dünyasını dəyişdikdə belə Əbu Bəkrin xanımı onun yuyulub kəfənlənməsini özü icra etmişdi.[3]

İkinci: Yəqin ki, müasir dövrümüzdə müsəlmanların çoxu Fədək torpağının Allahın Xeybərdən öz Rəsuluna ayırdığı qənimət payı oluğunu bilmirlər. Bu qənimət payı müharibə olmadan əldə olunduqda olur. Bu qissə tam şəkildə Həşr surəsində xatırlanmışdır: Uca Allah buyurur:

﴿ مَّآ أَفَآءَ ٱللَّهُ عَلَىٰ رَسُولِهِۦ مِنْ أَهْلِ ٱلْقُرَىٰ فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي ٱلْقُرْبَىٰ وَٱلْيَتَٰمَىٰ وَٱلْمَسَٰكِينِ وَٱبْنِ ٱلسَّبِيلِ كَيْ لَا يَكُونَ دُولَةًۢ بَيْنَ ٱلْأَغْنِيَآءِ مِنكُمْ ۚ وَمَآ ءَاتَىٰكُمُ ٱلرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَىٰكُمْ عَنْهُ فَٱنتَهُوا۟ ۚ وَٱتَّقُوا۟ ٱللَّهَ ۖ إِنَّ ٱللَّهَ شَدِيدُ ٱلْعِقَابِ ﴾

"Allahın Öz Peyğəmbərlərinə kəndlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, qohum-əqrabaya, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o, aranızdakı zənginlərin dövləti olub

[1] Biharul Ənvar (43/93), (19/112)
[2] Biharul Ənvar (43/138)
[3] Biharul Ənvar (43/185)

qalmasın. Peyğəmbər sizə nəyi verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir". [əl-Həşr surəsi, 7-ci ayə]

Allahın Öz Rəsuluna əta etdiyi hər şey ona məxsusdur. Peyğəmbər ﷺ onu özünün, ailəsinin ehtiyaclarının ödənməsi və sədəqə üçün ayırmışdı. Həmin torpağa nəzarəti də məhz özü edirdi. Tarix kitablarında qeyd olunduğu kimi o, bu torpağı heç kimə miras qoymamışdı. Peyğəmbər ﷺ dünyasını dəyişdikdə onun işlərini əvvəlcə Əbu Bəkr sonra isə Ömər icra edirdi. Ömərin xəlifəliyi dönəmində Əli ibn Əbu Talib və Abbas həmin torpağa nəzarəti öz üzərilərinə götürməyi Ömərdən xahiş etmiş, o da bu xahişi cavabsız qoymamışdı. Beləliklə həmin bağ Ömərin, Osmanın və Əlinin xilafəti dövrlərində Əlinin nəzarəti altında olmuşdu. Onun vəfatından sonra bağ imam Həsən ibn Əlinin, sonra imam Hüseynin, sonra Həsənin oğlu Həsənin və Əli ibn Hüseynin, daha sonra isə Zeyd ibn əl-Həsənin nəzarəti altına keçmişdi. Lakin bağ onlardan heç birinin şəxsi mülkü olmamışdır.

Üçüncü: Miras məsələsinə gəldikdə isə peyğəmbər ﷺ öz səhabələrinə xəbər vermişdi ki, peyğəmbərlər başqa insanlar kimi özlərindən sonra miras qoymazlar. Onların buraxdıqları mal-dövlət sədəqədir. İmamlar da bunu beləcə açıqlamışlar.

Əbu Abdullah ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ buyurmuşdur: "Kim elm tələb etmək üçün bir yol tutub gedərsə, Allah onun üçün Cənnətə bir yol açar. Həqiqətən də mələklər elm tələbəsinə razılıq əlaməti olaraq qanadlarını yerə sərər. Yerdə və göydə olanların hamısı hətta dənizdəki balina belə elm tələbəsi üçün bağışlanma diləyər. Alimin Allaha çox ibadət edən abid üzərindəki fəziləti on dörd gecəlik ayın digər ulduzlar üzərindəki fəziləti kimidir. Şübhəsiz ki alimlər peyğəmbərlərin varisləridirlər. Peyğəmbərlər özlərindən nə bir dinar nə də bir dirhəm miras qoymurlar. Onlar özlərindən sonra yalnız elm buraxıb gedirlər. Kim onu götürsə səadətə çatmış olar".[1]

Əbu Abdullah ﷺ həmçinin demişdir: "Şübhəsiz ki, alimlər peyğəmbərlərin mirasıdır. Belə ki peyğəmbərlər özlərindən sonra nə bir dirhəm nə də bir dinar miras qoymazlar. Onlar öz hədislərini miras qoyar. Kim onlardan götürsə səadətə nail olar".[2]

Cəfər öz atasından ﷺ rəvayət edir ki; "Peyğəmbər ﷺ nə bir dinar, nə də bir dirhəm, nə bir qul, nə bir kəniz, nə bir qoyun, nə də bir dəvə miras

[1] əl-Kəfi (1/34), Biharul Ənvar (1/164), əməli əs-Saduq (60-cı səhifə)
[2] əl-Kəfi (1/32), Vasəil əş-Şiə (27/78), Mustədrak əl-Vasəil (17/299), əl-ixtisas(4 səh)

qoymamışdır. Rəsulullah ﷺ vəfat edərkən hətta onun zirehi belə Mədinəli yəhudilərdən birinin yanında ailəsi üçün aldığı iyirmi misqal arpanın müqabilində girov qoyulmuşdu.[1]

Heç Fədək bağına sahib olan şəxs də iyirmi misqal arpanın müqabilində öz zirehini girov qoyarmı?

Möminlərin əmiri ﷺ demişdir: "Yeddi şeydə elm maldan üstündür:

1 - Elm peyğəmbərlərin mirasıdır, mal-dövlət isə padşahların

2 - Elm xərcləndikdə artıq, mal-dövlət isə azalır.

3 - Malı qoruyan adam lazımdır elmi isə öz sahibi qoruyur.

4 - Elm kəfənə daxil olur, mal-dövlt isə qalır.

5 - Mal-dövlət kafirə də olur, möminə də, Elm isə yalnız mömin üçün olur.

6 - Bütün insanlar dinlərini öyrənmək üçün elmli şəxsə möhtacdırlar, lakin onlar mal-dövlət sahibinə möhtac deyillər.

7 - Elm insanı körpünün (Siratın) üzərindən keçərkən gücləndirir, mal-dövlət isə onu zəiflədir.

Dördüncü: Aşağıdakı ayəyə əsasən Fatimənin ﷺ ata mirasına daha layiqli olması iddiası avam insanların gətirdiyi batil bir dəlildir. Uca Allah buyurmuşdur:

﴿ وَإِنِّي خِفْتُ ٱلْمَوَٰلِيَ مِن وَرَآءِي وَكَانَتِ ٱمْرَأَتِي عَاقِرًا فَهَبْ لِي مِن لَّدُنكَ وَلِيًّا ۝٥ يَرِثُنِي وَيَرِثُ مِنْ ءَالِ يَعْقُوبَ ۖ وَٱجْعَلْهُ رَبِّ رَضِيًّا ۝٦ ﴾

"Mən özümdən sonra gələn qohumlarımdan dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mən Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!" [Məryəm surəsi, 5-6-cı ayələr] həmçinin buyurur:

﴿وَوَرِثَ سُلَيْمَٰنُ دَاوُۥدَ﴾

"Süleyman Davuda (peyğəmbərlikdə) varis oldu". [ən-Nəml surəsi, 16-cı ayə]

Bu ayələrdəki varislik peyğəmbərlik, elm və hikmət varisliyidir. Buna da həm əqli, həm də Quran və sünnədən dəlillər şahiddir. Həmin dəlilləri biz artıq vurğulamışıq. Əqli dəlillərə gəldikdə isə onlar aşağıdakı kimidir:

Birinci ayə: "o hm mənə, həm də Yaqub nəslinə varis olsun" ayəsi.

[1] Qurbul isnəd (44-cü səhifə), Biharul Ənvar (16/219)

1 - Seyid Muhəmməd Hüseyn Fədlullah demişdir: yəni varis olsun və peyğəmbərliyin yolunu davam etdirib, Allahın yoluna dəvət edib, ona əməl edərək, onun yolunda cihad etsin ki, peyğəmbərlik onun fikrində, ruhunda və əməlində olsun.[1]

2 - Heç təsəvvürünüzə gətirə bilərsinizmi ki, hörmətli peyğəmbər əbədi cənnətin daimi nemətlərinin əvəzinə Allahdan öz övladlarına fani dünya nemətinin miras qoymasını diləsin?! Bunu heç əməlisaleh bir kəs haqqında düşünmək düzgün olmaz. Bəs peyğəmbərin Allahdan dünya malına miras çıxsın deyə övlad diləməyi necə? Məgər bu mümkündür?!

3 - Uca Allahın peyğəmbərləri bəşəriyyət üçün ən nümunəvi insanlardır. Onlar yaxşı işlər görməyi əmr edir və özləri də ona əməl edirlər. Onlar insanlara mallarını xərcləməyi tövsiyə etdikləri halda özləri necə bu fani dünya nemətini saxlaya bilərlər? Uca Allah buyurmuşdur:

﴿ ۞ أَتَأۡمُرُونَ ٱلنَّاسَ بِٱلۡبِرِّ وَتَنسَوۡنَ أَنفُسَكُمۡ وَأَنتُمۡ تَتۡلُونَ ٱلۡكِتَٰبَۚ أَفَلَا تَعۡقِلُونَ ﴾

“Siz Kitab oxuyb insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz? Məgər anlamırsınız?” [əl Bəqərə surəsi, 44-cü ayə] Əksinə siz onların öz mallarını xeyrə xərclədiklərini görərsiniz.

Məsələyə aydınlıq gətirmək üçün bilməliyik ki, Zəkəriyyənin عليه السلام irsində mal-dövlət yox idi. Belə ki:

4 - Əgər biz “Yaqub nəslinə varis olsun” ayəsini tamamlasaq aydın bir şəkildə bizə bəlli olacaq ki, buradakı miraslıq anlamı elm və peyğəmbərlik irsi mənasındadır. Bir də ki, əgər sual Zəkəriyyə عليه السلام tərəfindən verilmiş olsaydı, hər hansı bir tarixçi Yaqubun ailəsinin neçə şəxsdən ibarət olduğunu bizə xəbər verə bilərmi? Bəs Yaqub nəslindən olan Yəhyanın عليه السلام yeri haradadır?

İnsaflı oxucu Qurini Həimi və tarix kitablarını oxuyaraq bütün peyğəmbərlərin Yaqub nəslindən olduğunu bilir. Çünki İsrail Allahın peyğəmbəri Yaqubun özüdür. Bəs Yaqub nəslindən peyğəmbər olmayan digər şəxslər necə olsun? Bütün bu say çoxluğu ilə Yəhyanın عليه السلام miras payı nə qədər olacaqdır?

Şübhəsiz ki, “mənə və Yaqub nəslinə varis olsun” –ayəsi alimlərin anlamı ilə, mübarək təfsir və tarix kitablarına nəzər saldıqdan sonra: Burada mal mirası nəzərdə tutulur deyənlərin sözünü rədd edir.

Tbii ki, ayədə peyğəmbər olan Yaqubun, sonra da peyğəmbər olan Zəkəriyyənin adı çəkildikdə burada mal deyil, məhz peyğəmbərlikdən

[1] Təfsir min vahyil Quran (Məryəm surəsi, 6-cı ayə)

söhbət getdiyi bəlli olur. Sonra da ki, Zəkəriyyə عليه السلام idi və əli ilə qazandığının hesabına dolanırdı. Bu halda onun Yəhyaya عليه السلام buraxacağı mal-dövlət haradadır?!

İkinci ayəyə gəldikdə isə bu ayədə: "Süleyman Davuda varis çıxdı" –deyildikdə mal-dövlətə deyil, peyğəmbərlik, elm və hümmətə varis çıxmışdı.

Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi demişdir: Bu ayədə göstərilir ki, o digər 19 qardaşından fərqli olaraq atasındakı mülk və peyğəmbərliyə varis çıxmışdı.[1]

Tarixdən məlumdur ki, Davud peyğəmbərin ﷺ çoxlu zövcələri, cariyələri və övladları var idi. Belə olduğu halda biz necə deyə bilərik ki, Ona yalnız Süleyman varis çıxmışdı?

O da məlumdur ki, Süleyman qardaşları da atalarının varisləridir. Belə olduğu halda onların arasından təkcə Süleymanın عليه السلام varis olması məqsədəuyğun deyil.

Lap elə edək ki, burada dünyavi irsdən söhbət gedir, bəs bunun Uca Allahın kitabında qeyd olunmasında nə fayda var? Bu məsələ məlum olduğu halda bəs Allahın kitabındakı ibrət və bəlağət harada qaldı?

Beşinci: Burada Haqqı sevən şəxs azca duraraq belə sual verir: Görəsən Fatimə əz-Zəhra رضي الله عنها Əbu Bəkrdən رضي الله عنه Fədək bağını istədikdə onu miras olaraq istəyirdi, yoxsa xeybər döyüşündən sonra ona verilmiş bir hədiyyə kimi? Söhbətimizin sonunda bu sualın cavabına aydınlıq gətirəcəyik. Aydındır ki, Fatimə رضي الله عنها Əbu Bəkrdən رضي الله عنه Fədək bağını tələb etdikdə və Əbu Bəkr ona bağı verməyərək buna dəlillər gətirdikdə Fatimə رضي الله عنها küsüb gedir. Görəsən o bu zaman Atasından qalma mirası istəyirdi, yoxsa hədiyyəni? Əgər irsi istəyirdisə qeyd etdiyimiz kimi peyğəmbərlər mal-dövlət, dinar və ya dirhəm miras qoymurlar. Yox əgər bu peyğəmbərin ﷺ öz qızına bəxş etdiyi bir hədiyyə idisə o zaman ortaya suallar çıxır.

1 - Peyğəmbər ﷺ heç vaxt Fədək bağını Fatiməyə رضي الله عنها verməmişdi. Fatimə Əbu Bəkrdən bunu tələb etdiyi vaxt bundan xəbər tutmuşdu, və hədiyyə deyil, məhz miras olaraq onu istəmişdi. Bəllidir ki, Xeybər döyüşü hicrətin yeddinci ilində baş vermişdi. Peyğəmbərin ﷺ qızı Zeynəb hicrətin 8-ci ilində, bacısı Ummu Kulsum isə hicrətin 9-cu ilində vəfat etmişdilər. Elə isə peyğəmbər ﷺ onları qoyub necə yalnız Fatiməyə bunu verə bilər?

Bu peyğəmbərin ﷺ öz övladları arasında ayrıseçkilik etməsi barədə bir ittihamdır, çünki bu ona əsla yaraşmaz.

[1] Təfsir əl-Cədid və Təfsir əl-Muin (ən-Nəml surəsi, 16-cı ayə)

2-Fərz edək ki, Fədək bağı Fatiməyə hədiyyə olunmuşdu. Fatimə də onu ya götürmüş ya da tərk etmişdi. Əgər o bağı götürübsə nə üçün gəlib onu Əbu Bəkrdən istəyir? Yox əgər onu götürməmişdisə şəriət baxımından hədiyyə götürülmədikdə, o ona verilmiş sayılmır. O zaman hədiyyə olunanın vəfatından sonra hədiyyə onun varislərinə çatır.

Altıncı: İmamlardan gələn rəvayətlərə əsasən məlumdur ki, Fiqhi baxımdan torpaq sahələrindən qadınlara miras verilmir, onlara onun qiyməti ödənilir.

Yezid ibn Saiğdən rəvayət olunur ki; "Mən Əbu Abdullahdan ﷺ soruşdum ki, qadınlar yerə miras olurlarmı? O dedi: yox, lakin oranın qiymətinə varis çıxırlar. Mən dedim: İnsanlar bununla razılaşmır. O dedi: Əgər biz hakim olsaq, onlar da narazı olsalar onları qamçı ilə vurarıq. Düzəlməsələr qılıncla vurarıq".[1]

Əbən ibn əl-Əhmər rəvayət edir ki; mən Məryəmdən onun belə dediyini eşitdim: Mən Əbu Abdullahdan qadınların mirası haqqında soruşdum. O dedi: Onlara daşın, tikilinin, taxtanın və ipliyin haqqı ödənilir. Yerə və daşınmaz əmlaka gəldikdə isə onlara miras düşmür. Mən soruşdum: Bəs paltar? O dedi: Paltarda onlara pay var. Mən soruşdum: Necə olur ki, bu ikisindən onlara qiyməti, bundan isə dörddə biri düşür? O dedi: Çünki qadının varisi olmur. Bu belə oldu ki, qadın birinə ərə getdikdə başqa nəsildən olan əri və ya onun oğlu gəlib onlarla əmlak mübahisəsi etməsin".[2]

Yeddinci: Fatimə ilə Əbu Bəkr ﷺ arasında baş vermiş anlaşılmazlığın düzgün təhlilini Allahın izni ilə sizə təqdim edirik: Cənnət əhlinin xanımı başqasının mülkünün ona məxsus olduğunu iddia edə bilməz. Sadəcə olaraq o, həmin bağın həqiqətən ona məxsus olduğunu zənn edərək onu tələb edirdi. Əbu Bəkr ﷺ bağı ona verməsinin səbəbini açıqladıqda Fatimə yenidən gedərək onunla danışmadı.

Buna da sübut odur ki, İmam Əli ﷺ hakimiyyətə gəldikdə Fədək bağını öz övladlarına vermədi. Bu barədə ona sual verildikdə isə o belə cavab verdi ki; "Əbu Bəkrin qadağan etdiyi, Ömərin də bunu dəstəklədiyi bir şeyi etməyə Allahdan utanıram".[3]

Tutaq ki, Əbu Bəkr ﷺ mirası verməkdə zülm etmişdisə bəs İmam Əli necə məgər o da öz övladlarını miras verməməkdə zülm etmişdi?

---

[1] əl-Kəfi (7/129), Vasəil əş-Şiə (26/70), Təhzib əl-Əhkəm (9/299)
[2] əl-Kəfi (7/130)
[3] Nəhcul Bələğan şərhi (16/252)

Əhli beyti və müsəlmanları sevənlər onları heç zaman zülmdə ittiham etməz, Əbu Bəkr və qeyriləri barədə heç vaxt pis zənn etməz.

Səkkizinci: Əbu Bəkr əs-Siddiq ﷺ bu mülkün qızı Aişəyə və ya başqa möminlərin analarına məxsus olduğunu iddia etməmiş və bu malı Peyğəmbərin Əhli beytinə ümumən verməmişdi. O, bunu yalnız peyğəmbərin ﷺ vəsiyyətini həyata keçirmək üçün etmişdi. Heç peyğəmbərin ﷺ vəsiyyətinə əməl etmək səhv ola bilərmi?!

Doqquzuncu: Əbu Bəkr əs-Siddiqin ﷺ Fatiməyə رضي الله عنها mirası verməməsi heç də fitnəkarların yaydığı kimi düşmənçilik və nifrətə görə deyil.

Unutmamalıyıq ki, Fatimə رضي الله عنها peyğəmbərdən ﷺ ona ev işlərində yardımçı olmaq üçün xadimə istədikdə mübah olmasına baxmayaraq peyğəmbər ﷺ bundan imtina etmişdi. Belə çıxır ki, gərək biz ümmətin peyğəmbərinin adilliyinə də tənə vurmalıyıq?!

İmam Əli ﷺ uzun bir hədisdə buyurmuşdur: "...Sonra peyğəmbər ﷺ qalxıb getmək istədikdə Fatimə ona dedi: Atacan mənim ev işlərimi görməyə taqətim yoxdur. Mənə bir xidmətçi ver ki, yardımçım olsun. Peyğəmbər ﷺ dedi: Ey Fatimə! Xidmətçidən daha xeyirli bir şey istəyirsənmi? Əli Fatiməyə dedi: De ki, bəli! Fatimə dedi: Atacan xidmətçidən daha xeyirli? Peyğəmbər ﷺ dedi: "Hər gün 33 dəfə İzzət və Cəlal sahibi olan Allah təsbeh edir, 33 dəfə Ona həmd edir, 34 dəfə isə təkbir edirsən. Dilinlə bunu yüz dəfə deməklə öz tərəzinə min savab əlavə etmiş olursan".[1]

Onuncu: Fatimənin qəzəbi peyğəmbəri ﷺ də qəzəbləndirirdi –ifadəsində heç bir ixtilaf yoxdur.

Şünhəsiz ki, bunu Fatiməni qəzəbləndirmək üçün deyil, məhz peyğəmbərin ﷺ vəsiyyətinə əməl etmək üçün etmişdi. Bu da nə Əbu Bəkr əs-Siddiqə nə də başqasına ayb etməz.

Elə bu səbəbdən də, Fatimə əz-Zəhranı qəzəbləndirən hər şey peyğəmbəri ﷺ də qəzəbləndirir ifadəsi bura şamil olunmur. Ona qalsa İmam Əli ilə ﷺ Fatimə رضي الله عنها arasında bütün ailələrdə olduğu kimi ailə ixtilafları olmuşdur. Belə olduğu halda məgər imam Əlinin adilliyinə tənə edərək deməliyik ki. O Fatiməni qəzəbləndirdiyinə görə peyğəmbərin ﷺ qəzəblənməsinə səbəb olmuşdu?!

Əksinə peyğəmbər ﷺ hər zaman əmisi oğlu ilə Cənnət əhlinin xanımı arasındakı bütün ixtilaflarda ata kimi deyil adillik və insaf mövqeyindən çıxış edirdi.

[1] Biharul Ənvar (43/134), Kəşful ğummə (43/134)

Əbu Zər ﷺ rəvayət edir ki; "Mən Cəfər ibn Əbu Taliblə birgə Həbəşistanda hicrətdə olarkən. Ona qiyməti dörd min dirhəm olan bir cariyə hədiyyə etmişdim. Mədinəyə qayıtdıqda Cəfər həmin cariyəni evində xidmətçi olsun deyə Əliyə verdikdə Əli onu Fatimə ilə birgə yaşadığı mənzilə gətirdi. Bir dəfə Fatimə ﷺ evə gəldikdə gördü ki, Əli başını cariyənin qucağına qoyub. Fatimə bunu görcək dedi: Ey Əbu Həsən! Sənə etdinmi? O dedi: Ey Muhəmmədin qızı, Allaha and olsun ki yox Mən heç bir şey etməmişəm, nə istəyirsən? Fatimə dedi: İcazə ver atamın evinə gedim. Əli dedi: İcazə verdim. O dərhal hicabını örtərək, əynini geyib peyğəmbərin ﷺ yanına gəlib Əlidən şikayət edəcək, sən onun Əli haqqında etdiyi şikayətlərə məhəl vermə". Fatimə ﷺ onun yanına gəldikdə Allahın Rəsulu ﷺ ona belə söylədi. "Gəlmisən ki, Əlidən şikayət edəsən?" Fatimə: Kəbbənin Rəbbinə and olsun ki elədir –deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Onun yanına qayıt və de ki, sənin razı olmağına məcburam".[1]

Cəfər ibn Muhəmməd ﷺ demişdir: "Bir dəfə Fatimə ﷺ peyğəmbərə ﷺ Əlidən ﷺ şikayət edərək dedi: Ey Allahın Rəsulu! Evdə nəyi varsa hamısını yazıqlara paylayır! Peyğəmbər ﷺ dedi: Ey Fatimə! Qardaşım və qardaşım oğluna görə məni qəzəbləndirirsən? Onu qəzəbləndirmək məni, məni qəzəbləndirmək isə Uca Allahı qəzəbləndirmək deməkdir".[2]

On birinci:

Hər şeydən öncə unutmamalıyıq ki, İslamın düşmənlərinin əsas məqsədi batil fikirlər və mübarək ilk əsrin nümayəndələri arasında müxtəlif kin və çaxnaşmaların olması kimi iftiralı xəbərləri yaymaqla müsəlmanların birliyini pozmaqdır. Əgər biz ağlımızı işlədərək özümüzə sual versək ki, hər il müsəlmanların müxtəlif məclislərində eyni hekayələri səsləndirməklə biz nəyə nail oluruq? Yalnız peyğəmbərin ﷺ əhli beytinə biz nəyə nail olmuş oluruq? Yalnız peyğəmbərin ﷺ əhli beytinə qarşı düşmənçilik şayələrini yaymış oluruq. Ağıllı insan Fatimə ﷺ Fədək bağını istədikdə Əbu Bəkrin ﷺ nələr etdiyini araşdıraraq görəcək ki, Əbu Bəkrin ﷺ etdiyi edilməsi vacib olan məsum peyğəmbərə ﷺ tabeçilikdən başqa bir şey deyildi. Belə olduğu halda onun səhvi nədədir ki?!

Bəs biz Cənnət əhlinin xanımı Fatimə ﷺ haqqında Nasibilərin belə dediklərinə nə cavab verəcəyik? Onlar deyirlər:

---

[1] İləl əş-Şərai (1/163), əl-Mənəqib (3/342), Biharul Ənvar (39/208)
[2] Biharul Ənvar (43/153), Kəşful ğummə (1/473)

Fatimənin halı qəribədir! O, qəzəblənərək İslamda qadağan olunmuş həmişəlik küsülülüyə gətirib çıxaranadək müsəlmanlara müxalif olur. Bunun da başlıca səbəbi onun öz nəfsinin istəklərinə uyaraq inadkarlıq etməsi və fani dünyanın çirkin nazi nemətlərinə çox sevməsidir. O, atasının vəsiyyətini qulaqardına vuraraq gəlib Rəsulullahu xəlifəsi Əbu Bəkr əs-Siddiqdən miras tələb edirdi. Ondan öncə də dəfələrlə Əli ibn Əbu Talibin çox kasıb olmasından atasına şikayət edirdi. Buna da aşağıdakı rəvayətlər sübutdur:

İshaq əs-Səbii Harisdən, o da Əlidən rəvayət edir ki; "Bir dəfə Fatimə Rəsulullaha ﷺ şikayət edərkən peyğəmbər ﷺ dedi: Məgər səni ümmətin ən birinci İslama gələninə, ən ağıllı və ən elmlisinə ərə verdiyimdən narazısan? Məgər sən İmranın qızı Məryəm istisna olmaqla Cənnət əhli xaımlarının başçısı olmaq istəmirsənmi? Sənin iki oğlun isə Cənnət əhli gənclərinin başçılarıdır".[1]

Əbu Saleh ibn Abbasdan rəvayət edir ki; "Bir dəfə Fatimə رضي الله عنها aclıqdan və paltarsızlıqdan ağlayırdı. Peyğəmbər ﷺ ona dedi: "Ey Fatimə, ərindən qane ol. Allaha and olsun ki, o həm bu dünyada, həm də axirətdə başçı olacaqdır". Beləliklə onların arasını düzəltdi...

Ey peyğəmbərin ﷺ əhli beytini sevən kəs: Sən də nasibilər kimi əhli beytə nifrət bəsləyənlərdən olmaq istəyirsən, yoxsa Onlardan bəşəriyyətin xeyirlisi Muhəmməd ﷺ ilə birgə olanları sağlam qəlblə müdafiə edənlərdən? İndi özün bu iki yoldan birini seç.

Yeddinci sual: Əbu Bəkrin Fatiməni alçaltması məsələsi.

Birdən biri bizə desə ki, bəs tarix kitablarında göstərildiyi kimi peyğəmbərin ﷺ vəfatından sonra Əbu Bəkr əs Siddiq, Ömər ibn əl-Xəttabın və Xalid ibn əl-Validin İmam Əlinin ﷺ evinə hücum edərək onu əl-qolunu bağlayaraq, onun həyat yoldaşının qabırğasını qırıb bətnindəki uşağını salanadək döymələri və sonra evlərini yandırmaları kimi iyrənc əməllər sevgiyə dəlalət edir peyğəmbərin ﷺ əhli[2] beytinə qarşı olan nifrət və kin-küdurətə?

CAVAB:

Birinci: Gərək haqqı axtaran kəs, tarixi bir rəvayət oxuduğu zaman məsdərini səhih olub-olmadığını dəqiqləşdirib bilmədən onu heç kimə

[1] Əməli ət-Tusi (248-ci səhifə)

[2] əl-Mənəqib (3/319), Biharul Ənvar (24/99) -------əlyazmada bu sözlər yalnız aşağıda yazılıb mətndə qeyd olunmayıb. Əlyazma səh 97

deyib insanların qəlblərini peyğəmbərin ﷺ səhabələrinə qarşı kinlə doldurmasın.

Həqiqətən də Əhli beyti, elmi və xeyiri sevən kəs çalışmalıdır ki, rəvayətləri götürəndə səhvə yol verməsin. Yalnız səhih hədisin şərtlərini özündə birləşdirən rəvayətlərə əsaslanıb uydurma rəvayətlərin çox və məşhur olmasına diqqət yetirsin.

İkinci: Şəkk yoxdur ki bu rəvayət müsəlmanları parçalanmağa çalışan fitnəkarların istifadə etdikləri açq yalandan başqa bir şey deyil. Biz bütün haqqı axtaranları bu rəvayətin bircə səhih olanını tapıb çıxarmağa çağırırıq. Gətirsinlər görək həmin rəvayətə sənədin tamlığı, dəqiq və adil ravilərdən rəvayət olunma kimi səhih hədisin şərtləri rəvayətə şamil olunacaqmı?

Ən təəccüblüsü də budur ki, çoxları öz hisslərinə uyaraq bu hədisə inanırlar. Lakin onlardan heç biri şüurlu surətdə hədisin səhih olub olmamasına önəm vermir!

Seyid Haşim əl-Həsəni bu rəvayətləri xatırlatdıqdan sonra demişdir ki, elmi araşdırmalar zamanı məlum olur ki, bu rəvayətlərin səhih və sabit deyildir.[1]

Həmçinin demişdir: Necə olursa olsun, Fədək bağı və Fatimənin atasından olan mirası və xilafət barədəki mövqeyinə dair hədislər uzun və çoxdur. Həmin rəvayətləri araşdırdıqdan sonra məlum olur ki, onların çox az bir hissəsi sabit deyil.[2]

Kəşif əl-ğita demişdir: Fatiməni döyüb yaxasını itələmək məsələsini oxuyan heç bir vicdanlı, ağıl və dərrakə sahibi onu qəbul edə bilməz. Ona görə yox ki, onların bunu etməyə cürətləri çatmazdı. Ona görə ki, cahiliyyə dövründən qalmış və İslam şəriəti ilə təsdiqlənmiş ərəb adətləri qadınları döyməyi yolverilməz bir hal kimi baxır.

Seyid əl-Xuiyə Fatimənin qabırğalarının qırılması barəsində varid[3] olan rəvayətlər barədə sual verildikdə cavab vermişdir ki: Belə məşhurdur. Lakin o səhih olmasına hökm verməmişdi.[4]

Üçüncü: Ola bilsin biri desin ki, Əliyə əmr olunmuşdu ki, peyğəmbərin ﷺ vəfatından sonra səbirli olub ümmətin parçalanmasına çəkinərək

[1] Siratul əimmə əl-İsney əşəra (1/133)
[2] Siratul əimmə əl-İsney əşəra (1/140)
[3] Cənnətul Məvə (135-ci səhifə) -------əlyazmada bu sözlər yalnız aşağıda yazılıb mətndə qeyd olunmayıb. Əlyazma səh 98
[4] Sirat ən-Nucət: (3/314)

İslam bayrağını qorumaq üçün Onun həyat yoldaşı hücuma məruz qaldığı zaman onlara qarşı vuruşmasın.

Lakin belə bir suallar meydana çıxır:

Əvvəlcə bildiririk ki, bu rəvayət düzgünlükdən çox uzaqdadır. Fərz edək ki, bütün bunlar qeyd olunduğu kimidir, bəs nəyə görə Əli "Cəməl günü" Talhənin və möminlərin anası Aişənin ordusuna qarşı, Saffeyndə isə Müaviyənin ordusuna qarşı vuruşmuşdu? Eləcə də Nəhrəvan döyüşündə o xəvariclərə qarşı vuruşmuşdu. Elə isə nə üçün o bu qədər döyüşlərdə iştirak edərək qan tökmüşdü? Belə çıxır ki, o müsəlmanların ayrılmaması ilə bağlı peyğəmbərin əmrini qulaqardına vurmuşdu?

Düzgün rəy isə odur ki, heç kim zülm olunduqda və ya Allahın haramları edildikdə Əliyə vuruşmağı qadağan etməmişdi. O ki qaldı onun gözləri önündə zövcəsinə qarşı zülm olunsun. Bu rəvayətləi oxumazdan qabaq gərək insan Əmirəl möminin Əlinin Allahın dininə və öz ailəsinə olan qeyrətini gözlərinin qabağına gətirsin.

İmam Sadiqin ﷺ belə dediyi rəvayət olunur ki, "Kim zülm olunduğu şey yolunda ölərsə, şəhiddir".[1]

Məgər bunu şücaət sahibi möminlərin əmiri bilmirdi? Gərək ağıllı müsəlman onun xeyirinə deyil ziyanına olan şeyləri dilinə gətirməkdən çəkinsin. Çünki Əlinin Talhənin ordusuna və Saffeyn əhlinə qarşı vuruşduğunu bilən şəxs düşünməlidir ki, elə isə öz ailəsi vurulduqda nə üçün onların müdafiəsinə qalxmamışdı?!

Dördüncü: Hər bir fitnəkar səhih hədisləri deyil əsli naməlum olan rəvayətlərin tarix və ədəbiyyat kitablarında xatırlandığına əsaslanaraq onları yaya bilər. Başqaları da bunları oxuyub şəksiz-şübhəsiz ona inanacaqlar.

Hətta Əhli beytə qarşı yalan danışıb nifrət edən hər bir kəs iddia edə bilər ki, Fatimənin döyülməsi Əbu Bəkrlə Ömərin məqsədyönlü şəkildə həyata keçirdikləri plan əsasında baş vermişdi. Onlar onu qətlə yetirmək istəyirlərmiş. Bu batil ittihamı o bu cür uydurma rəvayətlərin nəticəsində əldə edin və nəticədə onun dediyindən belə çıxır ki;

1 - İmam Əli ﷺ onu və Əhli əyalını vurmaq üçün onun evinə daxil olduqda rola girmişdi. Belə ki o, birinin yaşı altmışdan yuxarı, digərininki isə əlli üçdən yuxarı olan şəxsə qarşı heç bir şey etmədi. Halbuki onun gücün insanlardan və cinlərdən heç kim çata bilməzdi. Necə ki rə-

[1] əl-Kəfi (5/52), Təhzib əl-Əhkəm (6/167), Vasəil əş-Şiə (15/121)

vayətdə gəlir ki, o, Xeybər günü qırx nəfərin daşıya bilmədiyi bir qapını təkbaşına götürüb atmışdı.

2 - Müsəlmanların arasında qan tökülməsin deyə İmam Əlinin səhabələrə qarşı müqavimət göstərməməsi əsassız bir rəydir. Çünki Əhli beytdən varid olan rəvayətlərə əsasən peyğəmbərin ﷺ vəfatından sonra üç nəfərdən başqa bütün səhabələr mürtəd olmuşdular. Məgər Əlinin müsəlman qanı tökməməsinin səbəbi həmin üç nəfər idimi?! Məgər səhabələrin qanı Fatimənin qanından daha üstündür ki, o onu müdafiə etmədi?!

3 - Fatimənin vəfatından doqquz gün sonra İmam Əli Hənifə oğulları qəbiləsindən bir qadınla evlənmişdi. Onun oölunun ləqəbi də ibn əl-Hənəfiyyə idi. Daha sonra o Fatimə əz-Zəhradan olan qızı Ummu Gülsümü həmin hücumun iştirakçılarından olan Ömər ibn əl-Xəttaba ərə vermişdi. Deməli o zövcəsinin düşmənləri ilə sız əlaqə yaratmağa həris idi və Fatiməni sözün həqiqi mənasında sevmirdi.

4 - İmam Əli birinci və ikinci xəlifənin vaxtında qazi və vəzir olduqda bu ona etdiklərinin mükafatı olaraq təqdim olunmuşdu.

5 - O öz övladlarına Əbu Bəkr[1], Ömər və Osman adları verirdi. Əbu Bəkrin ﷺ vəfatından sonra onun dul zövcəsi ilə nigah bağlanmasında Fatiməyə xoş getməməsinə baxmayaraq onunla fəxr etməsinə dəlildir.

6 - İmam Əli Xəlifə olduğu dövrdə anaları Fatimənin mirasını öz övladlarına verməmiş, təraveh namazını qılmağı qadağan etməmiş və müvəqqəti nikaha icazə verməmişdi.

Heç əhli beyti sevən şəxs nasibilərin səhabələrin Fatiməni döyüb evini yandırması və Əlinin buna susması kimi uydurma rəvayətləri qəbul edərmi? Gətək o dəlil gətirməzdən öncə haqqı araşdırıb axtarsın.

Səkkizinci sual: Xalid ibn Vəlidin Malik ibn Nuveyra və onun xanımına münasibəti.

Bəs Əbu Bəkr əs-Siddiqin ilk xilafət dönəmlərində zəkat vermək məsələsini bilmədiklərinə görə Xalid ibn Vəlidin başçılığı altında səhabələri müsəlmanların qanını tökmələrinə nə deyirsiniz. Misal üçün Məlik ibn Nureyvanın qövmünü, Xalidin isə onu qətlə yetirərək elə həmin gecə Məlikin zövcəsinin yanına daxil olmasını göstərək.

CAVAB:

Birinci: Şəhadət və namazdan sonra zəkat İslamın ən mühüm əsasıdır. Zəkat deyildikdə varlıların var-dövlətindən kasıbların haqqı nəzərdə

[1] Hörmətli oxucu unutma ki, Əbu Bəkr bir kunyədir. Onun əsl adı Abdullah ibn Əbu Quhəfə idi və bu kunyə yalnız ona məxsus idi.

tutulur. Elə bu səbəbdən də Uca Allah öz müqəddəs kitabında bir sıra yerlərdə namazla zəkatı yanaşı qeyd edərək buyurur:

﴿ وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَ وَٱرۡكَعُواْ مَعَ ٱلرَّٰكِعِينَ ﴾

"Namaz qılıb zəkat verin və ruku edənlərlə birgə ruku edin" [əl-Bəqərə surəsi, 43-cü ayə]

﴿ وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ وَءَاتُواْ ٱلزَّكَوٰةَۚ وَمَا تُقَدِّمُواْ لِأَنفُسِكُم مِّنۡ خَيۡرٖ تَجِدُوهُ عِندَ ٱللَّهِۗ إِنَّ ٱللَّهَ بِمَا تَعۡمَلُونَ بَصِيرٞ ﴾

"Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsınız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür". [əl-Bəqərə surəsi, 110-cu ayə]

Əbu Cəfər ﷺ demişdir: "Uca Allah namazla zəkatı yanaşı qeyd edərək buyurmuşdur ki; "Namaz qılıb zəkat verin". Deməli namaz qılıb zəkat verməyən kəs namaz qılmamış kimidir".[1]

Muhəmməd ibn Muslim, Əbu Bəkr, Bureyd və Fudeyl Əbu Cəfər və Əbu Abdullahdan ﷺ rəvayət edirlər ki: "Allah zəkatı namazla birgə fərz etmişdir".[2]

Zəkatı verməyən kəs namazı tərk edən şəxs kimi öldürülməlidir. Buna Allahın kitabı və Əhli beyt imamlarının sözləri də sübutdur.

Uca Allah buyurur:

﴿ فَإِذَا ٱنسَلَخَ ٱلۡأَشۡهُرُ ٱلۡحُرُمُ فَٱقۡتُلُواْ ٱلۡمُشۡرِكِينَ حَيۡثُ وَجَدتُّمُوهُمۡ وَخُذُوهُمۡ وَٱحۡصُرُوهُمۡ وَٱقۡعُدُواْ لَهُمۡ كُلَّ مَرۡصَدٖۚ فَإِن تَابُواْ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ فَخَلُّواْ سَبِيلَهُمۡۚ إِنَّ ٱللَّهَ غَفُورٞ رَّحِيمٞ ﴾

"Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir". [ət-Tövbə surəsi, 5-ci ayə]

Əbən ibn Təğləb rəvayət edir ki, Əbu Abdullah ﷺ mənə dedi: "İslam dinində iki qan halaldır. Onlar barədə əhli beyt olmadan heç kim hökm verməz. Allah əhli beyti göndərdikdə isə onlar Allahın hökmü ilə hökm verər: evli zinakar daşqalaq olunmur və zəkatı verməyənin boynu vurulur".[3]

Əli ibn İbrahim atasından, O isə İsmayıl ibn Mirardan, Yunusdan, O isə Məskəndən, bir kişinin Əbu Cəfərdən ﷺ belə rəvayət edir ki; "Bir

[1] əl-Kəfi (3/506), Mən lə yəhduruhul əl-Fəqih: (2/10), Vasəil əş-Şiə (9/22)
[2] əl-Kəfi (3/497), Vasəil əş-Şiə (9/13)
[3] əl-Kəfi (3/503), Mən lə yəhduruhul Fəqih (2/12), Vasəil əş-Şiə (9/33), Bihar əl-Ənvar (52/325)

dəfə Rəsulullah ﷺ məsciddə ikən: Ey filankəs qalx! Qalx ey filankəs! – deyərək beş nəfəri qaldırdı və dedi: Zəkat vermədiyinizə görə bizim məscidimizdən çıxın və burada namaz qılmayın”.[1]

İkinci:

Böyük alimlərdən gələn rəvayətlərə əsasən bəllidir ki, peyğəmbərin ﷺ vəfatından sonra bir çox ərəblər İslamdan çıxdılar. Bəziləri isə zəkatı tərk etdilər.

Tusi “əl-əməli” əsərində İbrahim ibn Mühacirdən, o da İbrahimdən rəvayət edir ki, Əşəs ibn Qeys və başqa ərəblər peyğəmbər ﷺ vəfat etdikdə dindən çıxdılar və dedilər ki; Biz namaz qılacağıq, zəkat isə verməyəcəyik. Əbu Bəkr bunu qəbul etmədi və dedi ki; Peyğəmbərin ﷺ qoyduğu qanunu mən poza bilmərəm. Peyğəmbərin ﷺ sizdən aldığından az heç nə almayacağam. Sizə qarşı vuruşacağam. Əvvəllər verdiklərinizi zəkatı belə verməkdən boyun qaçırsanız sizə qarşı vuruşacağam. Sonra o bu ayəni oxudu:

﴿ وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ ٱلرُّسُلُ ﴾

“Muhəmməd Allahın elçisidir, ondan qabaq da elçilər gəlib getmişlər”.[2] [Ali İmran surəsi, 144-cü ayə]

Bu böyük hadisəyə görə Əbu Bəkr ﷺ Xalid ibn Vəlidin vuruşduğu ordulardan biri də Məlik ibn Nureyvanın qövmü idi.

Üçüncü:

Nəfsinin istəklərinə uyan bir çox fitnəkarlar Əbu Bəkr əs-Siddiqin ﷺ Xalid ibn Vəlidi döyüşlərə göndərərək onların qanlarını tökub, mallarını halal etməsini tənə vurublar.

Düzgün rəy isə budur ki, Əbu Bəkr ﷺ Xalid ibn Vəlidi təkcə özü göndərməmişdi. Ondan qabaq peyğəmbər ﷺ də Xalidi bir sıra döyüşlərə, o cümlədən Taifə, Yəmənə, Urrəyə, Bəhreynə, Dimətul Cəndələ və bir sıra başqa yerlərə göndərmişdi.

Peyğəmbərin ﷺ və digər Xəlifələrin göstərişilə Xalidin böyük döyüşlərə getməsinə baxmayaraq bəziləri bu böyük səhabəyə tənə vuraraq onun xətalarını yayıb yaxşı əməllərini gizlətməklə onun tarixini və peyğəmbərin ﷺ yanındakı yerini ört-basdır etməyə çalışırlar.

Dördüncü:

Uca Allah buyurmuşdur:

[1] əl-Kəfi (3/503), Mən lə yəhduruhul Fəqih (2/12), Vasəil əş-Şiə (9/24)
[2] Əməli ət-Tusi (262-ci səhifə), Biharul Ənvar (11/28)

﴿ وَعَدَ ٱللَّهُ ٱلَّذِينَ ءَامَنُواْ مِنكُمۡ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ لَيَسۡتَخۡلِفَنَّهُمۡ فِي ٱلۡأَرۡضِ كَمَا ٱسۡتَخۡلَفَ ٱلَّذِينَ مِن قَبۡلِهِمۡ وَلَيُمَكِّنَنَّ لَهُمۡ دِينَهُمُ ٱلَّذِي ٱرۡتَضَىٰ لَهُمۡ وَلَيُبَدِّلَنَّهُم مِّنۢ بَعۡدِ خَوۡفِهِمۡ أَمۡنٗاۚ يَعۡبُدُونَنِي لَا يُشۡرِكُونَ بِي شَيۡـٔٗاۚ وَمَن كَفَرَ بَعۡدَ ذَٰلِكَ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡفَٰسِقُونَ ﴾

“Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər –məhz onlar fasiqlərdir”. [ən-Nur surəsi, 55-ci ayə]

Peyğəmbərin ﷺ vəfatından sonra insanlar dindən çıxdıqda və səhabələr onlara qarşı vuruşduqda onlara üç şərt yer üzündə varislik, dində möhkəmlik və qorxunun arxayınçılıqla əvəz olunması nəsib oldu.

Beşinci: Xalidin Məlik ibn Nureyvanı qətlə yetirməsi üç rəvayətdə gəlib.

1 - Xalid ibn Valid Məlik ibn Nureyvanın qövmünə gəldikdə onlara dedi: Zəkat malları hanı? Nə üçün siz namazla zəkat arasında fərq qoyursunuz?

Məlik ibn Nureyva dedi: Biz bu malı peyğəmbər ﷺ sağ ikən ona verirdik. İndi isə o vəfat edib. Əbu Bəkr kimdi ki? Bunu eşitcək Xalid ibn Valid hirslənib dedi: Deməli o sənin deyil yalnız bizim başçımızdır? Sonra o, Dirar ibn Əzvara əmr etdi ki, onun boynunu vursun.

Deyilənə görə Məlik ibn Nureyva peyğəmbərlik iddiasında olan Səcəhə tabe olmuşdu.

Üçüncü belə bir rəvayət var ki, Xalid ibn Valid Məlik ibn Nureyvanın qövmünü danışdırdıqda, onları tutduqları əmələ görə pisləyib bir qismini əsir götürdükdə qaravulçularından birinə dedi: Əsirlərinizi qızındırın. O vaxt bir qış günü idi. Səqif qəbiləsinin dilində filankəsi qızdırın dedikdə, onu öldürün nəzərdə tutulur. Qaravulçu elə zənn etdi ki, Xalid onun öldürülməsini istəyir. Ona görə də öz anlamına görə Xalidin əmri olmadan onu öldürür.

Bu rəvayətlərdən hər hansı birinə əsaslansaq deyə bilərik ki, əgər Məlik ibn Nureyvanı öldürmək Xalid ibn Vəlidin buraxdığı səhv nəticəsində idisə O ya zəkatdan imtina edənlərdən olduğuna görə, ya yalançı peyğəmbər Səccəhə tabe olduğuna görə ya da Xalidin təvilinə əsasən baş vermişdi. Bu təvil də Xalidin üzərində qisas alınmasını vacib etmir. Xalidin təvil xətası kimi görkəmli səhabə Usəmə bin Zeydin də başına

gəlmişdi. O zaman o "Ləiləhə illəllah" –deyən bir kişini təvil edərək qətlə yetirmiş, peyğəmbər ﷺ isə ona kəffarə vacib etməmişdi.

əl-Qummi bu ayə barədə demişdir:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا ضَرَبۡتُمۡ فِي سَبِيلِ ٱللَّهِ فَتَبَيَّنُواْ وَلَا تَقُولُواْ لِمَنۡ أَلۡقَىٰٓ إِلَيۡكُمُ ٱلسَّلَٰمَ لَسۡتَ مُؤۡمِنٗا تَبۡتَغُونَ عَرَضَ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا ﴾

"Ey iman gətirənlər! Allah yolunda döyüşə çıxdığımız zaman kiminlə vuruşacağımızı yəqin edin və sizə salam verən şəxsə, dünya həyatının fani mənfəətinə can ataraq "Sən mömin deyilsən" –deməyin". [ən-Nisa surəsi 94-cü ayə]

Bu ayə Allahın Rəsulu ﷺ Xeybər döyüşündən qayıdarkən nazil olmuşdur. O zaman o, Usamə ibn Zeydi Fədək istiqamətində bəzi yəhudi qəbilələri İslama dəvət etmək üçün göndərmişdi. Kəndlərin birində Mirdəs ibn Nəhik əl-Fədki adlı bir şəxs var idi. O peyğəmbərin ﷺ ordusunun kəndə çatdığını eşitdikdə əhli əyalını yığıb dağa qaçaraq Ləiləhə illəllah, Muhəmməd Rəsulullah deməyə başladı. Usəmə ibn Zeyd onu görərək vurub öldürdü. Geri qayıtdıqda o başına gələnləri Peyğəmbərə ﷺ danışdı. Rəsulullah ﷺ isə ona belə dedi: "Ləiləhə illəllah və Muhəmmədən Rəsulullah şahadətini deyən bir kəsimi öldürdün? O dedi: -Ey Allahın Rəsulu o bunu ölümdən qorxduğuna görə demişdi! Peyğəmbər ﷺ dedi: -Məgər sən onun qəlbinə girmişdin? Nə onun dili ilə dediyini qəbul etdin, nə də onun qəlbinə girdin. Həmin gündən sonra Usəmə and içdi ki, Ləiləhə illəllah, Muhəmmədən Rəsulullah deyən heç kəsə qarşı vuruşmasın.[1]

Altıncı: Xalidin ﷺ Malik ibn Nureyvanı qətlə yetirib elə həmin gecə onun xanımı ilə evlənməsinə gəldikdə isə bu absurtdan başqa bir şey deyildir və bu barədə heç bir səhih dəlil yoxdur. İnsafı və adilliyi olan hər kəsə belə bir sual vermək olar:

Sən hardan bilirsən ki, Xalid Məlik ibn Nureyvanı öldürdüyü gecə onun xanımı ilə evlənib? Sən bu iddianı hər hansı səhih dəlillə əsaslandıra bilərsənmi?

Fitnəkarlar və nəfslərinin istəklərinə uyanların peyğəmbər ﷺ səhabələrini sevməkdə heç bir nümunələri yoxdur. Əksinə onlar kitablarda olan uydurma və zəif rəvayətləri götürüb mənalarını dəyişdirərək batil təvillər edirlər. Xalidin Məliki onun xanımı ilə evlənmək naminə qətlə yetirməsi hekayəsi də bu zəmindəndir. Şübhəsiz ki, bu böhtandan başqa bir şey deyildir.

[1] Təfsir əl-Qummi (1/148), Biharul Ənvar (21/11), Mustədrak əl-Vasəil (16/79)

Fitnə salıb peyğəmbərin ﷺ səhabələrinə tənə vurmaq istəyən şəxslər üçün bu cür rəvayətləri və tarixi hekayələri götürüb istədiyi şəkildə yazaraq onları yayması heç də çətin deyil. Çünki o əsla səhih mənbələrə əsaslanmır.

Elə bu minvalla Xalid ibn Validə tən olunduğu kimi şərqşünaslar peyğəmbərə ﷺ belə tənə etmişlər.

Birdən İslama nifrət bəsləyən şərqşünaslardan biri sual versə ki: Peyğəmbər ﷺ Zeyd ibn Harisənin xanımı qüsl alarkən onu görmüş və xoşuna gəlmişdi. Ona görə də onu Zeyddən boşandırıb özü evlənmişdi. –biz ona necə rədd verəcəyik?!

Rida ﷺ demişdir: "Bir dəfə peyğəmbər ﷺ Zeyd ibn Harisə ibn Şərahil əl-Kəlbinin evinə bir iş üçün getmişdi. Bu zaman o, Zeydin xanımını qüsl alarkən gördü və belə dedi: "Səni yaradan Allah nöqsansızdır!" O bununla –mələklər Allahın qızlarıdır –deyənlərdən Allaha sığınaraq bunu demişdi. Uca Allah buyurmuşdur:

﴿ أَفَأَصۡفَىٰكُمۡ رَبُّكُم بِٱلۡبَنِينَ وَٱتَّخَذَ مِنَ ٱلۡمَلَٰٓئِكَةِ إِنَٰثًاۚ إِنَّكُمۡ لَتَقُولُونَ قَوۡلًا عَظِيمًا ﴾

"Doğrudanmı Rəbbiniz oğlanları sizin üçün seçib, özünə isə mələklərdən qızlar götürüb?! Siz həqiqətən də, olduqca yaramaz söz danışırsınız". [əl-İsra, 40-cı ayə]

Peyğəmbər ﷺ onu qüsl alarkən gördükdə dedi: Səni elə bir Allah yaradıb ki, o nə özünə övlad götürməyib, nə də onun qüsl alıb təmizlənməyə ehtiyacı yoxdur. Zeyd evə qayıtdıqda yoldaşı Rəsulullahın ﷺ gəlişini və dediyi sözləri ona xəbər verdi. Zeyd heç bir şey anlamadan elə zənn etdi ki, onun xəbər verdi. Zeyd heç bir şey anlamadan elə zənn etdi ki, onun gözəlliyinə görə bu sözləri deyib. O peyğəmbərin ﷺ yanına gələrək dedi: Ey Allahın Rəsulu! Mənim xanımımın əxlaqı xoşuma getmədiyindən onu boşamaq istəyirəm. Peyğəmbər ﷺ buyurdu: "Zövcəni yanında saxla və Allahdan qorx". O zaman İzzət və Cəlal sahibi olan Allah artıq peyğəmbərə onun zövcələrinin sayını və həmin qadının da onlardan biri olduğunu bəlli etmişdi. Buna baxmayaraq peyğəmbər ﷺ qorxurdu ki, insanlar: Muhəmməd azad olunmuş kölələrə deyir ki, sənin xanımı mənim zövcəm olacaq –deyərək onda ayıb tutsunlar. Bu vaxt Uca Allah bu ayəni nazil etdi:

﴿ وَإِذۡ تَقُولُ لِلَّذِيٓ أَنۡعَمَ ٱللَّهُ عَلَيۡهِ وَأَنۡعَمۡتَ عَلَيۡهِ أَمۡسِكۡ عَلَيۡكَ زَوۡجَكَ وَٱتَّقِ ٱللَّهَ وَتُخۡفِي فِي نَفۡسِكَ مَا ٱللَّهُ مُبۡدِيهِ وَتَخۡشَى ٱلنَّاسَ وَٱللَّهُ أَحَقُّ أَن تَخۡشَىٰهُۖ ﴾

“Bir zaman Allahın *(İslam dini ilə)* nemət verdiyi və sənin özünün *(qulluqdan azad etməklə)* nemət verdiyin *Zeydə*: “Zövcəni öz yanında saxla, Allahdan qorx!”– deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır”.

Sonra Zeyd onu boşadı və o gözləmə müddətinə girdi. Uca Allah da onunla peyğəmbəri ﷺ evləndirib bu barədə ayə nazil etdi:

﴿فَلَمَّا قَضَىٰ زَيۡدٞ مِّنۡهَا وَطَرٗا زَوَّجۡنَٰكَهَا لِكَيۡ لَا يَكُونَ عَلَى ٱلۡمُؤۡمِنِينَ حَرَجٞ فِيٓ أَزۡوَٰجِ أَدۡعِيَآئِهِمۡ إِذَا قَضَوۡاْ مِنۡهُنَّ وَطَرٗاۚ وَكَانَ أَمۡرُ ٱللَّهِ مَفۡعُولٗا﴾

“Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman *o qadınlarla evlənməkdə* möminlərə heç bir sıxıntı olmasın. Allahın əmri mütləq yerinə yetəcəkdir”. [əl-Əhzab surəsi, 37-ci ayə]

İslama kin bəsləyən hər bir kafir belə batil rəvayətləri eşitdikdə az qalır ki, sevindiyindən uçsun. Peyğəmbərə ﷺ və onun səhabələrinə sevgi bəsləyənlər isə, xəta zənn etdiyi hər bir əmələ müxtəlif üzrlər gətirir. Çünki peyğəmbər ﷺ məsumdur. Səhabələr barədə hər hansı bir xəbər sabit olduqda isə o zaman onların gördükləri çoxlu savablarla onu ört-basdır edir. Həmin xətalara arxasını çevirərək, gözlərini yumub qulaqlarını kar edir. Çünki əfv etmək və bağışlamaq sevgiyə dəlalət edir.

Batil rəvayətlərə gəldikdə isə Uca Allah bu barədə buyurur:

﴿فَأَمَّا ٱلزَّبَدُ فَيَذۡهَبُ جُفَآءٗ﴾

“Köpük yox olub gedir”. [Rəd surəsi, 17-ci ayə].

İbratamiz fikirlər.

Həm əqli, həm də nəqli dəlillərlə bizə bəlli oldu ki, səhabələr bəşəriyyət tarixində misli görünməmiş bir nəsil, və peyğəmbərdən sonra ən xeyirli xəlifələr olmuşlar. Uca Allah buyurmuşdur:

﴿ كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَتُؤْمِنُونَ بِاللَّهِ ﴾

“Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işləri görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz”. [Ali İmran surəsi, 110-cu ayə]

Onların dindən çıxmalarını isə heç bir ağlı başında olan müsəlman qəbul edə bilməz. Sağlam etiqada sahib olan hər bir adi müsəlman özözünə bəsit suallar verməklə Quran və Sünnəyə və ya alimlərə müraciət etmədən bu cür qondarma etiqadları dəf edə bilər. Bu cür fikirlər haqqı araşdıran hər bir nurlu ağıla gələ bilər. Belə fikirlərdən bəziləri aşağıdakılardır:

1. Uca Allah Qurani Kərimdə, eləcə də peyğəmbər ﷺ və onun əhli beyti səhabələri zahirən və batinən tərifləndikdən sonra peyğəmbərlərin sonuncusunun səhabələri necə kafir və mürtəd olan şəxsləri tərifləyib? Necə olur ki, peyğəmbər ﷺ və pnun əhli beyti onlara səna ediblər?

2. Dindən çıxan şəxs buna ya şübhələrə görə, ya da nəfsinin istəklərinə uyaraq edir. Məlumdur ki, İslamın ilk dönəmlərində şübhələr və şəhvətlər daha çoxluq təşkil edirdilər. O zaman müsəlmanlar zəif, kafirlər isə güclü idilər və həmin vaxt müsəlmanlar kafirlər tərəfindən işgəncələrə məruz qalır öz yaxınları və qohumları tərəfindən elə əziyyət çəkirdilər ki, onu bir Allah bilir. Buna baxmayaraq onlar bütün bu əziyyətlərə sinə gələrək bəlalara dözürdülər. Bütün yer əhli peyğəmbərə ﷺ ədavət göstərdikdə onlar on tabe oldular. Bəzi müsəlmanlar öz qövmlərində başçı belə olduqları vaxt Allah və Rəsulunun ﷺ sevgisi naminə öz diyarlarını bə mal-dövlətlərini tərk etmişdilər.

Şəkk yoxdur ki, onlar bütün bunları öz istəkləri ilə seçmişdilər. Zəif olduğu vaxt yüksək zirvələr kimi olan kəs İslamın qələbələrindən və yayılmasından sonra necə olar? Onlar Allahın əmrlərinə müxalif olmanın küfr olduğunu bildikləri halda peyğəmbərə ﷺ qarşı çıxmalarına səbəb nə ola bilər?!

Necə ola bilər ki eyni anda bütün mühacir və ənsarlar Allaha küfr etməkdə Əbu Bəkrə tabe olsunlar və Allahın fəzilətini diləyərək öz diyarlarından və mallarından təcrid olunaraq peyğəmbərə ﷺ asi olsunlar?!

3. İnsan səhabələrin kafir və mürtəd olduqlarına necə hökm verə bilər ki, İmam Əli ﷺ belə demişdir: “Məni itirməmişdən qabaq məndən

hər şeyi soruşun". O, Cəməl və Saffeyn döyüşlərində iştirak edənlərin heç birini kafir saymamış, onların əhli-əyalarını söyməmiş və onların mallarını qənimət götürməmişdi. O bütün bunlardan çox uzaq idi. Əgər ona qarşı vuruşanlarla belə münasibət bəsləyirdisə, o zaman ona qarşı döyüşlərdə heç iştirak etməmiş Əbu Bəkr, Ömər və Osman necə?!

Əbu Bəkr ﷺ və digər səhabələr Hənifə oğullarına mürtəd hökmü verdikləri kimi o, hökm verməmişdi. Cəməl döyüşündə carçı belə qışqırırdı: "Qaçaq qovulmasın, yaralılara toxunulmasın, övratlar açılmasın və hicablar qaldırılmasın".[1]

Həmçinin İmam Əli ﷺ öz ordusuna belə xitab edirdi: "Biz onları kafir sayaraq vuruşmuruq, onlar da bizi təkfir edərək vuruşmurlar. Sadəcə olaraq biz özümüzü, onlar isə özlərini daha haqlı sayırdılar".[2]

4. Görəsən peyğəmbər ﷺ bizlərə insanlarla dostluq edib pis adamlardan uzaq olmağı əmr etdiyi halda nə üçün özü iddiaya əsasən münafiq və mürtədlərlə yaxınlıq edirdi?! Nə üçün Allah öz peyğəmbərini bu cür kafir və münafiqlərdən qorumurdu?!

5. Peyğəmbər ﷺ bizə din və əxlaq sahibləri ilə qohumluq quraraq böyük günah sahibləri ilə ailə həyatı qurmağı qadağan etdiyi halda nə üçün özü Əbu Bəkr, Ömər, Osman və Əbu Sufyan kimi mürtədlərlə qohum olur?! Məgər peyğəmbər ﷺ onlarla qohumluq etməkdə yanılırdı?!

6. Nə üçün Əhli Beyt ﷺ öz övladlarına Əbu Bəkr, Ömər, Osman kimi böyük səhabələrin adlarını qoymağa həris idilər? Halbuki günümüzdə bu adlar yas məclislərində daim pislənir! Əgər onlar həqiqətən də kafir idilərsə belə çıxır ki, Firon və Qarun kimi adları da qoymaq caizdir. Çünki fərqi yoxdur küfr milləti birdir.

Hamımız bilirik ki, Əhli Beyt ﷺ sevgisini zahirə çıxarmaq yalnız onların mübarək qaynaqlarına əsaslanaraq onların mübarək elmlərində bəhrələnməklə olur.

7. İmam Əli ﷺ özü öz tərəfdarlarına Müaviyəni söyüb lənətləməyi qadağan etdiyi halda biz İmam Əliyə qarşı olanları söyüb lənətləməyi necə caiz görə bilərik? O zaman İmam Əli ﷺ onlara belə demişdi: "İstəmirəm ki siz lənət edən, söyüş söyən olasınız!"[3]

8. Tarixə insafla nəzər salan şəxs görür ki, səhabələr peyğəmbər ﷺ sağ ikən İslam dövləti qurulduqda heç bir batil fikir irəli sürməmişdilər. Əksinə onlar İslam yolunda mallarından və canlarından keçərək bəziləri şəhid olmuşdular. Heç münafiq olan kəs də bütün bunları edərmi? Həqiqi

[1] Mustədrak əl-Vasəil (11/52), Biharul Ənvar (32/252)
[2] Qurbul İsnəd (45-ci səhifə), Biharul Ənvar (32/324)
[3] Mustədrak əl-Vasəil (12/306), Biharul Ənvar (32/399), Vaqatu Saffeyn (102-ci səh)

münafiq olan özünü qoruyaraq dünya mənfəətlərinə nail olmağa yollar arayardı.

9. Məgər İslamın qələbələri və fəthləri peyğəmbərin ﷺ mənhəcinin səhihliyinə dəlalət etmirmi? Bəlkə bunlar səhabələrin dünya sevgisinə nəfslərinin şəhvətlərinə uymalarına batil yolda olmalarına sübutdur?

10. Müasir dövlət qurucuları bu işdə onlara yardımçı ola biləcək ən sadiq və düzgün kişilərə etimad göstərirlər. Necə ola bilər ki Uca Allah bu əhəmiyyətli məsələyə önəm vermədən onun dinini yaymağa bir qrup münafiqə həvalə edir? Sonrada Üç xəlifənin və digər İslam dövlətlərinin vaxtında İslam dininin yayılması geniş vüsət almışdı.

11. Adi bir müsəlman belə bir sual verə bilər: Əgər səhabələr doğrudan da dindən çıxmış və Allahın dinini dəyişdirmiş şəxslər idilərsə belə çıxır ki, onlar vasitəsi ilə biz nəql olunan bütün şəriət hökmləri də batildir.

Elə isə Rəbbimizə hansı səhih şəriətə əsasən ibadət edəcəyik? Həmçinin səhabələrin nəql etdikləri Qurana necə etimad göstərə bilərik?!

Hörmətli oxucu: Yəqinliklə bilməliyik ki, İslamın düşmənləri peyğəmbərin səhabələrinə tənələri özlərindən çıxarmışlar. Çünki Quran və Sünnəni peyğəmbərdən ﷺ mütavatir olaraq rəvayət edənlər məhz onlardır. Dünyada elə bir din yoxdur ki, onların öz müqəddəs kitablarına və peyğəmbərlərinin sünnəsinə tam sənədi olsun. Bu nemət yalnız müsəlmanlara verilmişdir.

Əzəmətli Quran və peyğəmbərin ﷺ sünnəsi bizlə Əbu Bəkr, Ömər, Osman, Əli və onların qardaşlarından rəvayət olunur. Onlara gözəl şəkildə tabe olanlar da onların yollarını davam etdirmişlər. Bununla da bu dini dağıdıb müsəlmanları İslamdan ayırmaq istəyənlərin planlı niyyətləri bəlli olur. Bu cür insanlar yəhudi və xaçpərəstlərə tabe olanlardır. Rəbbimiz onlar haqqında belə buyurur:

﴿وَلَن تَرۡضَىٰ عَنكَ ٱلۡيَهُودُ وَلَا ٱلنَّصَٰرَىٰ حَتَّىٰ تَتَّبِعَ مِلَّتَهُمۡ﴾

“Sən onların dininə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən razı qalmayacaqlar”. [əl-Bəqərə surəsi, 120-ci ayə] Son sözümüz isə peyğəmbərimiz ﷺ məclisdən qalxdıqda dua etdiyi kimi bu duadır:

“Ey Cəbrayılın, Mikayılın və İsrafilin, göylərin və yerin Rəbbi, Sən gizlini də aşkarı da bilənsən. Qullarının arasında ixtilaf baş verdikdə onların arasında hökm verən Sənsən. Sənin izninlə haqq barədə aramızda baş verən ixtilaflarda bizə doğru yolu göstər. Şübhəsiz ki, sən istədiyin kəsi doğru yola yönəldirsən”.

Amin... Amin... Amin...

Müraciət olunan ədəbiyyat.

1 - Qurani Kərim (Tərcümə Ə. Musayev)
2 - əl-İhticəc –Əbu Mənsur Əhməd ibn Əli ət-Tabrasi (Murtəda Məşhəd Məqsudi nəşri 1413-cü il)
3 - əl-İxtisas –Muhəmməd ibn Muhəmməd ən-Numən əl-Mufid (Nəkra Cəhani nəşri Qum) 1413-cü il.
4 - İrşəd əl-Qulub –Həsən ibn Əbul Həsən əd-Deyləmi (Şərif Rida nəşri)
5 - Əra həvləl Quran –Seyid əl-Fani əl-Əsfani (əl-Hudə nəşriyyatı) Beyrut.
6 - İləm əl-Vara –Əminuddin Fadl ibn Həsən ət-Tabrasi (Kutub əl-İslə-miyyə nəşriyyatı –Tehran)
7 - Əməli əs-Sadiq –Əbu Cəfər Muhəmməd ibn Bəbaveyh əl-Qummi əs-Saduq ("Kitabxanayi isləmiyyə" nəşriyyatı h 1362-cı il)
8 - Əməli əs-Saduq –Şeyxut Taifəti Əbu Cəfər Muhəmməd ibn əl-Həsən ət-Tusi (Dər əs-Səqafə nəşriyyatı –Qum –h 1414-cü il)
9 - Biharul Ənvar –Şeyx Muhəmməd ibn əl-Həsən ibn Fərrux əs-Saffər (Ayətullah əl-Məraşi nəşriyyatı –Qum –h 1404-cü il)
11 - Təvil əl-əyət əz-Zahirah –Seyid Şərafəddin Hüseyn Ustrabadi –(İn-tişərət Cəmiətu Mudərrisin) –Qum h 1409-cu il.
12 - Təhzib əl-Əhkəm –Əbu Cəfər Muhəmməd Əbdul Həsən ət-Tusi (Dər əl-Kutub əl-İsləmiyyəti –Tehran) h 1465-ci il.
13 - Təfsir əl-Əmsəl –Nasir Məkərim əş-Şirazi (Muəssəsətul bəsətul littibəəti van nəşr) Beyrut.
14 - Təfsir Dəyən əs-Səədəh -əl-Həc Sultan Muhəmməd əl-Cənəbəzi (Mətbəətu Cəmiətu Tehran)
15 - Təfsir ət-Tibyən –Əbu Cəfər Muhəmməd ibn əl-Həsən ət-Tusi (Əh-məd Həbib əl-Amili) Qum.
16 - Təfsir təqrib əl-Quran –Seyid Muhəmməd əl-Huseyni əş-Şirazi – Beyrut.
17 - Təfsir Cəmi əl-Cəvami –Əminəddin Əbu Əli əl-Fadl ət-Tabrəsi (Muəssəsətun nəşri vattabi Tehran)
18 - Təfsir əl-Cədid-Şeyx Muhəmməd əs-Səbzəvari ən-Nəcəfi (Dər ət-Təaruf-Beyrut)
19 - Təfsir əl-Cəvhər əs-Səmin-Seyid Abdullah Şibr (Əlfeyn nəşriyyatı –Küveyt)
20 - Təfsir Şibr-Seyid Sbdulla Şibr (Dərul-Bələğa nəşriyyatı-Beyrut)

21 - Təfsir əs-Safi-əl-Məulə Muhsin Feyd əl Kəşəni (Dərul Murtəda-Məşhəd)
22 - Təfsir əl-Əyəşi –Əbun Nadr Muhəmməd ibn Məsud ibn Əyəş – Tehran (Məktəbətul ilmiyyətul isləmiyyətu)
23 - Təfsir əl-qummi-Əli ibn İbrahim əl-Qummi-Qum (Dərul Kətəib nəşriyyatı)
24 - Təfsir əl-Kəşif-Muhəmməd Cavad Muğniyəh (Dərul ilm lilnələyin)
25 - Təfsir Məcmə əl-Bəyan-Əmin əd-Din Əbu Əli əl-Fadl ət-Tabrasi (İhyə ət-Turas əl-Ərabi nəşriyyatı –Beyrut) h 1379-cu il.
26 - Təfsir muxtasar məcmə əl-bəyan-Şeyx Muhəmməd Baqir ən-Nasiri (Nəşrul isləmi müəssisəsi –Qum)
27 - Təfsir əl-Muin-əl-Mövla Nurəddin Muhəmməd ibn Murtəda əl-Kəşani (Ayətullah Üzma əl-Mərəşi ən-Nəcəfi nəşriyyatı –Qum)
28 - Təfsir Muqtənə yət əd-Durar-Mir Seyid Əli əl-Həiri ət-Tahrani (Kutubul İsləmiyyə nəşriyyatı –Tehran)
29 - Təfsir min hədgil Quran –Seyid Muhəmməd Təqi əl-Mədrasi (Dərul Hudə nəşryyatı)
30 - Təfsir əl-Munir –Muhəmməd əl-Kərami (Elmi kitabxana –Qum)
31 - Təfsir min Vahyil Quran –Seyid Muhəmməd Hüseyn Fadlullah (Dərur-Zəhra nəşriyyatı –Beyrut)
32 - Təfsir əl-Mizəm –Seyid Muhəmməd Hüseyn ət-Tabtabai (Dərul Kutub əl-İsləmiyyəti –Tehran)
33 - Təfsir nur əs-Səqaleyn –Şeyx Əbdu Əli ibn Cümə əl-Huveyzi (Elmi mətbəə -Qum)
34 - Təfsir əl-Vaciz –Əli ibn əl-Hüseyn ibn Əbi Cəmi əl-Əmili (Qurani Kərim nəşriyyatı –Qum).
35 - Səvabəl-Əməl –Əbu Cəfər Muhəmməd ibn Əli ibn Babaveyh əl-Qummi (Şərif Rida nəşriyyatı –Qum) h 1346-cı il.
36 - əl-Hədəiq ən-Nadira -əl-Muhəqqiq əl-Bəhrani –Qum.
37 - əl-Xisal –Əbu Cəfər Muhəmməd ibn Əli ibn Babaveyh əl-Qummi əs Saduq (Cəmiətul mudərrisin nəşri –Qum) h 1403-cü il.
38 - əl-Dəavat –Qutbud Din ər-Ravandi (İmam Mehdi mədrəsəsi –Qum)
39 - Rical ibn Davud –ibn Davud əl-Hilli (Tehran Universitetinin nəşri – Tehran) h 1383-cü il.
40 - Rical ət-Tusi –Əbu Cəfər Muhəmməd ibn əl-Həsən ət-Tusi (ər-Rəhmən nəşriyyatı –Qum)

41 - Rical əl-Kəşşi –Muhəmməd ibn Ömər ibn Əbdul Əziz əl-Kişşi (Danşkar nəşriyyatı –Məşhəd) h 1348-ci il.
42 - Sir əs-Silsilətul ələviyyə -ibn Nasr əl-Buxari.
43 - Siratul əimmətul isney Aşara –Seyid Haşim əl-Huseyni (Dərul Məarif nəşriyyatı)
44 - Şərh Usul əl-Kəfi –Məbla Muhəmməd Saleh əl-Məzəndərani.
45 - Şərh Nəhcul Bələğa –Əbdul Həmid ibn Əbul Hədid əl-Mötəzili (Ayətulla əl-Məraşi nəşriyyatı –Qum) h 1404-cü il
46 - Sahih min Siratin Nəbiy əl-Əzam ﷺ -əl-Əlləmə əl-Muhaqqiq Seyid Cəfər əl-Murtəda əl-Amili (əl-Huda nəşriyyatı –Beyrut)
47 - əs-Sahifətus Səccədiyyə -İmam Əli ibn Hüseyn ﷺ (əl-Hüda nəşriyyatı –Qum) h 1376-cı il.
48 - Siratun Nucət fi Əcvibəti əl-İstiftəət –Ayətulla Üzma Seyid Əbul Qasim əl-Xui (əl-Məhəccətul Bəyda nəşriyyatı)
49 - İləl əş-Şərai –Əbu Cəfər Muhəmməd ibn Əli ibn Babaveyh əl-Qummi (Dəvare kitabxanası –Qum)
50 - əl-Umdə -ibn Bətriq Yəhya ibn Həsən əl-Hilli (Cəmiətul mudərrisin nəşri –Qum) h 1407-ci il.
51 - Umdətut-Talib fi ənsəb Əli Əbu Talib –Cəmələud Din Əhməd Hüseyn ibn Əli ibn Məhnə "İbn Ənbə" (Heydəriyyə nəşriyyatı –Nəcəf)
52 - Əvali əl-Ləali-ibn Əbu Cumhur əl-Əhsəi (Seyid əş-Şuhədə nəşriyyatı –Qum) h. 1405-ci il.
53 - Uyun axbar ər-Rida ﷺ: Əbu Cəfər Muhəmməd ibn Əli əs-Saduq (Cahan nəşriyyatı) h 1378-ci il.
54 - Firaq əş-Şiə -Şeyx Həsən ibn Musə ən-Novbaxti (əl-Ədva nəşriyyatı –Beyrut) h 1404-cü il.
55 - Fiqhur Rida ﷺ –İmam Rida nəşriyyatı (h 1406-cı il)
56 - Qurbul İsnəd –Abdullah ibn Cəfər əl-Humeyri (Neynəvi nəşriyyatı –Tehran)
57 - əl-Kəfi –Muhəmməd ibn Yaqub əl-Kuleyni (Kutubul İsləmiyyə nəşriyyatı –Tehran)
58 - Kəşful qummə fi mərifətil əimmə: Əbul Həsən Əbi ibn İsa əl-Ərbəli (Bəni Haşim ət-Tərizi nəşriyyatı)
59 - Lisən əl-Ərab –Əbul Fadl Cəməl əd-Din Muhəmməd ibn Məkram ibn Mənzur (Dərul Fikr nəşriyyatı)
60 - Məcmuətu Vəram –Vəram ibn Əbu Firas (əl-Fəqih nəşriyyatı –Qum)

61 - Məcmə ər-Rical –Əli əl-Qahbəi (İsmailəti nəşriyyatı)
62 - Mədinətul Məəciz –Seyid Haşim əl-Bəhrani –Məərif əl-İsləmiyyəti –Qum)
63 - Mustədrak əl-Vasəil –Hüseyn ən-Nəvəvi ət-Tabrasi (Əli beyt nəşriyyatı –Qum) h 1408-ci il.
64 - əl-Məqalət val Firaq –Səd ibn Abdullah əl-Əşəri (Mətluəti Ətani nəşriyyatı –Tehran) 1963-cü il.
65 - Mən Lə yəhduruhul Fəqih –Şeyx Saduq (Nəşrul isləmi nəşriyyatı –Qum) h 1413-cü il.
66 - Mənəqib Əli Əbu Talib ﷺ –Əbu Cəfər Muhəmməd ibn Əli ibn Şəhr Əşub əl-Məzəndərani (İntişərat əl-Əlləmə -Qum) h 1379-cı il.
67 - Minhəc əl-Bəraət fi şərh Nəhcul Bələğa –Mirzə Həbibullah əl-Xui (Dərul Vafə nəşriyyatı –Beyrut)
68 - Nəhcul Bələğa –İmam Əlinin ﷺ sizləri (Dərul Hicra nəşriyyatı –Qum)
69 - ən-Nəvadir –Seyid Fədlullah ər-Ravandi (Ayətullah Məraşi nəşriyyatı –Qum) h 1403-cü il.
70 - Vaqətu Saffeyn –Nası ibn Muzəhim ibn Səyyər əl-Mənqavi (Dərul Kuttəb nəşriyyatı –Qum)
71 - Vasəil əş-Şiə -Muhəmməd ibn Həsən Hur əl-Amil (Əli beyt müəssisəsi –Qum) h 1409-cu il.

MÜDƏRİCAT

Müqəddimə
Giriş 2
Birinci məsələ: “Səhabə” sözünün tərifi 4
Birinci: “Səhabə” sözünün lüğəti tərifi 4
Tənbeh 5
İkinci: “Səhabə” sözünün istilahi tərifi 6
İkinci məsələ: Quran və Əhli beytin səhabələri tərifləmələri 7
Birinci başlıq: Quran və Əhli beytin peyğəmbərin ﷺ səhabələrini tərifləmələri 8
Allahın kitabında səhabələrin tərifləmələri 8
Əhli beytin hörmətli səhabələri tərifləmələri 12
İkinci başlıq: Quran və Əhli beytin üç xəlifəni tərifləməsi 17
Üçüncü başlıq: Quran və Əhli beytin Mühacir və Ənsarları tərifləmələri 19
Qurani Kərimin Mühacir və Ənsarları tərifləməsi 19
Peyğəmbərin ﷺ və onun Əhli Beytinin Mühacir və Ənsarları tərifləmələri 23
Dördüncü başlıq: Quran və Əhli Beytin Bədr əhlini tərifləməsi 24
Beşinci başlıq: Quran və Əhli beytin Məkkənin fəthindən qabaq Allah yolunda xərcləyib döyüşənləri tərifləməsi 25
Üçüncü məsələ: Səhabələr arasında fitnə necə yarandı 28
Birinci: Müsəlmanlar arasında ilk fitnəni yaradan 29
İkinci: Səhabələr arasında fitnənin başlaması 32
Cəməl döyüşü 33
Saffeyn döyüşü 34
İmam Əli ﷺ Şəhid olduqdan sonra baş vermiş olaylar 37
Dördüncü məsələ: İslam və müsəlmanlara qarşı hiylələr 38
Birinci: Peyğəmbərin ﷺ səhabələrinə tənə vurmaq 38
İkinci: Səhabələrin tərcümeyi hallarını təhrif etmək 44
Beşinci məsələ: Peyğəmbərin ﷺ səhabələri barədə düzgün mövqe 45
Altıncı məsələ: Səhabələrlə Əhli beyt ﷺ arasındakı qohumluq və adqoyma əlaqələri 48
Yeddinci məsələ: Sual Cavab 56
1-ci sual: Səhabələrin mürtəd olmaları haqqında 57

2-ci sual: Hovuz hədisi 59
3-cü sual: Allahın bir qrup səhabəni pisləməsi haqqında 61
4-cü sual: Hudeybiyyə sülhü vaxtı səhabələrin peyğəmbərin ﷺ əmrinə müxalif olmaları 64
5-ci sual: Cümə axşamı əhvalatı 68
6-cı sual: Əbu Bəkr əs-Siddiqin Fədək bağı mirasında mövqeyi 72
7-ci sual: Əbu Bəkrin Fatiməni alçaltması məsələsi 81
8-ci sual: Xalid ibn Vəlidin Malik ibn Nuveyra və onun xanımına münasibəti 84
İbratamiz fikirlər 91
Müraciət olunan ədəbiyyat 94